Xalqın qəzeti!

# Xalq qəzeti

№ 111 (30805) 30 may 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Azad Qarabağda qardaşlıq zirvəsi

## Azərbaycan və Türkiyə prezidentlərinin, Pakistanın Baş nazirinin Laçına səfəri

### Laçın Beynəlxalq Hava Limanının açılışı

*Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak ediblər*



**Mayın 28-də Laçın Beynəlxalq Hava Limanının açılış mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər.

Azərbaycan və Türkiyə prezidentləri hava limanının rəmzi açılışını bildirən lenti kəsiblər.

Laçın Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edilib.

Dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış olublar.

(ardı 2-ci səhifədə)

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə





**Hörmətli Prezident Əliyev!**

Müstəqillik Gününüz münasibətilə Sizi və Azərbaycan xalqını Amerika xalqı adından təbrik edirəm.

Biz Azərbaycan Respublikası ilə əlaqələrimizi və terrorizmə qarşı mübarizədə, enerji təhlükəsizliyinin inkişafında, qonşunuzla sülhə nail olmaq istiqamətində ABŞ ilə tərəfdaşlığınızı yüksək qiymətləndiririk. 30 ildən artıq diplomatik münasibətlərimiz müddətində əlaqələrimiz əhəmiyyətli dərəcədə inkişaf edib. Biz ümidvarıq ki, ikitərəfli prioritetlərimiz, o cümlədən təhlükəsizlik sahəsində əməkdaşlığımız, iqtisadi münasibətlərimiz və enerji inkişafı üzrə tərəfdaşlığımız bundan sonra da davam edəcək.

ABŞ Azərbaycan və Ermənistan arasında möhkəm sülhü dəstəkləməkdə davam edir. Davamlı sülh Cənubi Qafqaz regionunun daha firavan olmasını təmin edəcək və ABŞ-la əməkdaşlıq üçün daha geniş imkanlar yaradacaq. İndi sülhə nail olmağın və Cənubi Qafqaz xalqları üçün yeni firavanlıq dövrünə qədəm qoymağın vaxtıdır.

Biz qarşıdakı illərdə və onilliklər ərzində daha dərin tərəfdaşlığa ümid edirik.

Sizə və Azərbaycan xalqına ən xoş arzularımı bildirirəm.

**Hörmətlə,**

***Donald TRAMP,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

## Dar günün dostları



**Xalqımızın milli qürur və iftixar günü sayılan 28 May – Müstəqillik Günü Laçında Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə keçirilən tədbirlərlə qeyd olundu. Bu görüş və tədbirlər yalnız təntənəli mərasimlərlə məhdudlaşmadı, eyni zamanda, regional güc balansına və geosiyasi ittifaqlara dair mühüm mesajların verildiyi strateji bir platformaya çevrildi. Üç qardaş ölkə liderlərinin Laçında – işğaldan azad olunmuş ərazilərdəki tədbirlərdə birgə iştirakı təkcə dostluq rəmzi deyildi, həm də strateji mesaj idi. Çıxışlarda səslənən fikirlər, əslində, gələcək çağırışlara qarşı birgə cavabın bəyannaməsi kimi də qiymətləndirilə bilər.**

Bu çərçivədə Prezident İlham Əliyevin Müstəqillik Gününə həsr olunmuş konsertdən öncə etdiyi çıxış mühüm əhəmiyyət kəsb edir. Dövlətimizin başçısı bildirdi ki, 1991-ci ildə Sovet İttifaqı dağılandan sonra Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi. Ancaq Ermənistanın işğalçılıq siyasəti Azərbaycana böyük faciələr gətirmişdir. Müstəqillik elan olunandan dörd ay sonra Ermənistan dövləti xalqımıza qarşı soyqırımı törətmişdir. Xocalı soyqırımı nəticəsində 613 günahsız insan, o cümlədən 106 qadın, 63 uşaq bir gecə içində vəhşicəsinə öldürülmüşdür. Müstəqillik elan olunandan yeddi ay sonra isə Laçın erməni işğalına məruz qalmışdır. Ondan əvvəl Şuşa şəhəri işğal olunmuşdur. Ermənistanın işğalçılıq siyasəti ondan sonra da davam etdirilmişdir. Xarici ölkələrin dəstəyi hesabına Azərbaycan ərazisinin təxminən 20 faizi erməni işğalına məruz qalmışdır. Qarabağ və Şərqi Zəngəzur bölgəsindən 100 minlərlə azərbaycanlı etnik təmizləməyə məruz qalmış, qaçqın-köçkün həyatına başlamışdır.

(ardı 11-ci səhifədə)

## El bilsin ki...



Səhifə ⇨ 10

## Azad torpaqlarda dirçəliş marafonu davam edir



Səhifə ⇨ 12

## Ağ evdən Bakıya mesajlar

*Təhlükəsizlik, enerji və sülh üzərində qurulan yeni geosiyasi dialoq*



**28 May – Müstəqillik Günü münasibətilə ABŞ Prezidenti Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubu strateji və geosiyasi baxımdan ciddi siyasi siqnal kimi qiymətləndirilə bilər. Məktubda ifadə olunan məqamlar – xüsusilə, terrorizmlə mübarizə, enerji təhlükəsizliyi və regional sülhə dəstək – ABŞ-Azərbaycan münasibətlərinin çoxşaxəli və qarşılıqlı maraqlara əsaslanan xarakterini nümayiş etdirir. Həmin tezislər Azərbaycanın yalnız Cənubi Qafqaz regionunda deyil, eyni zamanda, qlobal miqyasda mühüm tərəfdaş statusunu təsdiqləyir.**

ABŞ Prezidenti Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı Respublika Günü təbrik məktubunda xüsusi vurğulanan terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlıq Azərbaycanın beynəlxalq təhlükəsizlik arxitekturasında formalaşan rolu və bu missiyaya olan etimadın ifadəsi kimi dəyərləndirilməlidir.

Azərbaycan uzun illərdir ki, Cənubi Qafqazda sabitliyin qorunmasına yönəlik müstəqil və praqmatik xarici siyasət xətti yürüdür və bu siyasətin mühüm istiqamətlərindən biri də beynəlxalq terrorizmə qarşı mübarizədə aktiv iştirakı olmuşdur. Xüsusilə, Əfqanıstandakı sülhməramlı missiyalarda iştirak, NATO çərçivəsində əməkdaşlıq və regiondaxili təhlükəsizlik mexanizmlərinin gücləndirilməsi Azərbaycanın bu sahədəki beynəlxalq öhdəliklərini uğurla yerinə yetirdiyini göstərir.

(ardı 11-ci səhifədə)

## Azərbaycan paytaxtı beynəlxalq Enerji Həftəsinə hazırdır

*Builki toplantıda 39 ölkədən 267 şirkət iştirak edəcək*



**İyunun 2-dən 4-dək Bakıda regionun mühüm sənaye toplantısı olan və hər il qlobal enerji liderlərini bir araya gətirən Bakı Enerji Həftəsi keçiriləcək. Həftə çərçivəsində 30-cu beynəlxalq "Xəzər neft və qaz" sərgisi, 13-cü "Xəzər beynəlxalq energetika və yaşıl enerji" sərgisi, eləcə də 30-cu Bakı Enerji Forumu keçiriləcək. Bu və digər məsələlər barədə Bakı Enerji Həftəsinə həsr olunmuş mətbuat konfransında ətraflı məlumat verildi.**

(ardı 12-ci səhifədə)

# Azad Qarabağda qardaşlıq zirvəsi

## Laçın Beynəlxalq Hava Limanının açılışı

(ardı 2-ci səhifədə)

Qeyd edək ki, mürəkkəb dağlıq relyefdə yerləşən Laçın Beynəlxalq Hava Limanı işğaldan azad olunmuş ərazilərdə inşa edilən üçüncü beynəlxalq hava limanıdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş torpaqlarımızda genişmiqyaslı bərpa və yenidənqurma işləri həyata keçirilir. Bu layihələrin arasında hava limanlarının inşası xüsusilə mühüm strateji əhəmiyyət daşıyır. İndiyədək bu ərazilərimizdə müasir standartlara cavab verən Füzuli və Zəngilan Beynəlxalq Hava limanları inşa olunub. Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi ilə Azərbaycanın beynəlxalq hava limanlarının sayı doqquza çatıb.

Tikintisinə 2021-ci ilin avqust ayında başlanılmış bu mühüm infrastruktur obyektinin inşası ən yüksək texnoloji və mühəndislik standartlarına uyğun həyata keçirilib. Qeyd edək ki, hava limanının təməli 2021-ci ildə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Ötən müddət ərzində dövlətimizin başçısı və birinci xanım bir neçə dəfə burada tikinti işlərinin gedişi ilə tanış olublar.



Hava limanında istənilən tip hava gəmisinin qəbuluna imkan verən, uzunluğu 3 min, eni isə 60 metr olan uçuş-enmə zolağı inşa edilib. Beş min kvadratmetrlik terminal binası saatda ən azı 200 sərnişinə xidmət göstərmək imkanına malikdir. Terminalda sərnişinlərin rahatlığı üçün VIP zal, qeydiyyat və təhlükəsizlik sistemləri, baqaj konveyerləri, ticarət obyektləri və iaşə zonaları nəzərdə tutulub. Tam avtomatlaşdırılmış sistemlərlə təchiz olunmuş Hava Hərəkətini İdarəetmə Qülləsi uçuşların beynəlxalq normalara və təhlükəsizlik standartlarına uyğun şəkildə idarə olunmasını təmin edir. Burada yaradılmış infrastruktur ICAO və IATA standartlarına uyğun olaraq uçuşların təhlükəsiz və səmərəli şəkildə həyata keçirilməsinə imkan verir.

Laçın rayonunun Qorçu kəndində dəniz səviyyəsindən 1700 metr hündürlükdə yerləşən hava limanının ümumi ərazisi 130 hektardan çoxdur. Bu hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportudur. Laçın şəhərindən 30 kilometr, Şuşadan 70 kilometr, Kəlbəcərdən isə 60 kilometr məsafədə yerləşən hava limanı Qarabağ və Şərqi Zəngəzur regionlarının nəqliyyat əlaqələrinin gücləndirilməsində mühüm rol oynayacaq. Bundan başqa, bu mühüm nəqliyyat layihəsinin icrası ümumilikdə bölgənin turizm potensialının inkişafına da geniş imkanlar yaradacaq. Coğrafi mövqeyi və əlçatanlığı ilə bu hava limanı bölgənin iqtisadi, sosial və logistik inteqrasiyasını dəstəkləyən əsas nəqliyyat mərkəzinə çevriləcək.












Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan türk və azərbaycanlı sərmayədarlar tərəfindən Qarabağ və Zəngəzur bölgələrində yaradılan ilk özəl kənd təsərrüfatı kompleksi olan "Dost Aqropark"da istehsal edilən məhsullara baxdılar.

Qeyd edildi ki, kompleksdə "ağıllı kənd təsərrüfatı" texnologiyaları, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinə əsaslanan fəaliyyət qurulub. Aqroparkda hazırda 120 nəfər işlə təmin olunub. Tam işə düşdükdən sonra burada 500 nəfərə iş imkanı yaradılacaq.

# Azad Qarabağda qardaşlıq zirvəsi

## Azərbaycan və Türkiyə prezidentləri Kəlbəcər–Laçın avtomobil yolunda



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mayın 28-də Kəlbəcər-Laçın avtomobil yolunda görülən tikinti işləri ilə tanış olublar.**



Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov Azərbaycan və Türkiyə prezidentlərinə görülən işlər barədə məlumat verib.

Dövlətimizin başçısının tapşırığına əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra edilən mühüm əhəmiyyətə malik yol infrastrukturu layihələrindən biri də uzunluğu 75,8 kilometr olan Kəlbəcər-Laçın avtomobil yoludur.

Uzunluğu 126 kilometr olan mövcud Kəlbəcər-Laçın avtomobil yolunun yeni layihəyə əsasən tikintisi Kəlbəcər şəhər mərkəzindən Laçın şəhər mərkəzinədək məsafəni 32,2 kilometr qısaldaraq 93,8 kilometr təşkil edəcək.

Laçın şəhər mərkəzindən Laçın Beynəlxalq Hava Limanınadək hazırda mövcud yol üzrə məsafə 65 kilometr təşkil edir. Yeni tikilən yol üzrə isə məsafə 35,8 kilometr olacaq. Yolun 40-cı kilometrliyindən ayrılan



və Laçın Beynəlxalq Hava Limanına aparan körpünün tikintisi də layihə çərçivəsində yerinə yetirilir. Ümumilikdə Kəlbəcər-Laçın avtomobil yolunda tikinti işlərinin 44 faizi icra olunub. Yeni yol Kəlbəcər və Laçın rayonlarının bir çox yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzinə və Laçın Beynəlxalq Hava Limanına rahat gediş-gəlişi təmin edəcək, ümumilikdə bu bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək.

Başlanğıcını Kəlbəcər rayonunun Qamışlı kəndindən götürməklə Laçın rayonunun ərazisindən keçən və bu iki rayonu birləşdirən yol 2, 3 və 4 hərəkət zolaqlı olacaq.

Yolboyu tikintisi nəzərdə tutulmuş 17 avtomobil tunelindən 16-da tikinti işləri uğurla davam etdirilir, birinin isə layihələndirilməsi aparılır.





## Azərbaycan və Türkiyə prezidentlərinin təkbətək görüşü



**Mayın 28-də Laçında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.**

## Azərbaycan Prezidentinin, Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin Zirvə görüşü



**Laçında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin Zirvə görüşü keçirilib. Dövlətimizin başçısı Zirvə görüşündə çıxış etdi.**

## Prezident İlham Əliyevin çıxışı



– Hörmətli Türkiyə Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Hörmətli Pakistanın Baş naziri, əziz qardaşım Məhəmməd Şahbaz Şərif.

Əziz dostlar, Azərbaycana, Şərqi Zəngəzura, Laçına xoş gəlmisiniz.

Bugünkü Zirvə görüşü Azərbaycanın Müstəqillik Günündə, erməni işğalından azad edilmiş Laçında keçirilir. Bunun böyük rəmzi mənası var. Bugünkü Zirvə görüşü sayca ikincidir. Keçən ilin iyulunda Azərbaycan–Türkiyə–Pakistan birinci Zirvə görüşü keçirilmişdir. Əminəm ki, biz bu ənənəni davam etdirəcəyik.

Ölkələrimiz və xalqlarımız birgə tarix, mədəniyyət və dəyərlər əsasında bir-birinə bağlıdır. Bir-birimizin uğurlarına sevinmişik, çətin günlərdə bir-birimizin yanında olmuşuq.

Azərbaycan, Türkiyə və Pakistan hər zaman suverenlik, ərazi bütövlüyü və ədalət tərəfində olub. 2020-ci ildə 44 günlük Vətən müharibəsinin ilk günlərindən etibarən Türkiyənin və Pakistanın ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstəyə görə bir daha minnətdarlığımızı bildiririk. Azərbaycan da öz növbəsində daim Türkiyənin və Pakistanın yanında olub. Bu gün biz bir daha xalqlarımızın birliyini təsdiqləyirik.

**(ardı 4-cü səhifədə)**

# Azad Qarabağda qardaşlıq zirvəsi

## Azərbaycan Prezidentinin, Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin Zirvə görüşü




(əvvəli 3-cü səhifədə)

Ölkələrimizin strateji mövqeyindən və dinamik iqtisadi potensialımızdan istifadə etməklə qarşılıqlı faydalar əldə etmək üçün geniş imkanlar var.

Siyasət, iqtisadiyyat, energetika, qarşılıqlı investisiyalar, nəqliyyat, müdafiə, kənd təsərrüfatı, informasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın birgə layihələr və proqramlar vasitəsilə daha böyük sürətlə inkişaf edəcəyinə inanırıq.

Azərbaycan Türkiyə iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox sərmayə qoyub, Pakistan iqtisadiyyatına 2 milyard ABŞ dolları qoymağa hazırdır. Hazırda konkret investisiya layihələri üzrə işlər gedir.

Azərbaycan və Türkiyənin əməkdaşlığı nəticəsində yalnız bölgəmizin deyil, geniş coğrafiyanın enerji xəritəsi dəyişib. Ölkələrimiz enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rola malik olub və bu gün bərpaolunan enerjinin istehsalı və ixracı istiqamətində geniş layihələrə start verilib. Bununla yanaşı, Azərbaycan və Türkiyədən keçməklə Asiya ilə Avropanı birləşdirən nəqliyyat yolları strateji əhəmiyyət daşıyır. Multimodal yük marşrutunun inkişafı yolu ilə Pakistanın da bu təşəbbüsdə yaxından iştirakının əməkdaşlığımıza daha da təkan verəcəyinə əminik.

Müdafiə sahəsində əməkdaşlıq tərəfdaşlığımızın önəmli istiqamətlərindən biridir. Birgə hərbi təlimlər və hərbi-texniki sahədə layihələr silahlı qüvvələrimizin potensialını gücləndirib. Bizim hərbi əməkdaşlığımız geniş coğrafiyada sülhü və sabitliyi gücləndirir.

Biz, həmçinin rəqəmsal innovasiyalar, süni intellekt və kosmik texnologiyalar kimi yeni əməkdaşlıq sahələrini araşdırmalıyıq.

Birgə mədəni tədbirlər, akademik tərəfdaşlıqlar və turizm əlaqələrinin fəallaşması xalqlarımız arasındakı bağları daha da gücləndirəcəkdir.

Eyni zamanda, beynəlxalq platformalarda və təşkilatlarda həmrəyliyimiz gücümüzə güc qatır. Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM), habelə D-8 kimi beynəlxalq platformalarda birgə səylərimizi daha da möhkəmləndirmək əzmindəyik.

Həmçinin ölkəmizin ötən il D-8-in 11-ci Zirvə görüşü zamanı yekdilliklə bu təşkilatın üzvü seçilməsində göstərilən dəstəyə görə qardaş Türkiyəyə və qardaş Pakistana bir daha təşəkkür edirəm.

Hörmətli həmkarlar, Azərbaycan hər zaman qardaş Türkiyənin və Pakistanın yanında olub.

Türkiyənin terrorçuluqla mübarizə istiqamətində əldə etdiyi uğurlar bizi ürəkdən sevindirir. PKK terror qruplaşmasının özünü ləğv etməsi və tərk-silah ilə bağlı qərarı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyinin və əzminin, Türkiyə dövlətinin gücünün nümunəsidir. Bu tarixi hadisə yalnız Türkiyə üçün deyil, ümumilikdə bölgədə sülh və əmin-amanlıq üçün önəmli məsələdir. Bu tarixi hadisə münasibətilə qardaş Türkiyəni bir daha təbrik edirəm.

Pakistan və Hindistan arasında son gərginliyi böyük narahatlıq hissi ilə, eləcə də sülhün və sabitliyin bərpa olunacağı ümidi ilə yaxından izlədik. Bu gərgin dönəmdə ilk gündən Pakistanla həmrəyliyimizi açıq şəkildə ifadə etdik. Münaqişənin dialoq və sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslanan həllini dəstəklədik.

Əziz dostlar, 30 illik Ermənistan işğalından sonra dirçəliş dövrünü yaşayan Laçına bir daha xoş gəlmisiniz.

Əminəm ki, Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı əbədi olacaq.

Diqqətinizə görə təşəkkür edirəm.

*

Sonra Türkiyə Prezidenti çıxış etdi.

### Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı




– Əziz qardaşım, Prezident cənab İlham Əliyev.

Əziz dostum, Baş nazir cənab Şahbaz Şərif.

Hörmətli mətbuat nümayəndələri.

Sizləri ən səmimi duyğularımla, sevgi ilə salamlayıram.

Birincisini ötən il Astanada keçirdiyimiz Türkiyə-Azərbaycan-Pakistan üçtərəfli Zirvəsinin ikinci toplantısında sizlərlə birlikdəyik. Səmimi ev sahibliyinə görə İlham qardaşıma təşəkkür edirəm.

Çıxışımın əvvəlində Can Azərbaycanı 28 May Müstəqillik Günü münasibətilə təbrik edirəm. Həyatlarını qurban verərək Azərbaycanın müstəqilliyini təmin edən şəhidlərimizi rəhmətlə yad edirəm.

Qarşılıqlı sevgi, hörmət və etimada əsaslanan, eyni mədəniyyət mühitindən bəhrələnən ortaq idealları bölüşən üç qardaş ölkəyik. Təxminən, 350 milyon əhaliyə və 1,5 trilyon dollar iqtisadi gücə sahib ölkələrimizin arasındakı bağları daha da gücləndiririk. Birliyimizi strateji tərəfdaşlığa çevirməyə yönəlmiş hər bir addımın arxasında olduğumuzu xüsusilə vurğulamaq istəyirəm.

Bölgəmizdə baş verən hadisələr ölkələrimiz arasındakı həmrəyliyin nə qədər vacib olduğunu gündən-günə daha aydın şəkildə göstərir. Azərbaycanın 30 il işğal altında qalan torpaqlarının azad olunması ilə artıq bölgənin sabitlik, rifah və inkişaf mərkəzinə çevrilməsini arzulayırıq. Bu gün səhər açılışını etdiyimiz Laçın Hava Limanının bölgənin uzun illərdən bəri həsrət qaldığı inkişafa və dünya ilə inteqrasiyasına mühüm töhfə verəcəyinə inanıram.

Dəyərli qardaşım cənab Şahbaz Şərifi üç gün əvvəl İstanbulda qəbul etdik. Görüşümüzdə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində tərəfdaşlıq məsələlərini nəzərdən keçirdik. Türkiyə ilə Pakistan arasındakı dərin tarixi və humanitar əlaqələri daha da möhkəmləndirmək barədə razılığa gəldik.

Fürsətdən istifadə edərək, Pakistan ilə Hindistan arasında baş verən gərginliyin atəşkəslə nəticələnməsindən məmnunluq duyduğumuzu ifadə etmək istəyirəm. Bu proses müddətində nümayiş etdirdiyi təmkinli və qətiyyətli mövqeyinə görə Şahbaz qardaşımızı və Pakistan rəsmilərini bir daha təbrik edirəm. Arzumuz elan olunan atəşkəsin davamlı sülhə çevrilməsidir. Türkiyə bu yolda üzərinə düşən hər cür töhfəni verməyə hazırdır.

Əziz qardaşlarım, ölkələrimiz Avropa ilə Asiyanın kəsişmə nöqtəsində, son dərəcə strateji bir bölgədə yerləşir. Coğrafiyamızda və onun hüdudlarından kənarda təhlükəsizlik təhdidlərindən tutmuş iqtisadi çətinliklərə, enerji və qida böhranlarına qədər bir çox sınaqlarla eyni anda üz-üzəyik. Bu çətinliklər qarşısında həmrəylik və birgə fəaliyyət məqsədimizin inkişaf etdirilməsini bir seçim deyil, zərurət olaraq görürük.

Üçtərəfli əməkdaşlığımızı daha da irəli aparmaq üçün bu gün əziz qardaşlarımla mühüm mövzularda fikir mübadiləsi aparırıq. Üçtərəfli əməkdaşlığımızın təşkilatlanması üçün qarşıdakı dövrdə xarici işlər nazirlərimiz zəruri işləri həyata keçirəcəklər. Xüsusilə ortaq gündəmimizi formalaşdıran ticarət, investisiyalar, nəqliyyat, enerji, müdafiə sənayesi və terrorla mübarizə kimi sahələrdə ölkələrimizin ortaq baxışını əks etdirən güclü bir çərçivə hazırlayacaqlar.

Türkiyə, Azərbaycan və Pakistan olaraq, mütəmadi üçtərəfli Zirvə görüşləri və nazirlər səviyyəsində toplantılar təşkil etməklə əməkdaşlığımızı institusional səviyyəyə çatdıracağıq. Müdafiə sahəsində əməkdaşlığımızı dərinləşdirib terrorla mübarizə və transsərhəd təhdidlərə qarşı ortaq qətiyyətimizi davam etdirəcəyik. Ticarətin asanlaşdırılması, investisiyaların təşviqi və rəqəmsal transformasiya sahələrində müştərək addımlar atmağı hədəfləyirik.

Əməkdaşlığımızın son dərəcə strateji aspektini təşkil edən nəqliyyat sahəsində "İnkişaf Yolu", "Orta Dəhliz" və "Şimal-Cənub Nəqliyyat Dəhlizi" kimi layihələrə birlikdə töhfə verəcəyik. Mədəniyyət və təhsil sahələrində, xüsusilə də gənclərimizin və alimlərimizin qarşılıqlı təmaslarını artıracaq layihələr üzərində çalışacağıq. Enerji təhlükəsizliyi, ərzaq təhlükəsizliyi və bərpaolunan enerji sahələrindəki imkanları birlikdə dəyərləndirəcəyik.

İnşallah, bütün bu sahələrdə nüfuzlu layihələri həyata keçirməklə üçtərəfli əməkdaşlığımızı daha da yüksək səviyyəyə çatdıracaq və xalqlarımıza yeni nailiyyətlər bəxş edəcəyik.

Əziz qardaşlarım, qütbləşmənin dərinləşdiyi, bloklaşmanın artdığı bu dövrdə beynəlxalq sistemin getdikcə legitimlik böhranına sürükləndiyinin şahidi oluruq. Beynəlxalq sistemin yaşadığı böhranın bu baxımdan açıq nümunəsini İsrailin Fələstində qarşısıalınmaz zülmü və bu zülm qarşısında davam etdirdiyi ekspansionist siyasət təşkil edir. Biz Qəzzada göz görəgörə qətlə yetirilən günahsız uşaqların və insanların haqqının müdafiəsini davam etdirməkdə qətiyyətliyik. Bölgəmizin sabitliyini pozmağa çalışan bütün cəhdlərə qarşı duracağımızı bir daha vurğulamaq istəyirəm. Coğrafiyamız qandan və göz yaşından doymuşdur. Buradan bütün dünyaya Qəzzada davamlı atəşkəsin təmin olunması və Qəzzaya fasiləsiz, təcili humanitar yardımın çatdırılması üçün İsrail hökumətinə təzyiqləri artırmaq barədə çağırış edirik.

Çıxışımın sonunda İlham qardaşım başda olmaqla Can Azərbaycan xalqına, xüsusilə də laçınlı qardaşlarıma səmimi qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirirəm.

Sizləri yenə də ən səmimi duyğularımla salamlayır, 28 May – Müstəqillik Gününüzü bir daha təbrik edirəm. Uca Allah yolumuzu və taleyimizi açıq etsin. Rəbbim qardaşlığımızı əbədi, birliyimizi davamlı etsin. Sağ olun, salamat qalın.

*

Daha sonra Pakistanın Baş naziri çıxış etdi.

### Baş nazir Məhəmməd Şahbaz Şərifin çıxışı

– Bismillahir-rəhmanir-rəhim.

Möhtərəm Prezident İlham Əliyev.

Möhtərəm Prezident Rəcəb Tayyib Ərdoğan.

Hörmətli nazirlər, hörmətli tədbir iştirakçıları, salamaleyküm, hər vaxtınız xeyir.

Çıxışımın əvvəlində əziz qardaşım Prezident İlham Əliyevi, azərbaycanlı bacı və qardaşlarımızı Müstəqillik Günü münasibətilə təbrik etmək istəyirəm. Azərbaycan




xalqı öz azadlığı uğrunda çox ciddi mübarizə apardı və siz bu gün beynəlxalq müstəvidə də güclü mövqeyə maliksiniz.

Bu məqamda mən, həmçinin əziz qardaşım Rəcəb Tayyib Ərdoğana təbriklərimi çatdırmaq istəyirəm. Çünki o, çox böyük məharətlə PKK məsələsini həll etdi və bu, əziz qardaşımın diplomatik məharətini nümayiş etdirdi. Bu məsələ öz həllini tapdı və beləliklə, Siz təkcə regionda deyil, dünya miqyasında da mühüm hörmətə malik oldunuz.

Əziz qardaşım İlham Əliyev, səmimi qonaqpərvərliyinizə görə Sizə dərin təşəkkürümü bildirirəm. Bu gün əziz qardaşlarım - Prezident Əliyev və Prezident Ərdoğanla əsl dostların, qəlblərin və ruhların təzahürü olan bu gözəl məkanda birgə olmaqdan böyük şərəf duyuram. Gözəl Laçında dalğalanan Azərbaycan, Türkiyə və Pakistan bayraqlarını görmək qəlblərimizi hədsiz sevinc və fəxarət hissi ilə doldurur.

Zati-aliləri, biz ötən il Astanada üçtərəfli formatda görüşdük və qarşılıqlı maraq doğuran məsələlər ətrafında olduqca səmərəli müzakirələr apardıq. Bu gün isə biz füsunkar Laçında üçtərəfli tərəfdaşlığımızı xalqlarımızın istəyinə uyğun olaraq yeni səviyyəyə qaldırmaq arzusundayıq. Həmin arzu heç kəsi təəccübləndirməməlidir. Çünki Azərbaycan, Türkiyə və Pakistan əsrlər boyu təşəkkül tapmış birgə dəyərlərə və qarşılıqlı dəstəyə əsaslanan dərin tarixi, mədəni və mənəvi tellərlə bağlıdır.

Əziz qardaşlarım, son dövrlərdə bu tarixi münasibətləri Qarabağda, Kəşmirdə və Şimali Kiprdə bir-birimizin yanında olmağımızla gücləndirmişik. Bizim gücümüz həmrəyliyimizdə və qarşılıqlı hörmətə əsaslanır. Bu, təbiidir, çünki Türkiyədə və Azərbaycanda qardaş xalqlarımız bizə güclü dəstək olmuşlar. Sıravi vətəndaşlarımızın coşqusu bizi valeh etməyə bilməzdi. Mən Pakistanın Hindistanla sonuncu münaqişəsindən bəhs edirəm. Orada nəinki Pakistana qarşı tutarlı dəlillər təqdim olunmadı, hətta Pahalqamda baş vermiş insidentlə bağlı istənilən beynəlxalq qurum tərəfindən bitərəf və şəffaf tədqiqatın aparılması təklifimiz də rədd edildi.

Əziz qardaşlarım, bugünkü dünyamızda ciddi çağırışlar, silahlı münaqişələr, iqlim dəyişikliyi, xəstəliklər və iqtisadi böhranlar mövcuddur. Bu səbəbdən ölkələrimiz bir araya gələrək münaqişəni rədd edir və mərhəməti seçir. Biz əminik ki, səbir və müdriklik nəticə etibarilə qalib gələcəkdir və firavanlığı təmin edəcəkdir. Bugünkü təlatümlü dünyada siyasi və təhlükəsizlik arxitekturaları, bağlantı layihələri və aparıcı texnologiyalar yeni reallığı şərtləndirir. Belə bir şəraitdə Pakistanın bəxti gətirib ki, Türkiyə və Azərbaycan kimi səmimi qardaşları var. Siz əzəmətli qaya kimi bizimlə bərabər dayandınız və biz tərəddüdsüz olaraq sizə etibar edirik. Biz silahdaş qardaşlar kimi sülhü, ədaləti və mənəvi dəyərləri hər zaman üstün tutacağıq.

Əziz qardaşlarım, əminəm ki, zamanın sınağından keçmiş münasibətlərimiz xalqlarımızın mənafeyinə xidmət edəcək, regionda və daha geniş coğrafiyada sülhə və firavanlığa töhfə verəcək. Bu üçtərəfli format həm zamanında təşkil edilib, həm də mühüm əhəmiyyətə malikdir. Bu, bizə zəruri siyasi məsuliyyətlə yanaşı, qarşılıqlı maraq doğuran sahələrdə birgə irəliləmək üçün təkan verir.

Çıxışımın sonunda bir daha səmimi-qəlbdən Pakistana sonuncu münaqişədə göstərilən dəstəyə görə təşəkkür edirəm. Bu, açıq-aydın Hindistanın bizə qarşı hərbi təcavüzü idi və bunun üçün heç bir səbəb yox idi. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğan, həmin vaxt Sizin qəti mövqeyiniz və həmrəyliyiniz, eyni zamanda, əziz qardaşım İlham Əliyevin də eyni şəkildə göstərdiyi qətiyyət bizdə çox yüksək qiymətləndirildi, həm xalqımız, həm hökumətimiz, həm də şəxsən mənim tərəfimdən. Biz buna görə hər zaman hər ikinizə və hər iki xalqa təşəkkürümüzü bildirəcəyik.

Mən çıxışımın sonunda marşal Asim Munirin rolunu qeyd etmək istəyirəm. Çünki məhz onun rəhbərliyi ilə bizim ordumuz böyük şücaət, peşəkarlıq göstərdi. Bütün xalq ordunun və şəxsən marşalın arxasında idi. Mən həmin məqamda ona diqqət yetirdim. O, qorxmadan cəsur və qətiyyətli hərəkət etdi, eyni zamanda, səbir və çox güclü mövqe nümayiş etdirdi. Allaha şükürlər olsun ki, Allahın bizim üzərimizdə olması səbəbindən və sizin dəstəyiniz nəticəsində biz qalib gəldik.

Mən bir daha qeyd etmək istəyirəm ki, biz regionda sülh arzulayırıq. Biz keçmişdə də sülh istəyirdik, bu gün də sülh istəyirik və gələcəkdə də sülhün tərəfdarı olacağıq. Bunun üçün isə əlbəttə ki, danışıqlar masasında əyləşmək lazımdır. Çünki bu, çox mühüm məsələlərdir və bu məsələlər dinc yolla həll edilməlidir. Bu məsələ Kəşmir probleminə aiddir və burada BMT-nin müvafiq qətnamələri var. Eyni zamanda, bu məsələ Kəşmir xalqının iradəsinə uyğun həll edilməlidir.

İkinci məsələ su məsələsidir. Əziz qardaşlarım, çox təəssüflər ki, Hindistan bu münaqişə zamanı su ilə bağlı sazişi pozdu, Pakistanın 240 milyonluq xalqı sudan məhrum edildi. Bu, bizim həm içməli suyumuz, həm də kənd təsərrüfatı üçün vacib olan su ehtiyatları idi. Bu, bizi çox dərindən məyus etdi ki, Hindistan məhz bu məsələdən, bu imkandan bizə qarşı istifadə etdi. Bu, mümkünsüz bir məsələdir və ümidvarıq ki, gələcəkdə bu baş verməyəcək. Əlimizdən gələni edirik ki, Hindistan bir daha belə bir hərəkətə yol verməsin.

Sonda terrorçuluq məsələsinə toxunmaq istəyirəm. Mən qeyd etmək istəyirəm ki, Hindistan həqiqətən terrorçuluqla mübarizədə səmimi dialoqa hazırdırsa, biz Hindistanla bu məsələdə müzakirə aparmağa hazırıq. Ancaq qeyd etmək lazımdır ki, terrorun qurbanı bizik. Son onilliklər ərzində bizim 90 min vətəndaşımız terrorun qurbanı olub, bizə 150 milyard dollar həcmində iqtisadi ziyan dəyib. Ona görə də terrorun kökünü birdəfəlik kəsmək bizim öhdəliyimiz və niyyətimizdir. Bir daha deyirəm ki, Hindistan buna hazırdırsa, Pakistan Hindistanla bunu müzakirə edə bilər, eyni zamanda, ticarətin təşviqini və digər məsələləri.

Mən bir daha Sizə bütün bu məsələlərdə bizə dəstək göstərəcəyinizə ümid edirəm. Əziz qardaşlarım, Uca və Müdrik Allahdan bu işimizdə bizə yardımçı olmağı diləyirəm.

Əziz qardaşlarım, diqqətinizə görə təşəkkür edirəm. Yaşasın Pakistan-Azərbaycan-Türkiyə qardaşlığı və dostluğu!

# Azad Qarabağda qardaşlıq zirvəsi

## Azərbaycan və Türkiyə prezidentləri, Pakistanın Baş naziri Laçın seyrəngahında










**Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif Laçın şəhərində seyrəngahda olublar.**

Prezident İlham Əliyevin iki il əvvəl mayın 28-də bu seyrəngahda ilk dəfə Laçına köçən keçmiş məcburi köçkünlərə evlərinin açarlarını təqdim etdiyi barədə qonaqlara məlumat verildi.

Bildirildi ki, indi burada Laçında istifadəyə verilmiş müəssisələrin məhsulları nümayiş olunur. Sərgidə "Laçın" Aqro-Sənaye Parkında, "PIRSHAGHI" ayaqqabı fabrikinin, "Gilabi Ceramics" Yaradıcılıq Mərkəzinin Laçın filiallarında, "LATIFA" Laçın tikiş fabrikində istehsal olunan məhsullar təqdim edilir. Həmçinin sərgidə "Bakı Abadlıq Xidməti", efir yağları zavodu, "Naxışlı" tikiş evi, Laçındakı Heyvandarlıq Seleksiya Mərkəzi, "Həkəri" balıqçılıq təsərrüfatı da təmsil olunur.

Qeyd edək ki, sərgi 28 May - Müstəqillik Gününə həsr olunub.

# 28 May Müstəqillik Gününə həsr olunmuş konsert





**Mayın 28-də Laçında 28 May - Müstəqillik Gününə həsr olunmuş konsert keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif konsertdə iştirak ediblər. Əvvəlcə Azərbaycanın, Türkiyənin və Pakistanın Dövlət himnləri səsləndirilib. Dövlətimizin başçısı tədbirdə çıxış etdi.**




### Prezident İlham Əliyevin çıxışı

– Hörmətli Türkiyə Cümhurbaşqanı, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Hörmətli Pakistanın Baş naziri, əziz qardaşım Məhəmməd Şahbaz Şərif.

Hörmətli qonaqlar, əziz laçınlılar.

İlk növbədə, bütün Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm. Bu bayram günündə bizimlə bərabər olan Türkiyə və Pakistan liderlərinə və onlarla bərabər Azərbaycana gəlmiş qonaqlara "Xoş gəlmisiniz!" deyirəm.

Azərbaycan, Türkiyə və Pakistan - üç qardaş ölkə əməkdaşlığı ildən-ilə, gündən-günə gücləndirirlər. Biz yaxşı günlərdə də, ağır günlərdə də hər zaman bir-birimizin yanındayıq, həmrəylik, dəstək göstəririk. Bu gün ikinci üçtərəfli Zirvə görüşündə bir daha bizim strateji əməkdaşlığımız təsdiqləndi. İşğaldan azad edilmiş Laçında, Şərqi Zəngəzurda iki qardaş ölkənin liderlərinin iştirakı ilə keçirilən bugünkü mərasim Azərbaycan-Türkiyə-Pakistan birliyinin, qardaşlığının növbəti təzahürüdür.

Xüsusilə bu bölgədə, 30 il ərzində işğal altında qalan Laçın şəhərində bizim birgə olmağımız böyük rəmzi məna daşıyır. Çünki 44 günlük İkinci Qarabağ müharibəsi zamanı bizi Türkiyə və Pakistan dəstəkləmişdir. Türkiyənin və Pakistanın dəstəyi bizi ruhlandırırdı, bizə əlavə güc verirdi. Bu böyük siyasi və mənəvi dəstəyə görə biz hər zaman qardaş ölkələrin rəhbərlərinə, qardaş xalqlara minnətdarıq.

Bu gün bizim üçtərəfli əməkdaşlığımızın yeni səhifəsi açılır. Əminəm ki, bu gün müzakirə etdiyimiz məsələlər, əldə edilmiş razılaşmalar bizi bir-birimizə daha da yaxın edəcək.

(ardı 6-cı səhifədə)

# Azad Qarabağda qardaşlıq zirvəsi

## 28 May Müstəqillik Gününə həsr olunmuş konsert

(əvvəli 5-ci səhifədə)

107 il bundan əvvəl müsəlman aləmində ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyəti yaradılmışdır. Bu, böyük tarixi hadisə idi. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. İki il sonra - 1920-ci ilin aprel ayında müstəqilliyimiz əlimizdən alınmışdır. Ondan bir neçə ay sonra - 1920-ci ilin noyabr ayında sovet Rusiyası tərəfindən Qərbi Zəngəzur bölgəsi Azərbaycandan ayrılıb Ermənistana birləşdirilmişdir. Bu, böyük ədalətsizlik idi və Azərbaycan xalqı buna oxşar ədalətsizliklərlə tarix boyu üz-üzə qalmışdır. Ancaq xalqımızın iradəsi və qardaş xalqların dəstəyi bizə güc verirdi, bizi ruhlandırırdı və iradəmizi gücləndirirdi.

1991-ci ildə Sovet İttifaqı dağılandan sonra Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi. Ancaq Ermənistanın işğalçılıq siyasəti Azərbaycana böyük faciələr gətirmişdir. Müstəqillik elan olunandan dörd ay sonra Ermənistan dövləti xalqımıza qarşı soyqırımı törətmişdir. Xocalı soyqırımı nəticəsində 613 günahsız insan, o cümlədən 106 qadın, 63 uşaq bir gecə içində vəhşicəsinə öldürülmüşdür. Müstəqillik elan olunandan yeddi ay sonra isə Laçın erməni işğalına məruz qalmışdır. Ondan əvvəl Şuşa şəhəri işğal olunmuşdur. Ermənistanın işğalçılıq siyasəti ondan sonra da davam etdirilmişdir. Xarici ölkələrin dəstəyi hesabına Azərbaycan ərazisinin təxminən 20 faizi erməni işğalına məruz qalmışdır. Qarabağ və Şərqi Zəngəzur bölgəsindən 100 minlərlə azərbaycanlı etnik təmizləməyə məruz qalmışdır, qaçqın-köçkün həyatına başlamışdır.

Azərbaycan dövləti və xalqı bu ədalətsizliklə, bu işğalla heç vaxt barışmayıb. Biz güc toplayırdıq, beynəlxalq müstəvidə daha güclü mövqelərə sahib olurduq. Beynəlxalq təşkilatlar çərçivəsində öz haqq işimizi aparırdıq. Bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanımaqla münaqişənin həlli üçün siyasi və hüquqi zəmin yaratmışdır. Biz, eyni zamanda, güclü iqtisadiyyat qurmuşuq və məhz bunun nəticəsində ordu quruculuğuna lazımi həcmdə vəsait ayırmışıq. Güclü siyasi iradə, güclü iqtisadiyyat və güclü ordu faktorları bizi Qələbəyə aparan amillərdir.

Bununla bərabər, biz vətənpərvərlik ruhunda, xalqa, torpağa bağlı yeni gənc nəsli yetişdirərək Qələbəmizi şərtləndirdik. 44 günlük İkinci Qarabağ müharibəsi zamanı biz hər gün irəli gedirdik. Bir gün belə geri addım atmamışdıq. Döyüş meydanında 300-dən çox şəhər və kəndimizi erməni işğalçılarından azad etmişdik. O cümlədən Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərləri döyüş meydanında işğalçılardan azad edildi. 2020-ci il noyabrın 8-də Şuşa Zəfərimizdən sonra Ermənistan ordusunda təslimçilik meyilləri daha da artdı və ondan bir gün sonra - noyabrın 9-dan 10-na keçən gecə Ermənistan kapitulyasiya aktını, təslim aktını imzalamağa məcbur oldu. Məhz bunun nəticəsində bir güllə atılmadan Laçın, Kəlbəcər və Ağdam işğalçılardan azad edilmişdir. Bu şanlı tariximiz bölgəmizdəki geosiyasi vəziyyəti dəyişdirdi, yeni reallıqlar yaratdı və hər bir ölkə bu reallıqlarla barışmalı oldu. Bizim 2023-cü ildə birgünlük antiterror əməliyyatı isə dövlət suverenliyimizi tam bərpa etdi və Azərbaycanda separatizmin kökü birdəfəlik kəsildi.

İndi isə azad edilmiş bütün torpaqlarda bərpa işləri, quruculuq işləri gedir. Böyük infrastruktur layihələri icra edilir - xəstəxanalar, məktəblər, üç hava limanı tikilib, dəmir yolları, avtomobil yolları salınıb, 70 kilometrə yaxın tunelin inşası sürətlə gedir. Bu gün bizim qonaqlarımız azad edilmiş torpaqlarda gedən işlərin bir hissəsi ilə tanış olmuşlar. Artıq Şərqi Zəngəzur və Qarabağ bölgələrimizdə 43 min insan yaşayır və çalışır. Bu bölgəyə həyat qayıdıb, bu bölgənin sahibləri qayıdıblar. Biz qayıtmalıydıq və qayıtmışıq. Biz Ermənistan ordusunu məğlub etmişik və bununla Azərbaycan xalqı fəxr edir. Artıq dörd ildən çoxdur ki, biz müzəffər xalq və dövlət kimi yaşayırıq və əbədiyyətə qədər yaşayacağıq. Bu gün əziz qardaşlarımın - Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin bizimlə bərabər bu bayram tədbirlərində iştirakı, bizə göstərilən dəstək və həmrəylik artıq tamamilə yeni dünya miqyasında reallıqlar yaradır. Bizim gücümüz birliyimizdədir. Bu gün birliyimizi üçtərəfli formatda bir daha təsdiqlədik. Bu gün bayram konsertində səslənəcək mahnılar bir daha bizim birliyimizi, nə qədər zəngin mədəniyyətə malik olmağımızı göstərəcək. Əminəm ki, azad edilmiş Laçından üç ölkənin bu gün dünyaya verdiyi mesajlar lazımi ünvana çatacaq.

Mən bir daha Türkiyə Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğana, Pakistanın Baş naziri, əziz qardaşım Məhəmməd Şahbaz Şərifə və onlarla bərabər gəlmiş bütün qonaqlara “Xoş gəlmisiniz!” deyirəm. Laçınlıları ürəkdən salamlayıram. Allah səmamızı, yolumuzu həmişə açıq eləsin. Qələbə bizimlədir və bizimlə olacaq.

Yaşasın Azərbaycan-Türkiyə-Pakistan birliyi və qardaşlığı!

*

Sonra Türkiyə Prezidenti çıxış etdi.



### Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı




– Əziz qardaşım, Prezident cənab İlham Əliyev.

Əziz dostum, Pakistanın Baş naziri cənab Şahbaz Şərif.

Hörmətli hökumət üzvləri, dəyərli incəsənət xadimləri, xanımlar və cənablar.

Sizləri ən səmimi duyğularımla, hörmətlə, məhəbbətlə salamlayıram. Buradan Bakıdan Gəncəyə, Şuşadan Naxçıvana olmaqla, Azərbaycanın hər bir guşəsindəki qardaşlarıma sevgilərimi və ehtiramımı göndərirəm.

Əvvəlcə, sizlərə “Can Azərbaycan”, “Bir millət, iki dövlət” deyiləndə qəlbində fırtınalar qopan 86 milyonun salamını çatdırmaq istəyirəm. İndi buradakı tabloda üç dövlət, bir millət var.

Can Azərbaycanın 28 May - Müstəqillik Günü münasibətilə ortaq mədəniyyətimizi və qardaşlığımızı vurğuladığımız bu mənalı görüşdə sizinlə birlikdə olmaqdan böyük məmnunluq duyuram. Müstəqilliyin necə qazanıldığını, nə qədər qiymətli olduğunu çox yaxşı bilən bir millətin övladı olaraq Müstəqillik Gününüzü səmimi-qəlbdən təbrik edirəm.

İstiqlal və gələcək uğrunda apardığımız şanlı mübarizələri şəhadətləri ilə taclandıran qəhrəmanlarımızı rəhmət və ehtiramla yad edirəm. Rəbbim əziz şəhidlərimizin ruhlarını şad, məkanlarını cənnət eləsin!

Bu unudulmaz gündə Azərbaycanın dahi şairi Səməd Vurğunun möhtəşəm misralarını bir daha xatırlayırıq:

**El bilir ki, sən mənimsən,**
**Yurdum, yuvam, məskənimsən,**
**Anam, doğma Vətənimsən,**
**Ayrılarmı könül candan?**
**Azərbaycan, Azərbaycan!**

**Mən bir uşaq, sən bir ana,**
**Odur ki, bağlıyam sana,**
**Hankı səmtə, hankı yana**
**Hey uçsam da, yuvam sənsən,**
**Elim, günüm, obam sənsən.**

Bəli, obamız, yuvamız və göz bəbəyimiz Azərbaycan ilə aramızdakı məhəbbəti, inşallah, gücləndirərək davam etdirəcəyik. Bu xoş gündə olduğu kimi, Allah göstərməsin, çətin günlərində də Azərbaycan xalqının hər zaman yanında olacağıq. Rəbbimdən Azərbaycan-Türkiyə qardaşlığını əbədi və daimi etməsini diləyirəm.

Əziz qardaşlarım, dəyərli qonaqlar, 1918-ci ildə Azərbaycanda qurulan Cümhuriyyət üsul-idarəsi istiqlalın və azad iradənin rəmzinə çevrildiyi kimi, Qarabağdakı azadlıq Zəfəri də bu gün Azərbaycanı daha güclü və firavan edir. O gün alovlanan istiqlal məşəli bu gün daha parlaq və daha güclü şəkildə Azərbaycanın yolunu işıqlandırır. Qarabağın azadlığı ilə bu torpaqlarda yüksələn hər bir musiqi sədası təkcə bir Zəfərin deyil, bir millətin, necə deyərlər, yenidən dirçəlişinin səsinə çevrildi.

Bir azdan dinləyəcəyimiz musiqilərdə Qarabağın azad torpaqlarının səsi var. Bu nəğmələrdə Şuşanın daşlarında əks-səda verən azadlığın, Laçının vadilərində böyüyən ümidin, Gəncədə və Bakıda canlanan milli iradənin təzahürü var. Səslənən hər bir bəstədə qəhrəman şəhidlərimizin canları və mübarək qanları bahasına əldə olunmuş möhtəşəm Zəfərin ruhu var. Məhz bu gün bu konserti əbədi qardaşlığımızı, ortaq yaddaşımızı, rifah və güclü gələcəyimizi salamlayan bənzərsiz bir görüş kimi qiymətləndiririk.

Xatırlayacaqsınız, daha əvvəl Qarabağın dünyaya açılan qapıları – Füzuli və Zəngilan Beynəlxalq Hava limanlarını İlham qardaşımla birlikdə açmışdıq. Çox xoşbəxtik ki, bu gün də Laçın Beynəlxalq Hava Limanını açmaq yenə bizə nəsib oldu.

Enerjidən nəqliyyata, müdafiədən ticarətə, kənd təsərrüfatından təhsilə qədər hər sahədə Azərbaycanla güclü əməkdaşlıqlar qururuq. İlham qardaşımın bənzərsiz töhfələri sayəsində münasibətlərimizi hər gün təkcə bölgəyə deyil, bütün dünyaya nümunə olacaq səviyyəyə çatdırırıq.

Sabitlik abidəsi kimi yüksələn Azərbaycanın uğurları ilə hamımız qürur duyuruq. Otuz ildən sonra əsarətdən azad olunan Qarabağ üçün artıq uğur, sülh və inkişaf hekayəsi yazmaq zamanıdır.

Bu gün keçmişdə yaşadığımız ağrılardan dərs alaraq davamlı sülhün bərqərar olmasını, etimadın və mehriban qonşuluq münasibətlərinin qurulmasını hədəfləyirik. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sülhün də memarı olaraq adını tarixə yazdıracağına inanırıq.

Bu fikirlərlə Can Azərbaycan xalqına, səmimi qonaqpərvərliyə görə laçınlı qardaşlarıma və buraya təşrif gətirməklə bizi son dərəcə sevindirən Pakistanın Baş naziri, dəyərli dostum cənab Şahbaz Şərifə təşəkkürlərimi ifadə edirəm.

Sizləri bir daha ən səmimi duyğularımla salamlayır, 28 May - Müstəqillik Günü münasibətilə bir daha təbrik edirəm. Allah yolumuzu və bəxtimizi açıq etsin. Yenidən görüşmək, yenidən qucaqlaşmaq diləyi ilə sizləri Allaha əmanət edirəm. Sağ olun, salamat qalın!

*

Daha sonra Pakistanın Baş naziri çıxış etdi.

### Baş nazir Məhəmməd Şahbaz Şərifin çıxışı

– Bismillahir-rəhmanir-rəhim.

Əziz qardaşlarım, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan.

Hörmətli nazirlər, zati-aliləri, əziz qonaqlar, bizim Laçından olan qardaş və bacılarımız.




Xanımlar və cənablar, salamaleyküm.

Əziz qardaşım İlham Əliyev, nə gözəl haldır ki, bu gün biz Azərbaycanın Müstəqillik Gününü bir yerdə qeyd edirik. Həmçinin bu gün - 1998-ci il mayın 28-də Pakistan nüvə dövlətinə çevrilmişdir. Bu səbəbdən, bu gün bu tədbirdə iştirak etmək mənim üçün çox böyük şərəfdir. Mən səmimi-qəlbdən əziz qardaşım, Prezident İlham Əliyevi və bizim azərbaycanlı bacı və qardaşlarımızı təbrik edirəm. Bu gün burada olmaq mənim üçün çox böyük şərəfdir. Bu gün bu gözəl məkanda, füsunkar dağlıq ərazidə yerləşən Laçın şəhərində olmağımdan çox məmnunam.

Siz böyük liderliyiniz və dinamik baxışınız sayəsində 30 illik işğala son qoymusunuz, bu bölgəni, Qarabağı azad etməyə müvəffəq olmusunuz və bu işdə Sizin Silahlı Qüvvələriniz böyük cəsarət göstərib. Mən buradan şəhidlərin xatirəsini anıram, o şəhidlər ki, bu iş naminə həyatlarından keçiblər. Həyatda olan qaziləri də buradan salamlayıram. Onlar da bu işdə çox böyük şücaət və cəsarət göstəriblər. Bu çox böyük nailiyyət və Silahlı Qüvvələrinizin bu işə verdiyi töhfə münasibətilə bir daha hər birinizi təbrik edirəm. Həmin mübarizəyə qardaşımız Prezident Ərdoğan və Türkiyədən olan bacı-qardaşlarımız çox böyük dəstək oldular, azərbaycanlı bacı və qardaşlarını ruhlandırdılar. Həmin dövrdə Türkiyə Azərbaycana çox böyük dəstək göstərdi. Pakistan da öz növbəsində töhfəsini vermişdir ki, bu mühüm missiya uğurla başa çatsın. Biz bütün siyasi və diplomatik dəstəyimizi verdik ki, azərbaycanlı qardaş və bacılarımız Qələbəyə nail olsunlar. Bu dəstək səmimi-qəlbdən gəlirdi, çünki bu işdə azərbaycanlı qardaş və bacılarımız mütləq dəstəklənməli idi. Xanımlar və cənablar, ona görə də deyə bilərəm ki, bu gün bu ərazilər transformasiyaya uğrayıb və şüar da dəyişib: İki ruh bir qəlbdə idisə, bu gün üç ruh bir qəlbdədir. Bu şüarı artıq biz dəyişmişik.

Xanımlar və cənablar, Pakistan bu yaxınlarda düşmənə qalib gəlməyə müvəffəq oldu. Bir neçə həftə bundan öncə baş vermiş hadisələrdən bəhs edirəm. Həmin düşmən ölkənin əhalisi Pakistan əhalisindən beş dəfə çoxdur. Həmin ölkənin iqtisadi baxımdan da gücü bizdən çoxdur və həmin ölkə onilliklərdir ki, yüzlərlə milyard dollar həcmində vəsait xərcləyərək dünyanın ən müasir silahlarını almışdır, sursat, qırıcı təyyarələr və ən müasir texnologiyanı əldə etmişdir. Aprelin 22-də Pahalqam məntəqəsində, - bu yaşayış məntəqəsi işğal olunmuş Cəmmu-Kəşmirdə yerləşir, - 26 nəfər qətlə yetirildi. Bu, çox kədərli, acınacaqlı bir hadisə idi. Təəssüflər ki, Hindistan tez-tələsik Pakistana qarşı əsassız iddialar irəli sürdü, bizi ittiham etdi və faktları uydurmağa çalışdı. Dünyaya mesaj verməyə çalışdı ki, Pakistan məhz bu Pahalqam insidentinə görə təqsirli bilinməlidir. Biz dərhal təklif etdik ki, şəffaf və tərəfsiz qaydada beynəlxalq təhqiqat aparılsın. Ancaq Hindistan cavabında Pakistana hücum etdi, 33 günahsız pakistanlı qətlə yetirildi. Həmçinin bu hücum nəticəsində 55 pakistanlı yaralanmışdı. Xanımlar və cənablar, biz bunu cavabsız qoya bilməzdik. Biz Pakistanı müdafiə etməli idik və qısa bir zamanda hava qüvvələrimiz Hindistana məxsus 6 təyyarəni vurdu. Fransa istehsalı olan dörd “Rafale” təyyarəsi, “MiQ” tipli təyyarə və dronlar da vuruldu. Biz Hindistana mesaj verdik ki, Pakistan sülhsevər ölkədir. Biz regionda sülhü və firavanlığı təşviq edirik. Amma əgər biz hücuma məruz qalsaq, dərhal var gücümüzlə buna cavab verəcəyik.

Biz 9-cu və 10-cu günlərdə olduqca adekvat şəkildə Hindistanın təcavüzünə cavab verdik və səhər saat 04:30-da - fəcr namazından sonra Pakistanın silahlı qüvvələri Səid Əsim Muirin rəhbərliyi ilə düşmənə dərs verməli oldu. Ona qədər isə Hindistan “BrahMos” tipli raketlərdən Pakistanın müxtəlif əyalətlərini, xüsusilə də Ravalpindidə və digər məntəqələrdə olan hava limanlarını atəşə tutdu.

Bizim baş qərargah rəisi,- o, bu gün burada ön sırada əyləşib. Xahiş edirəm, feldmarşal ayağa qalxasınız, hər kəs sizi görsün, - mənə məlumat verdi ki, cənab Baş nazir, Hindistan bizə növbəti dəfə hücum etdi. Onun səsi qətiyyətli idi. O, tamamilə sakit idi. Amma, eyni zamanda da çox qətiyyətli mövqedə idi ki, biz düşmənə həyatlarının ən yaxşı dərsini verməliyik. Beləliklə, biz Hindistanın hərbi infrastrukturuna hücum etdik. Yəni, bizim onlardan fərqimiz budur. Onlar günahsız insanları qətlə yetirirdilər, biz isə onların hərbi infrastrukturunu hədəfə aldıq və onların cavabını verdik. Səhər saat 9-da feldmarşal mənə zəng edərək dedi ki, cənab Baş nazir, Hindistan bizə müraciət edib ki, atəşkəs elan edək, hansı təlimatlarınız olacaq. Mən dedim ki, feldmarşal, Allah bizə qələbə günü nəsib etdi. Gəl indi Hindistanın bu müraciətini müsbət cavablandıraq. Çünki biz inanırıq ki, sülh olmalıdır, atəşkəs olmalıdır və biz bu müharibəyə istənilən üsullarla son qoymalıyıq. Xanımlar və cənablar, bunu bu gün sizinlə bölüşmək istədim.

(ardı 7-ci səhifədə)

# Azad Qarabağda qardaşlıq zirvəsi

## 28 May Müstəqillik Gününə həsr olunmuş konsert




**(əvvəli 6-cı səhifədə)**

Azərbaycan vaxtilə Ermənistanın hücumuna məruz qalanda Türkiyə və Pakistan bir qaya kimi Azərbaycanın yanında oldu. Pakistan Hindistan tərəfindən hücuma məruz qaldı və əziz qardaşım Rəcəb Tayyib Ərdoğan, bizim türkiyəli olan qardaş və bacılarımız dərhal Pakistanı dəstəklədilər. Əziz qardaşım İlham Əliyev də, azərbaycanlı bacı və qardaşlarımız da eyni qətiyyəti göstərdilər. Onlar Azərbaycanın və Pakistanın həmrəy olduğunu nümayiş etdirdilər. Bu, dərhal baş verdi. Bu, bizim tariximizin ən gözəl anlarından biri idi ki, üç qardaş ölkə vahid ailə olaraq bir araya gəldilər. Çətin zamanda bir araya gəldilər. Biz bunu heç vaxt unutmayacağıq. İnanın mənə ki, qardaşım, Prezident Ərdoğanın və əlbəttə, əziz qardaşım Prezident İlham Əliyevin verdiyi dəstəyin əvəzini mən heç vaxt çıxa bilmərəm. Allah özü sizi mükafatlandıracaq bu qardaşlığa görə. Bu səmimi dəstəyə görə Sizə təşəkkür edirəm.

Bu gün bizim üçtərəfli formatda ikinci toplantımız oldu. Təfərrüata varmadan deyə bilərəm ki, bu üçtərəfli görüş çox səmərəli idi və bizi çox ruhlandırdı. Biz bir çox məsələləri müzakirə etdik və planlarımızı müəyyənləşdirdik ki, üç qardaş dövlət arasında daha sıx əlaqələndirmə olsun inşallah. Bu gün bu füsunkar məkanda - Laçın şəhərində üç ölkənin bayraqları dalğalanır və bu, onu sübut edir ki, bu bayraqlar bir yerdə, hər zaman yüksəklərdə ucalacaq, dalğalanacaq və inşallah, biz firavan gələcəyə doğru inamla irəliləyəcəyik.

Bununla yanaşı, hər iki qardaşıma təşəkkür edirəm ki, bizə Pakistanın ədalətli Cəmmu-Kəşmir məsələsində dəstək göstərirlər. Təəssüflər ki, o gözəl, füsunkar bölgədə qan tökülüb. Onlar onilliklərdir ki, zülmə qarşı mübarizə aparırlar. Onlar hər zamankı kimi qətiyyətlidirlər. Onlar heç zaman təslim olmayacaqlar, o vaxta qədər mübarizə aparacaqlar ki, onların BMT Nizamnaməsinə uyğun hüquqları təmin edilsin, Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr icra olunsun. Pakistan hər zaman kəşmirlilərin yanında olmuşdur, eyni zamanda, Türkiyə və Azərbaycan da eyni qətiyyəti nümayiş etdiriblər. İnşallah elə bir gün gələcək ki, tezliklə bu, baş verəcəkdir. Kəşmir xalqı da öz hüquqlarını təmin edəcək və mən deyərdim ki, bu quldarlıqdan canlarını qurtaracaqlar.

Xanımlar və cənablar, Qəzzada baş verənlər də o qədər fərqli deyil. 52 min fələstinli, o cümlədən qadınlar və uşaqlar, yaşlılar, mühəndislər, həkimlər şəhid olublar. Bu gün biz burada toplaşdığımız bir vaxtda da Qəzzada qan tökülür. Məncə, müasir tarixdə ona bənzər acınacaqlı mənzərə olmamışdır və sivil dünya nə vaxtadək bu vəhşiliyə göz yumacaqdır. Bu, İsrail tərəfindən törədilən barbarlıqdır və bir daha birlikdə pislənilməlidir. Türkiyə Prezidenti, əziz qardaşım Ərdoğan hər zaman bu çağırışları etmişdir. Təkcə müsəlman dünyasında deyil, bütün beynəlxalq arenada onun səyləri yüksək qiymətləndirilir ki, əziyyət çəkən insanlara dəstək verilsin. Mənim əziz qardaşım İlham Əliyev də eyni mövqedən çıxış edir. Pakistan da həmin mövqedən çıxış edir.

Əziz qardaş və bacılarımız, bu gün burada sizin qarşınızda çıxış edərək demək istəyirəm ki, biz səsimizi ən yüksək səviyyədə ucaltmalıyıq ki, bütün dünya Türkiyənin, Azərbaycanın və Pakistanın səsini eşitsin. Çünki Qəzzada mütləq atəşkəs əldə edilməlidir. Bu, nə qədər tez olsa, o qədər yaxşıdır. Çünki bu, bəşəriyyət naminə olmalıdır. Bizim orada olan qardaş və bacılarımızın qətlə yetirilməsi dərhal dayandırılmalıdır. Bizim fələstinli qardaş və bacılarımız azadlıq və ədalət naminə öz müqəddəratını müəyyən etmək hüququna nail olmalıdırlar. Orada məsələ iki dövlət prinsipi əsasında öz həllini tapmalıdır və bu prinsipi bütün dünya dəstəkləyir.

Xanımlar və cənablar, çıxışımın sonunda deyirəm ki, Türkiyənin, Azərbaycanın və Pakistanın bayraqlarında olan aypara hər zaman bir-birinin yanında ucalsın, işıq saçsın və bu, bizim gücümüzün, birliyimizin, inamımızın, xalqlarımızın və müsəlman dünyasının ümidinin rəmzinə çevrilsin.

Yaşasın Pakistan! Yaşasın Pakistan-Azərbaycan-Türkiyə qardaşlığı!

Allah sizi qorusun!

*

Çıxışlardan sonra Azərbaycan, Türkiyə və Pakistan mahnılarından ibarət konsert proqramı təqdim olundu.

## Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri başa çatıb



**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri mayın 28-də başa çatıb.**

Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə dövlətinin başçısını Azərbaycan Prezidenti İlham Əliyev yola saldı.

## Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycana səfəri başa çatıb



**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycan Respublikasına səfəri mayın 29-da başa çatıb.**

Laçın Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Baş nazir Məhəmməd Şahbaz Şərifi Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər yola salıblar.

## Prezident İlham Əliyev ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvünü qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, senator Stiv Deynsi qəbul edib.**

Senator, ilk növbədə, Azərbaycanın Müstəqillik Günü münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırdı. O, Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında dostluq və tərəfdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi üçün böyük perspektivlərin olduğunu dedi. Əfqanıstanda Amerika Birləşmiş Ştatları və Azərbaycan əsgərlərinin çiyin-çiyinə xidmət etdiyini, Kabil hava limanının təhlükəsizliyinə cavabdeh olan Azərbaycan sülhməramlı qüvvələrinin Əfqanıstanı tərk edən ən sonuncu hərbi kontingent olduğunu xatırladan Stiv Deyns oradan mülki və hərbi şəxslərin təxliyəsində azərbaycanlı hərbçilərin mühüm rol oynadıqlarını vurğuladı və buna görə də ayrıca minnətdarlığını bildirdi.

Senator fəaliyyəti dövründə Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin Amerika Birləşmiş Ştatları ilə münasibətlərinin inkişafına mühüm əhəmiyyət verdiyini deyərək, əlaqələrin inkişaf etdirilməsi üçün böyük imkanların olduğunu vurğuladı. O, Azərbaycana və Mərkəzi Asiya ölkələrinə ABŞ Senatının nümayəndələri tərəfindən səfərlərin intensivləşdirilməsinin vacibliyinə toxundu.

Dövlətimizin başçısı Azərbaycanın Müstəqillik Günü münasibətilə təbriklərə görə təşəkkürünü bildirərək, ABŞ Prezidenti Donald Trampın bu xüsusda göndərdiyi təbrik məktubunun yüksək qiymətləndirildiyini vurğuladı. Prezident İlham Əliyev dedi ki, məktubda da qeyd olunduğu kimi, Azərbaycanla ABŞ arasında təhlükəsizlik, enerji və iqtisadi-ticari əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş imkanlar var. Dövlətimizin başçısı Donald Trampın birinci prezidentliyi dövründə Azərbaycanla əlaqələrin inkişafına göstərdiyi diqqətin də təqdir olunduğunu dedi.

Görüşdə Azərbaycanın malik olduğu nəqliyyat infrastrukturu və region ölkələri ilə siyasi əlaqələri nəticəsində Avrasiya regionunun əsas logistika mərkəzlərindən birinə çevrildiyi, Orta Dəhlizin inkişafında oynadığı mühüm rolu bir daha qeyd edildi.



Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

Sonda senator Stiv Deyns Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

# Prezident İlham Əliyev BƏƏ iş adamları heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da “International Holding Company”nin baş icraçı və idarəedici direktoru Seyid Basar Şuebin rəhbərlik etdiyi Birləşmiş Ərəb Əmirliklərindən olan iş adamlarından ibarət nümayəndə heyətini qəbul edib.**

Görüşdə ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə, o cümlədən iqtisadi-ticari istiqamətdə daha da genişləndiyi vurğulandı, Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə, Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın isə Azərbaycana səfərlərinin ikitərəfli münasibətlərin inkişafı baxımından önəmi qeyd edildi.

Azərbaycanda həm yerli, həm də xarici iş adamları üçün əlverişli biznes və investisiya mühitinin yaradıldığı vurğulanaraq, bu xüsusda BƏƏ şirkətlərinin də ölkəmizdə bir çox sahəyə sərmayə yatırmasından məmnunluq ifadə olundu.

Birləşmiş Ərəb Əmirliklərinin iş adamlarından ibarət nümayəndə heyətinin ölkəmizə səfərinin səmərəli olacağına və yaxşı nəticələr əldə ediləcəyinə ümidvarlıq bildirildi.

Söhbət zamanı investisiyalar, sənaye, o cümlədən dağ-mədən sənayesi və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# Ədalət Vəliyev Ədalət Partiyasının yeni sədri ilə görüşüb

**Mayın 29-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Ədalət Partiyasının IX qurultayında yeni seçilmiş sədri Mütəllim Rəhimov ilə görüşüb.**

M.Rəhimovu partiya sədri seçilməsi münasibətilə təbrik edən Prezident Administrasiyasının şöbə müdiri ölkəmizdə demokratik münasibətlərin təcəssümü olan siyasi dialoqda partiyanın bundan sonra da fəal iştirakına ümid etdiyini bildirib. Həmçinin əldə olunmuş tarixi Qələbə, uğurla icra olunan Böyük Qayıdış proqramı, Prezident İlham Əliyevin təşəbbüsü ilə aparılan çoxsahəli islahatlar, ölkədə həmrəylik mühitinin qorunması üçün görülmüş işlər, sağlam iqtidar-müxalifət münasibətlərinin dəstəklənməsinin vacibliyi, konstruktiv əməkdaşlıq əlaqələrinin inkişafı və digər bu kimi məsələlər haqqında danışan Administrasiya rəsmisi son zamanlar siyasi partiyaların ölkənin ictimai həyatında artan rolunu qeyd edib.

Görüşdə cəmiyyəti düşündürən məsələlərlə bağlı siyasi partiyalar ilə açıq müzakirələrin aparılması məqsədilə təşkil olunan müxtəlif tədbirlər haqqında danışılıb və bundan sonra da mövcud təcrübənin inkişaf etdiriləcəyi vurğulanıb.

Sədri olduğu partiya üçün dövlətçilik mövqeyinin və milli maraqların hər zaman mütləq prioritet təşkil edəcəyini bildirən M.Rəhimov deyib ki, Ədalət Partiyası Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması məsələsində fəal mövqe tutacaq. İqtidarla və ölkədə fəaliyyət göstərən digər partiyalarla açıq əməkdaşlıq əlaqələrinin inkişafında maraqlı olduğunu vurğulayan M.Rəhimov gələcəkdə mövcud istiqamətdə müxtəlif layihələrin icra olunması niyyətini də diqqətə çatdırıb.

# Milli Məclisin deputatları MDB PA-nın iclaslarında




**Mayın 29-da Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının Mədəniyyət, informasiya, turizm və idman üzrə daimi komissiyasının videokonfrans formatında iclası keçirilib.**

Tədbirdə MDB PA-da Milli Məclisin nümayəndə heyətinin üzvü – MDB PA-nın Mədəniyyət, informasiya, turizm və idman üzrə daimi komissiyasının sədr müavini Polad Bülbüloğlu iştirak edib.

Polad Bülbüloğlunun sədrlik etdiyi iclasda “Messenatlıq və xeyriyyəçilik fəaliyyəti haqqında”, “Uşaqların onların sağlamlığına və inkişafına zərər vuran informasiyadan qorunması haqqında” model qanunların yeni redaksiyaları, həmçinin “Su hövzələrində mədəni irs obyektlərinin dövlət mühafizəsinin təmin edilməsi haqqında” model qanun layihəsi və digər qanun layihələri ətrafında müzakirələr aparılıb, müvafiq qərarlar qəbul edilib.

*

Sonra Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının (MDB PA) Hüquqi məsələlər üzrə daimi komissiyasının da videokonfrans formatında iclası keçirilib.

İclasda MDB PA-da Milli Məclisin nümayəndə heyətinin üzvü - MDB PA-nın Hüquqi məsələlər üzrə daimi komissiyasının sədr müavini Əminə Ağazadə iştirak edib.

Tədbirdə “Ailə-məişət zorakılığına qarşı hüquqi tənzimləmə haqqında”, “Əmlakın istifadəyə verilməsi üçün müqavilələr haqqında”, “Vasitəçilik müqavilələri haqqında” və digər model qanun layihələri üzərində işlərin gedişi barədə fikir mübadiləsi aparılıb.

*

Həmin gün Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının Dövlət quruculuğu və yerli özünüidarəetmə təcrübəsinin öyrənilməsi üzrə daimi komissiyasının videokonfrans formatında iclası keçirilib.

Onlayn iclasda MDB PA-da Milli Məclisin nümayəndə heyətinin üzvü – MDB PA-nın Dövlət quruculuğu və yerli özünüidarəetmə təcrübəsinin öyrənilməsi üzrə daimi komissiyasının üzvü Mübariz Qurbanlı iştirak edib.

“Dövlət paytaxtlarının, respublika əhəmiyyətli şəhərlərin və rayon mərkəzlərinin statusu haqqında”, “Kreativ sənayelər haqqında” və digər model qanun layihələri müzakirə olunub, MDB-də növbəti dövr üçün model qanun yaradıcılığının uzunmüddətli planına dair təkliflərə baxılıb.

İclasda MDB PA-da Milli Məclisin nümayəndə heyətinin üzvü Mübariz Qurbanlı MDB PA-nın Dövlət quruculuğu və yerli özünüidarəetmə təcrübəsinin öyrənilməsi üzrə daimi komissiyasının sədr müavini seçilib.

***XQ***

# Parisdə AXC qurucuları ehtiramla anılıb

**Azərbaycan Xalq Cümhuriyyətinin 107-ci ildönümü münasibətilə Fransadakı diplomatlarımız Paris Sülh Konfransına qatılmış, ancaq sonradan Vətənə qayıda bilməyən Cümhuriyyət qurucularının xatirəsini yad edərək, onların Parisdə və Paris ətrafındakı qəbiristanlıqlardakı məzarlarını ziyarət ediblər.**



Cümhuriyyət qurucularının, eləcə də Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva, ölkəmizin UNESCO yanındakı daimi nümayəndəsi Elman Abdullayev və səfirliyin hərbi attaşesi, polkovnik Cavid Abdullayev çıxışlarında bildiriblər ki, XX əsrin əvvəllərində dünyada və bölgədə mövcud olmuş mürəkkəb və ağır tarixi siyasi şəraitə baxmayaraq, demokratik ideyalara və prinsiplərə əsaslanan müstəqil dövlətin yaradılmasına nail olunması bir daha xalqımızın böyüklüyündən, azadlıqsevərliyindən, müstəqil yaşamağa və dövlətçilik ənənələrini bərpa etməyə qadir olmasından xəbər verirdi.

Qeyd olunub ki, 1918-ci ildə Azərbaycanın müstəqilliyi elan edildikdən sonra Xalq Cümhuriyyəti qurucularının əsas məqsədi bu gənc dövləti dünyaya tanıtmaq olub. Elə bu məqsədlə də ilk Azərbaycan Respublikasını təmsil etmiş nümayəndə heyətinin üzvləri Birinci Dünya müharibəsindən sonra dünyanın taleyini həll etmək məqsədilə çağırılan Paris Sülh Konfransına qatılıblar.

***XQ***

# Azərbaycan Respublikasının ərazisində kinematoqrafiya əsərlərinin və digər audiovizual əsərlərin istehsalı ilə bağlı bəzi məsələlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycanın çoxəsrlik və zəngin mədəniyyətinin nümayişində, milli-mənəvi irsinin və tarixi-mədəni ənənələrinin təbliğində kinematoqrafiya əsərləri və digər audiovizual əsərlər mühüm rol oynayır. Azərbaycan kinematoqrafiyasının inkişafı, o cümlədən yerli film istehsalçıları tərəfindən beynəlxalq təcrübənin öyrənilməsi üçün xarici film istehsalçılarını Azərbaycan Respublikası ərazisində kinematoqrafiya əsərlərinin və digər audiovizual əsərlərin istehsalına cəlb etmək bu baxımdan olduqca əhəmiyyətlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, film istehsalı sənayesini gücləndirmək, həmçinin xarici film istehsalçılarını film məkanı kimi Azərbaycan Respublikasını seçməyə təşviq etmək məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.** Kinematoqrafiya əsərlərinin və digər audiovizual əsərlərin istehsalı üçün çəkilmiş xərclərin qismən geri ödənilməsi qaydalarını bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**2.** Kinematoqrafiya sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**3.** Bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 may 2025-ci il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə təbriklərimi çatdırıram.

Milli bayramlar, eyni zamanda, ortaq qlobal çağırışlar üzərində düşünmək üçün fürsət yaradır.

Hazırda beynəlxalq ictimaiyyət iqlim böhranından tutmuş münaqişələrə, artan bərabərsizliklərə qədər bir çox çətinliklərlə üzləşir ki, bunlar da çoxtərəfli həll yolları tələb edir.

Gələcək üçün Paktın mahiyyəti də məhz budur. Keçən il Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul edilmiş bu tarixi sənədin mərkəzində çoxtərəfliliyi möhkəmləndirmək və davamlı sülhü, dayanıqlı inkişafı, hamı üçün insan hüquqlarının təmin olunmasını təşviq etmək tələbi dayanır.

Bu əlamətdar gün münasibətilə Azərbaycan Respublikasının xalqına bir daha ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Antonio QUTERREŞ,***
***Birləşmiş Millətlər Təşkilatının Baş katibi***

*

**Zati-aliləri cənab Prezident!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Zati-alinizə və Azərbaycan xalqına səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram. Uca Allahdan Zati-alinizə cansağlığı və rifah, Azərbaycan xalqına daha da çox tərəqqi və firavanlıq diləyirəm.

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Azərbaycan Respublikası ilə sıx əlaqələrini yüksək qiymətləndirir və İslam fəaliyyətinin birgə təşviqi məqsədini daşıyan bu qurumun dəstəklənməsində ölkənizin rolunu təqdir edir. İƏT üzv ölkələrin ümumi dəyərlərinin təbliği və bu ölkələr arasında qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi işində səylərini bundan sonra da davam etdirəcəkdir.

Üzv ölkələrin xalqları arasında həmrəyliyin gücləndirilməsində və birgə İslam fəaliyyəti üçün yeni üfüqlərin açılmasında Zati-alinizin dəstəyinə ümidvaram.

Zati-aliləri cənab Prezident, Sizə olan ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Hissein Brahim TAHA,***
***İslam Əməkdaşlıq Təşkilatının Baş katibi***

*

**Hörmətli İlham Heydər oğlu!**

Qırğız Respublikası xalqının adından və şəxsən öz adımdan Sizi və Azərbaycan Respublikasının xalqını Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Sevindirici haldır ki, müstəqil Azərbaycan böyük uğurlar qazanıb, daxili və xarici məsələləri səmərəli şəkildə həll edərək bu gün yüksək mövqe tutur, beynəlxalq arenada böyük nüfuza malikdir.

Qırğızıstan ilə Azərbaycan arasında qardaşlıq və strateji tərəfdaşlıq sıx dostluq və qarşılıqlı hörmət əsasında inkişaf edir. Qəti əminəm ki, dövlətlərimiz arasında əməkdaşlıq iki qardaş xalqın rifahı naminə bundan sonra da uğurla inkişaf edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və əmin-amanlıq, Azərbaycan Respublikasının qardaş xalqına isə davamlı sülh və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Sadır JAPAROV,***
***Qırğız Respublikasının Prezidenti***

*

**Hörmətli cənab Prezident!**

Azərbaycanın Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi çatdırıram. Ölkənizə davamlı tərəqqi, firavanlıq və əmin-amanlıq arzulayıram.

Sizi Avropa Siyasi Birliyinin Tiranada keçirilən Zirvə toplantısı zamanı görməkdən çox məmnun oldum.

Moldova Azərbaycanla dostluq münasibətlərini yüksək qiymətləndirir və mən ikitərəfli dialoqumuzun möhkəmləndirilməsinə sadiqliyimizi bir daha təsdiq edirəm.

Əminəm ki, birgə səylərimizlə biz vətəndaşlarımızın qarşılıqlı rifahı naminə enerji, nəqliyyat, kənd təsərrüfatı, ticarət və investisiya kimi əsas sahələrdə əməkdaşlığımızın bütün potensialını üzə çıxarmağa davam edə bilərik.

Cənab Prezident, ən xoş arzularımı və yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Maya SANDU,***
***Moldova Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Gününün 107-ci ildönümü münasibətilə Sizə və xalqınıza səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Aleksandr STUBB,***
***Finlandiya Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Əlamətdar tarix, 28 May – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Cənubi Afrika Respublikasının hökuməti və xalqı adından Sizə, Azərbaycan hökumətinə və xalqına ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək, Zati-alinizə möhkəm cansağlığı arzulayır, ölkələrimiz arasında mövcud olan gözəl dostluq münasibətlərini daha da möhkəmləndirmək niyyətimizi bir daha bəyan edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Dərin hörmətlə,**

***Matamela Siril RAMAFOZA,***
***Cənubi Afrika Respublikasının Prezidenti***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına İrlandiya xalqı adından və öz adımdan səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Qoy, gələcək illər Azərbaycan xalqına sülh, daha çox rifah və xoşbəxtlik gətirsin!

**Hörmətlə,**

***Mış k HİGGİNS,***
***İrlandiyanın Prezidenti***

***

**Zati-aliləri!**

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına San-Marino xalqı adından və öz adımızdan təbriklərimizi və ən xoş arzularımızı çatdırırıq.

Bu əlamətdar gündə Zati-alinizə uğurlar diləyir, ən yüksək ehtiramımızı bildirir, Azərbaycan xalqına rifah və firavanlıq dolu gələcək arzulayırıq.

**Hörmətlə,**

***Denise Bronzetti və İtalo RİQİ,***
***San-Marino Respublikasının Kapitan-Regentləri***

***

**Zati-aliləri!**

28 May – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə və xalqınıza Malta xalqı adından, həmçinin öz adımdan səmimi təbriklərimi çatdırıram.

Bu il Malta Respublikası ilə Azərbaycan Respublikası arasında qarşılıqlı hörmət və ümumi anlaşma əsasında qurulmuş diplomatik münasibətlərin 30 illiyi qeyd olunur. Əminəm ki, dövlətlərimiz arasında münasibətlər gələcək illərdə də inkişaf edəcəkdir.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı və əmin-amanlıq, ölkənizə davamlı sülh, tərəqqi və firavanlıq arzulayıram.

Zatı-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Miriam Spiteri DEBONO,***
***Malta Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Ölkənizin Müstəqillik Günü münasibətilə Zati-alinizə, Azərbaycan Hökumətinə və xalqına Maldiv Hökumətinin və xalqının səmimi təbriklərini və xoş arzularını çatdırmaqdan böyük məmnunluq duyuram. Bu tarixi bayram Azərbaycan xalqının müstəqilliyi və öz müqəddəratını təyin etməsi ilə səciyyələnir, onun birliyini və mətanətini simvolizə edir.

Maldiv Respublikası ölkələrimizin mənafeyinə uyğun olaraq ikitərəfli əlaqələri dərinləşdirməyə, tərəfdaşlığı inkişaf etdirməyə sadiqdir.

Əminəm ki, ölkələrimiz arasında dostluq münasibətləri gələcək illərdə də inkişaf edəcəkdir.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına davamlı tərəqqi və firavanlıq diləyirəm.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Məhəmməd MUİZZU,***
***Maldiv Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Zati-alinizə, Azərbaycan Hökumətinə və qardaş Azərbaycan xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının qeyd olunduğu bu əlamətdar gün xalqınızın dəyanətinin, birliyinin, arzularının rəmzidir.

Somali Federativ Respublikası ölkələrimiz arasında münasibətləri səciyyələndirən səmimi əlaqələri və inkişaf edən əməkdaşlığı yüksək qiymətləndirir.

Əminəm ki, Somali ilə Azərbaycan arasındakı dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın qarşılıqlı rifahı naminə gələcək illərdə dərinləşməkdə davam edəcəkdir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Hasan Şeyx MAHMUD,***
***Somali Federativ Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Dost ölkənizin Müstəqillik Günü münasibətilə Zati-alinizə təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Liviya Dövləti və Azərbaycan Respublikası arasında tarixi əlaqələrin dost xalqlarımızın müştərək mənafeyi naminə bütün sahələrdə inkişaf etdirilməsi üçün Sizinlə birgə əməkdaşlığa hazır olduğumu bildirirəm.

Hörmətli cənab Prezident, Sizə dərin minnətdarlığımı ifadə edir, Azərbaycan xalqının firavanlığı və tərəqqisi naminə fəaliyyətinizdə davamlı uğurlar arzulayıram.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etmənizi xahiş edirəm.

***Məhəmməd Yunis Əl-MƏNFİ,***
***Liviya Dövləti Prezident Şurasının Sədri***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Zati-alinizə, Azərbaycan Hökumətinə və xalqına Şri-Lanka Hökuməti və xalqı adından səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Şri-Lanka ilə Azərbaycan arasında hərtərəfli əməkdaşlığa, qarşılıqlı anlaşmaya və ümumi dəyərlərə əsaslanan səmimi dostluq əlaqələri mövcuddur. Əminəm ki, ölkələrimiz arasında sıx əməkdaşlıq xalqlarımızın qarşılıqlı rifahı naminə gələcək illərdə daha da genişlənəcək və möhkəmlənəcəkdir.

Zati-alinizin uzaqgörən rəhbərliyi Azərbaycanı sülh, tərəqqi və firavanlıq yolu ilə irəliyə doğru aparmışdır.

Mən, həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29), xüsusilə də iqlim dəyişikliyi problemi ilə bağlı kollektiv səylərin birləşdirilməsində Azərbaycanın nümunəvi rəhbərliyini yüksək qiymətləndirirəm.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına isə davamlı tərəqqi və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***Anura Kumara DİSSANAYAKE,***
***Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Zati-alinizə səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyuram.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, səadət, dost Azərbaycan xalqına isə davamlı tərəqqi və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***Heytəm bin Tariq Al SƏİD,***
***Omanın Sultanı***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Gününün 107-ci ildönümü münasibətilə Laos xalqı adından və şəxsən öz adımdan Zati-alinizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi, xoş arzularımı çatdırıram.

İnanıram ki, Laos Xalq Demokratik Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq münasibətləri və əməkdaşlıq birgə səylərlə gələcək illərdə xalqlarımızın mənafeləri, eləcə də regionda və bütövlükdə dünyada sülh, sabitlik və davamlı inkişaf naminə daha da möhkəmlənəcək və genişlənəcəkdir.

Bu fürsətdən istifadə edərək, Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, ali missiyanızda uğurlar, Azərbaycan xalqına isə davamlı rifah və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Thonqlun SİSULİT,***
***Laos Xalq Demokratik Respublikasının Prezidenti***

***

**Hörmətli Prezident, əziz Qardaşımız!**

28 May – Müstəqillik Günü münasibətilə Sizə, qardaş Azərbaycan xalqına və Hökumətinə Barışıq və Milli Birlik Hökuməti adından, həmçinin öz adımızdan səmimi təbriklərimizi çatdırırıq.

Azərbaycan xalqının tarixini, milli kimliyini və suverenliyini təcəssüm etdirən bu əlamətdar günü daim firavan və azad olan Nikaraquada ölkənizlə birlikdə qeyd edirik. Xalqlarımızı birləşdirən dostluq, həmrəylik və əməkdaşlıq münasibətlərini möhkəmləndirməyə sadiqliyimizi bir daha vurğulayırıq.

Hörmətli Prezident, Zati-alinizə və bütün qardaş Azərbaycan xalqına əmin-amanlıq, tərəqqi və rifah arzularımızı çatdırırıq.

**Hörmətlə,**

***Daniel Orteqa SAAVEDRA,***
***Nikaraqua Respublikasının Prezidenti***

***Rosario MURİYO,***
***Nikaraqua Respublikasının vitse-prezidenti***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram.

Eyni zamanda, qardaş Azərbaycan xalqına firavanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***Luis ABİNADER,***
***Dominikan Respublikasının Prezidenti***

***

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Xorvatiya Respublikası Hökuməti adından və öz adımdan Sizə və Azərbaycan xalqına səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaqdan şərəf duyuram.

Xorvatiya Respublikası Azərbaycan Respublikası ilə səmimi münasibətlərə və səmərəli əməkdaşlığa böyük əhəmiyyət verir. Dialoqa, qarşılıqlı hörmətə və tərəfdaşlığa sadiqliyimiz müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və mədəni sahələrdə ikitərəfli əlaqələrin möhkəmlənməsinə töhfə verib.

Əminəm ki, Xorvatiya ilə Azərbaycan arasındakı dostluq və əməkdaşlıq ümumi nailiyyətlərimiz əsasında dərinləşəcək, xalqlarımıza tərəqqi və firavanlıq gətirəcəkdir.

Zati-aliləri, bu əlamətdar gün münasibətilə Sizi bir daha səmimi-qəlbdən təbrik edir, Azərbaycan Respublikasına və onun vətəndaşlarına davamlı rifah, əmin-amanlıq və tərəqqi arzulayıram.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Andrey PLENKOVİÇ,***
***Xorvatiya Respublikasının Baş naziri***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Zati-alinizə səmimi təbriklərimi və ən xoş arzularımı yetirirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı tərəqqi və firavanlıq diləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Salman bin Həməd Al XƏLİFƏ,***
***Bəhreyn Krallığının vəliəhdi və Baş naziri***

***

**Zati-aliləri!**

28 May – Müstəqillik Günü münasibətilə Sizə və Sizin şəxsinizdə Azərbaycan xalqına Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatın - GUAM-ın Beynəlxalq Katibliyi adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi çatdırıram.

Xalq Cümhuriyyətinin yaradılmasının 107-ci ildönümünü qeyd edən müasir Azərbaycan Respublikası Cümhuriyyətin ideallarına sadiq qalaraq bütün azərbaycanlıların müstəqillik, suverenlik, tərəqqi, milli kimliyin qorunub saxlanılması kimi arzularını reallaşdırdı və onun tamhüquqlu varisi olduğunu sübut etdi.

1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan çox ciddi problemlərlə üzləşmişdi. Azərbaycan xalqı etnik münaqişələrin yaradılması, separatçı hərəkatlar, dövlət çevrilişi cəhdləri, torpaqlarının beşdəbir hissəsinin işğalı, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi kimi çətinliklərlə üz-üzə qalmışdı. Xalqın taleyi və gələcəyi təhlükə altında idi. Məhz Ümummilli Lider Heydər Əliyevin güclü siyasi iradəsi, qətiyyətli liderliyi, müdrikliyi, strateji uzaqgörənliyi və xalqın ona dəstəyi bütün bu çətinliklərin öhdəsindən gəlməyə, ölkənin dirçəlişinə imkan yaratdı.

Cənab Prezident, son iki onillikdə Sizin rəhbərliyinizlə Azərbaycan mühüm uğurlara imza atmışdır, xüsusilə də ötən beş il ərzində böyük zəfərlər qazanılmış, ölkənin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi tam bərpa olunmuşdur. Bu gün Azərbaycan xalqı heç vaxt olmadığı qədər güclü, qürurlu, daha parlaq gələcəyə inamla baxan bir xalqdır. Bütün ölkə ərazisində, o cümlədən azad edilmiş torpaqlarda misli görünməmiş bərpa və yenidənqurma işləri uğurla həyata keçirilir. Dinamik və inkişaf edən iqtisadiyyata malik Azərbaycan mühüm layihə və təşəbbüslər irəli sürüb həyata keçirməklə regional inkişaf və beynəlxalq əməkdaşlıq üçün mühərrik rolunu oynayır.

Getdikcə daha vacib regional və beynəlxalq aktora çevrilən, dünyada nüfuzu artan Azərbaycan Qoşulmama Hərəkatı, COP və digər bu kimi beynəlxalq təşkilatlarda, platformalarda liderliyi ilə sülhün, təhlükəsizliyin və dialoqun tərəfdarıdır. Beynəlxalq münasibətlər sisteminin hazırkı böhranlı vəziyyətində, beynəlxalq hüququn pozulduğu bir vaxtda Azərbaycan nümunəvi rol oynayaraq irili-xırdalı bütün xalqlar üçün dinc yanaşı yaşamağın norma və prinsiplərinə əsaslanan ədalətli dünyanın tərəfdarıdır.

Biz Azərbaycanın dost xalqlarımız və strateji tərəfdaşlarımız arasında regional əməkdaşlığın qurulmasında praqmatik, praktiki və nəticəyönümlü yanaşmaya önəm verməsi ilə GUAM-ın təsisçi üzvü kimi rolunu yüksək qiymətləndiririk. Qəti şəkildə inanırıq ki, GUAM sülh, təhlükəsizlik və əməkdaşlığın təşviqi üçün nadir və səmərəli regional platformadır. Strateji əhəmiyyəti getdikcə artan bu regionda qarşılıqlı faydalı əməkdaşlığımızın daha da gücləndirilməsini səbirsizliklə gözləyirik.

Zati-aliləri, bu bayram münasibətilə Sizə ölkənin daha da inkişaf etdirilməsi, müstəqilliyin və suverenliyin möhkəmləndirilməsi ilə bağlı fəaliyyətinizdə uğurlar, Azərbaycan xalqına sülh, tərəqqi və firavanlıq arzulayırıq.

**Hörmətlə,**

***Altay ƏFƏNDİYEV,***
***GUAM-ın Baş katibi***

***

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi təbrik edirəm.

Azərbaycan sabit, dinamik inkişaf edən müstəqil və bənzərsiz dövlətdir, zamanın çağırışlarına şərəflə cavab verir, öz vətəndaşlarının rifahı naminə hüquqi vətəndaş cəmiyyətini möhkəmləndirir.

Tam əminəm ki, xalqlarımızın dostluğu ildən-ilə möhkəmlənəcəkdir. Seçenov Universitetinin birinci xarici filialı məhz Azərbaycanın paytaxtında açılıb və bu, bizim üçün xüsusi qürur mənbəyidir. Bu il Bakı filialı onillik yubileyini – ölkələrimizin təhsil, elm və səhiyyə tərəfdaşlığı tarixində mühüm mərhələni qeyd edir. Bu əməkdaşlığın ən qiymətli bəhrələrindən biri hazırda Azərbaycan səhiyyəsini inkişaf etdirən gənc mütəxəssislərdir. Onlar ölkənin sakinlərinin sağlamlığı naminə fəaliyyət göstərirlər.

Azərbaycana bütün qəlbimlə davamlı inkişaf, tərəqqi və sülh arzulayıram.

**Hörmətlə,**

***Pyotr QLIBOÇKO,***
***İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor***

***

**Möhtərəm cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Dövlətlərarası Aviasiya Komitəsinin adından və şəxsən öz adımdan səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Azərbaycan müstəqillik illərində dövlətçiliyin möhkəmləndirilməsi, xalqın rifahının yaxşılaşdırılması və ölkənin beynəlxalq arenada nüfuzunun artırılması istiqamətində böyük tərəqqi əldə edib.

Möhtərəm cənab Prezident, icazə verin, Sizə möhkəm cansağlığı və ölkənin rifahı naminə uğurlar, Azərbaycan xalqına isə davamlı sülh, sabitlik və tərəqqi arzulayım.

**Hörmətlə,**

***Oleq STORÇEVOY,***
***Dövlətlərarası Aviasiya Komitəsinin sədri***

***

**Hörmətli İlham Heydər oğlu!**

"VTB Bank"ın İdarə Heyəti və kollektivi adından Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Azərbaycanın daxili və xarici siyasətdə böyük uğurları, sanballı beynəlxalq nüfuzu respublikanı regionda və bütövlükdə Avrasiyada lider mövqeyinə çıxarıb.

Rusiyada Azərbaycanın dövlət rəhbərliyinin ikitərəfli müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsinə və əsrlər boyu davam edən mehriban qonşuluq, işgüzar və tərəfdaşlıq münasibətlərinin, o cümlədən dost xalqlarımızın rifahı naminə ticarət və maliyyə sahəsində əlaqələrin gələcək inkişafına yönəlmiş səylərini yüksək qiymətləndirirlər.

Bu bayram münasibətilə Sizə Azərbaycanın daha böyük tərəqqisi naminə ən xoş arzularımızı bildirirəm.

Hörmətli İlham Heydər oğlu, Sizə və yaxınlarınıza möhkəm cansağlığı və əmin-amanlıq, ali dövləti vəzifənizdə yeni-yeni uğurlar, planlarınızı həyata keçirmək üçün tükənməz enerji arzulayıram.

**Dərin hörmətlə,**

***Andrey KOSTİN,***
***Rusiyanın "VTB Bank" Publik Səhmdar Cəmiyyətinin prezidenti – İdarə Heyətinin sədri***

***

**Zati-aliləri!**

Azərbaycan Respublikasının dövlət bayramı – Müstəqillik Günü münasibətilə "Mir" Dövlətlərarası Teleradio Şirkətinin kollektivi adından və şəxsən öz adımdan Sizə təbriklərimi çatdırıram.

İcazə verin, Sizə möhkəm cansağlığı, əmin-amanlıq, tükənməz enerji və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayım.

Sizi əmin edirik ki, "Mir" Teleradio Şirkəti bundan sonra da Azərbaycan Respublikanın həyatını və baş verən hadisələri maksimum dərəcədə obyektiv və geniş işıqlandıracaqdır.

**Dərin hörmətlə,**

***Radik BATIRŞİN,***
***"Mir" Dövlətlərarası Teleradio Şirkətinin sədri***

***

**Hörmətli İlham Heydər oğlu!**

Sizi "Azİz" Assosiasiyası və bütün dost İsrail xalqı adından böyük bayram – Azərbaycanın Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

1918-ci il mayın 28-i Azərbaycan xalqının azadlıq, demokratiya və müstəqillik hüququnu dünyaya bəyan etdiyi gündür.

Güclü, qüdrətli dövlət olan müasir Azərbaycanı İsrail ilə möhkəm dostluq münasibətləri, qarşılıqlı hörmət və geniş əməkdaşlıq birləşdirir.

Əsrlər boyu Azərbaycanda yaşayan yəhudi icması həmişə səmimiyyət, hörmət və təhlükəsizlik hiss edib. Bu nadir münasibət hər iki xalq üçün fəxrdir.

"Azİz" Assosiasiyası ölkələrimiz arasında tərəfdaşlığın, dialoqun və mədəni mübadilənin inkişafına öz töhfələrini verməkdə davam edir.

Bu əlamətdar gündə Azərbaycana daha böyük tərəqqi və yeni nailiyyətlər arzulayıram. Qoy, xalqlarımız arasında dostluq daha da möhkəmlənsin və bütün vətəndaşlarınız ölkənizdə hər zaman firavanlıq, təhlükəsizlik şəraitində, qürurla yaşasınlar!

**Dərin hörmətlə,**

***Adam AMİLOV,***
***"AzİZ" – İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının prezidenti***

***

**Hörmətli cənab Prezident!**

"Sholumi" Mərkəzinin adından və şəxsən öz adımdan Sizi Azərbaycan Respublikasının Müstəqilik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

1918-ci il mayın 28-i tarixə Şərqdə ilk dünyəvi və demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması günü kimi daxil olub. Həmin gün azadlığın, milli ləyaqətin, sülhə və tərəqqiyə yönəlmiş səylərin rəmzinə çevrilib.

Müasir Azərbaycan zəngin tarixə, güclü dövlətçilik ruhuna, parlaq mədəniyyətə malik ölkədir. İsrail ilə Azərbaycanın dostluğu təkcə ümumi maraqlara deyil, həm də xalqlarımız arasında formalaşmış dərin hörmətə və etimada əsaslanır.

Əsrlər boyu Azərbaycanda yaşamış dağ yəhudiləri özlərini həmişə bu torpağın bir parçası kimi hiss ediblər. Biz Azərbaycan xalqından gördüyümüz hörmət və dəstəklə bağlı xatirəni qürurla yaşadırıq. Bu səmimi münasibətlər indi də davam edir və əminik ki, daha da güclənəcəkdir.

"Sholumi" Mərkəzi Azərbaycanın çoxmillətli tarixinin tərkib hissəsi kimi dağ yəhudilərinin mədəni irsini qoruyub saxlamağa və yaymağa çalışır. Biz mədəniyyət və qarşılıqlı anlaşma yolu ilə əməkdaşlıq etmək və insanları birləşdirmək imkanından çox məmnunuq.

Cənab Prezident, bu əlamətdar gündə Sizə, həmçinin bütün qardaş Azərbaycan xalqına daim sülh, tərəqqi, xoşbəxtlik və yeni qələbələr arzulayıram.

**Hörmətlə,**

***Şaul Siman-TOV,***
***İsraildə fəaliyyət göstərən "Sholumi" Dağ Yəhudiləri İrsi Mərkəzinin rəhbəri, "AzİZ" Beynəlxalq Assosiasiyasının icraçı direktoru, STMEGİ Fondunun İsraildəki media qrupunun başçısı***

***

**Möhtərəm cənab Prezident!**

28 May – Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimizi çatdırmaqdan, Sizə möhkəm cansağlığı arzulamaqdan böyük məmnunluq duyuruq. Doğma Azərbaycan Respublikasına və onun xalqına Allah-taaladan daha böyük tərəqqi və firavanlıq diləyirik.

Misir-Azərbaycan Dostluq Cəmiyyəti Misir və Azərbaycan xalqları arasında müxtəlif sahələrdə əlaqələrin möhkəmləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsi üçün maksimum səy göstərir.

Qoy doğma Azərbaycan Respublikası Sizin müdrik və uzaqgörən rəhbərliyinizlə daim inkişaf etsin və daha da firavanlaşsın!

Cənab Prezident, ən xoş arzularımızı və yüksək ehtiramımızı qəbul etməyinizi xahiş edirik.

**Dərin hörmətlə,**

**Misir-Azərbaycan Dostluq Cəmiyyəti İdarə Heyətinin üzvləri:**
***Əli CÜMƏ,***
***Misir Ərəb Respublikası parlamentinin Dini işlər və vəqflər komitəsinin sədri, professor;***
***Usamə əl-ƏBD,***
***Misir parlamentinin Dini işlər və vəqflər komitəsi sədrinin müavini, professor;***
***Əl-Seyyid Mahmud əl-ŞƏRİF,***
***Seyyidlər Həmkarlar İttifaqının sədri, Misir parlamenti sədrinin sabiq birinci müavini;***
***Yusif əl-ŞƏRQAVİ,***
***Misir Ərəb Respublikasının Azərbaycan Respublikasındakı sabiq səfiri;***
***Adil DƏRVİŞ,***
***Misirin Helvan Universitetinin professoru, Misir Mədəniyyət Mərkəzinin Azərbaycandakı keçmiş direktoru;***
***Bağdadi İMAM,***
***Misir Ərəb Respublikası Ali Təhsil Nazirliyinin baş direktoru;***
***Tövhid MƏHƏMMƏD,***
***Misirin əl-Xeyir Fondunun hüquqi işlər üzrə direktoru, müşavir, vəkil;***
***Midhət CAMAL,***
***Misirin əl-Xeyir Fondunda "İbn əs-Səbil" layihəsinin rəhbəri, general;***
***Sabir HƏSƏN,***
***Ali Mədəniyyət Şurasının üzvü;***
***Mona ZİDAN,***
***Helvan Universitetinin professoru;***
***Əhməd Əbdu TARABEK,***
***Orta Asiya və Qafqaz məsələləri üzrə tədqiqatçı və jurnalist;***
***Mustafa HİCAZİ,***
***"Orange" şirkətinin baş direktoru;***
***Seymur NƏSİROV,***
***Misir-Azərbaycan Dostluq Cəmiyyətinin İdarə Heyətinin və Misirdəki Azərbaycan diasporunun sədri***

# ...Söz bir olsa, zərbi kərən sındırar!

## *Azərbaycan–Türkiyə–Pakistan üçbucağı*



**XXI əsrin diktə etdiyi postulatlardan biri də bundan ibarətdir ki, əgər qloballaşan müasir dünyada duruş gətirmək istəyirsənsə, gərək güclü olasan. Burada ortaq tarixə, milli və dini bağlara malik xalqların birgə fəaliyyəti xüsusu əhəmiyyət kəsb edir. Bu kontekstdən yanaşanda siyasi maraqlarla mənəviyyatın üst-üstə düşmədiyi çağdaş dönəmdə etibarlı tərəfdaşlığa, dostluq və qardaşlıq münasibətlərinə əsaslanan birliklər ön plana çıxır. Ortada tale oxşarlığı da varsa, deməli, birliyin monolitliyi və uzunömürlülüyü təmin olunub.**

Üçlərin Laçın görüşünün məhz mayın 28-də keçirilməsinin əlahiddə əhəmiyyətə malik olmasını qeyd etməmək mümkün deyil. 107 il bundan əvvəl Şərqdə ilk demokratik respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gün təkcə regionun deyil, dünyanın "böyük gücləri"-nin cərgəsində yer alan Türkiyə və Pakistan kimi tərəfdaş nəhənglərin Azərbaycanın yanında olmaları, xalqımızın qürur tarixinin şanlı səhifəsini birlikdə qeyd etmələri, ilk növbədə, siyasi hadisədir. Bu hadisəni şərtləndirən amillər isə qardaş Türkiyənin regional gücdən qlobal gücə çevrilməsi, onun getdikcə nüfuzunun artması, planetin ən böyük hərbi qarşıdurmasının – Rusiya–Ukrayna müharibəsinin nizamlayıcısı qismində beynəlxalq müstəvidə əldə elədiyi uğurlar, eləcə də Pakistanın güclü dövlət olduğunu bu yaxınlarda Hindistanla münaqişədə verdiyi hərbi cavabla özünü təsdiqləməsidir. Zarafat deyil, 28 may sevincini bölüşən Pakistan 27 il bundan əvvəl həmin gün nüvə dövləti olmuşdur. Bu amillərin gələcəkdə hansı birgə layihələrə və böyük uğurlara vəsilə olacağını indi yalnız güman edə bilərik.

* * *

Azərbaycan Prezidenti İlham Əliyevin ev sahibi kimi Laçın görüşündəki çıxışını bir neçə aspektdən dəyərləndirmək mümkündür.

Birinci aspekt dövlətimizin başçısının qurur duyduğumuz tariximizlə bağlı dedikləridir: "107 il bundan əvvəl müsəlman aləmində ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyəti yaradılmışdır. Bu, böyük tarixi hadisə idi. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. İki il sonra – 1920-ci ilin aprel ayında müstəqilliyimiz əlimizdən alınmışdır. Ondan bir neçə ay sonra – 1920-ci ilin noyabr ayında sovet Rusiyası tərəfindən Qərbi Zəngəzur bölgəsi Azərbaycandan ayrılıb Ermənistana birləşdirilmişdir. Bu, böyük ədalətsizlik idi və Azərbaycan xalqı buna oxşar ədalətsizliklərlə tarix boyu üz-üzə qalmışdır. Ancaq xalqımızın iradəsi və qardaş xalqların dəstəyi bizə güc verirdi, bizi ruhlandırırdı və iradəmizi gücləndirirdi".

Bu sözlərin müəllifi iki əsrdən çox ədalətsizliyə məruz qalmış bir xalqın son dövrlərdə itirdiyi torpaqları ilə bərabər milli kimliyini, şərəfini və bayraq qürurunu özünə qaytaran strateq-siyasətçi, istedadlı sərkərdə, Türk dünyasının etiraf olunan liderlərindən biridir.

İkinci aspekt üç qardaş ölkə arasında daha dərin əlaqələrin qurulması, bu platformanın yeni model kimi artıq beynəlxalq faktora çevrilməsidir. Hər iki ölkənin Azərbaycanla inam və səmimiyyətə söykənən qarşılıqlı münasibətlərin yalnız faydalı əməkdaşlıqla müşayiət olunacağı şəksizdir. Əslində, Laçın görüşünün üçtərəfli əlaqələrin inkişafı baxımından təkcə ticari-iqtisadi deyil, həm də strateji əhəmiyyət daşıdığını çıxışlardan duymaq çətin deyildi.

Üçüncü aspekt İlham Əliyev şəxsiyyətinə həm Türkiyə və Pakistan liderlərinin, həm də qardaş ölkələrin ictimaiyyətinin böyük hörmət bəsləməsidir. Bu həqiqətə tam əmin olmaq istəyənlər dövlətimizin başçısının 2024-cü il iyulun 11-də Pakistana rəsmi səfəri zamanı İslamabadda qarşılanma mərasiminin möhtəşəmliyini özündə əks etdiyən video-xtonikaya tamaşa etməsi kifayətdir. Hər şeyi görüntülərin özü "danışır".

* * *

"Azərbaycanın nailiyyətləri ümumi qürur mənbəyidir. Qardaşım İlham Əliyevin töhfəsi sayəsində Türkiyə–Azərbaycan əməkdaşlığı gündən-günə güclənir və təkcə region deyil, bütün dünya üçün əməkdaşlıq nümunəsinə çevrilir. İnanırıq ki, müzəffər Ali Baş Komandan İlham Əliyev regionda sülhün memarı kimi öz adını tarixə yazacaq".

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında deyib. Qeyd etdiyimiz üçüncü aspekt qardaş Türkiyə liderinin dilində özünün bir daha təsdiqini tapmış oldu. R.T.Ərdoğan keçmişdən dərs almağa və regionda davamlı sülh, tərədaşları etimad və mehriban qonşuluq istiqamətində addımlar atmağa çağırıb. Onun sözlərinə görə, Türkiyə qardaş Azərbaycanla əlaqələri daha da gücləndirməkdə qərarlıdır. "Biz həm kədərdə, həm də sevincdə Azərbaycan xalqının yanında olacağıq", – deyən Türkiyə lideri Azərbaycan və Türkiyənin qardaşlığının əbədi olaraq davam edəcəyinə ümidvar olduğunu bildirib. Qeyd edib ki, 1918-ci ildə Azərbaycanda yaradılmış Cümhuriyyət azadlıq və müstəqillik arzusunun təzahürü olduğu kimi, Qarabağdakı Qələbə də müasir Azərbaycanın güclənməsinə və çiçəklənməsinə töhfə verir.

Prezident Rəcəb Tayyib Ərdoğanın bu sözlərini isə Laçın görüşünün leytmotivi adlandırmaq olar: "1918-ci ildə alovlanan azadlıq məşəli bu gün Azərbaycanın yolunu daha da işıqlandırır. Azad edilmiş Qarabağda səslənən hər not Azərbaycan xalqının dirçəlişinin səsidir". Obrazlı şəkildə, siyasi bəlağətlə süslənmiş bu sözlər həm də qardaş səmimiyyətinin, sevgisinin etirafı kimi qəbul olunmalıdır.

* * *

Pakistanı Azərbaycanın siyasi tərəfdaşı, strateji müttəfiqi kimi qəbul etməyimizdən savayı, onu özümüzə, eynilə Türkiyə kimi, qardaşlıq telləri bağlayır. Ən azı, son beş ilin siyasi, hərbi, mədəni və humanitar xronikası bir həqiqəti sübuta yetirdi: Pakistan Azərbaycana dost və qardaş ölkədir.

Laçında Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin dediyi sözlər bu həqiqətin öz yerini tam aldığının əyani göstəricisidir: "Əziz qardaşım İlham Əliyev, nə gözəl haldır ki, bu gün biz Azərbaycanın Müstəqillik Gününü bir yerdə qeyd edirik. Həmçinin bu gün – 1998-ci il mayın 28-də Pakistan nüvə dövlətinə çevrilmişdir. Bu səbəbdən, bu gün bu tədbirdə iştirak etmək mənim üçün çox böyük şərəfdir. Mən səmimi-qəlbdən əziz qardaşım, Prezident İlham Əliyevi və bizim azərbaycanlı bacı və qardaşlarımızı təbrik edirəm. Bu gün burada olmaq mənim üçün çox böyük şərəfdir. Bu gün bu gözəl məkanda, füsunkar dağlıq ərazidə yerləşən Laçın şəhərində olmağımdan çox məmnunam".

Əlavə şərhə ehtiyac duymadığımız bu sözlərdən sonra yazımızın nöqtəsini bir el məsəlimizlə qoymaq istədik: "El bir olsa, dağ oynadar yerindən, söz bir olsa, zərbi kərən sındırar..."

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



***Tofiq ABBASOV,***
***siyasi icmalçı***

– Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində çox böyük uğurlara imza atdı. Parlamentli idarəetmə üsulu, qadınlara seçim hüququ kimi demokratik dəyərləri dünyanın qarşısına çıxardıq. Təbii olaraq, bu yeniliklər bədxahlarımızı qorxuya saldı. Misal üçün, ABŞ Prezidenti Vudro Vilson bizə inanmırdı, Paris konfransında da etimadsızlıqla üzləşdik. Elə o zaman da görünürdü ki, Qərb müsəlman aləminə, birliklərinə ögey münasibət bəsləyir. Bölgədə rus bolşeviklərinin təhdid təhlükəsi də mövcud idi. Bu qüvvələr olduqca sivil, nəcib bir təşəbbüsün qarşısını aldılar.

Laçında üç qardaş ölkənin rəhbərinin bir araya gəlməsi həm də gücün nümayişi idi. Hər üç lider bu barədə öz fikirlərini açıq şəkildə söylədi. Onların çıxışlarını birləşdirən tezis o oldu ki, mənəvi bağlar, ümumiyyətlə, mənəviyyat siyasi münasibətlərə də sirayət edir. Yəni, bu iki anlayış vəhdət halına gələ bilər və biz bunu bacarırıq. Faktiki olaraq üç xalq, demək olar ki, eyni taleyi yaşayıb və yaşamaqdadır. Ətrafda xeyli risk, bizə qarşı düşmənçilik edən qüvvələr var. Onların qabağından qaçmamaq, layiq olduqları tutarlı cavabı verməkdən ötrü gərək həm ayrı-ayrılıqda, milli zəmində güclü olmalıyıq, həm də birliyimiz və qardaşlığımız sarsılmaz olmalıdır.

Belə deyə bilərik ki, artıq bu reallıq, bu motivlər hamımıza tam aydındır və burada hər hansı fantaziyaya yer yoxdur. Əksinə, biz nədən danışdığımızı və birlikdə hara getdiyimizi yaxşı başa düşürük. Bu gün buna ciddi ehtiyac duyulur. Azərbaycanın ermənilərlə münaqişəsi, Pakistan–Hindistan qarşıdurması, Türkiyənin Yunanıstan və Fransa ilə münsibətlərində müşahidə olunan gərginlik, eləcə də Şimali Kiprdə türklərə qarşı səslənən təhdidlər və s. Bunlar ondan xəbər verir ki, bəli, əgər dünyada sağlam və ədalətli mövqedən çıxış edən qüvvələr varsa, destruktiv elementlər də yox deyil. Bu elementlər müstəqil siyasət yeridən ölkələri və xalqları mənəvi cəhətdən sıdırmağı hədəfləyir. Belə təhdidlərdən etibalı şəkildə sığortalanmaqdan ötrü biz həm paradiqmalarımızı, həm də qardaşlığımızı gündən-günə gücləndirməliyik. Bu regional platformanı "3+3" formatında davam etdirmək isə Bakının və Ankaranın irəli sürdükləri ən perspektivli layihə kimi gec-tez mütləq reallaşacaq.

**Mayın 28-də Laçında Müstəqillik Gününə həsr olunmuş konsertdə Azərbaycan, Türkiyə və Pakistan liderləri – Prezident İlham Əliyev, Prezident Rəcəb Tayyib Ərdoğan və Baş nazir Məhəmməd Şahbaz Şərif çıxış etdilər. Tam əminliklə vurğulayaq ki, bu mərasim həm də Prezident Ərdoğanın dahi şairimiz Səməd Vurğunun "Azərbaycan" şeirini səsləndirməsi ilə tarixə düşdü: "El bilir ki, sən mənimsən..." Amma bu yazıda həmin məqamın üzərinə sonda gələcəyik. Hələlik, Azərbaycan, Türkiyə və Pakistan liderlərinin çıxışlarından gəldiyimiz qənaəti bölüşək.**

# El bilsin ki...

## *"Üç dost"un Laçın zirvəsində həmrəyliyi*

El bilsin ki, Azərbaycanın müstəqilliyi əbədi və dönməzdir. 1920-ci ilin işğalı, heç bir halda, təkrarlana bilməz. Bu, yolverilməzdir. Yolverilməzliyin isə təminatı var. Prezident İlham Əliyevin vurğuladığı da budur: "Yaşasın Azərbaycan – Türkiyə – Pakistan birliyi və qardaşlığı!" "Yaşasın Pakistan – Azərbaycan – Türkiyə qardaşlığı!", – deyən isə baş nazir Məhəmməd Şahbaz Şərifdir.

* * *

Bəli, el bilir ki, Cənubi Qafqaz coğrafiyasında Azərbaycan – Türkiyə – Pakistan birliyi mövcudddur. Bu birlik qardaşlıqdan doğan müttəfiqlikdən nəşət alır. Müttəfiqliyin isə dərin əsasları var. Ona görə də cənab Məhəmməd Şahbaz Şərif sevinc hissi ilə bildirir: "Əziz qardaşım İlham Əliyev, nə gözəl haldır ki, bu gün biz Azərbaycanın Müstəqillik Gününü bir yerdə qeyd edirik";



* * *

Beləliklə, el bilsin ki, Cənubi Qafqaz coğrafiyasından Azərbaycanı nəinki silmək, heçə saymaq cəhdləri belə daim uğursuzluğa düçar olacaq. Həm də ona görə ki, ölkəmiz 2020-ci ilin 44 günlük müharibəsindən sonra bölgədə yeni reallıqlar formalaşdırıb. Dövlətimizin başçısının vurğuladığı da budur: "Bu şanlı tariximiz bölgəmizdəki geosiyasi vəziyyəti dəyişdirdi, yeni reallıqlar yaratdı və hər bir ölkə bu reallıqlarla barışmalı oldu".

* * *

El bilsin ki, Azərbaycan, Türkiyə və Pakistan Yaxın və Orta Şərqin mühüm və sarsılmaz güc mərkəzi kimi formalaşıb və özünü təsdiqləyib. Prezident İlham Əliyev əbəs yerə bu fikirləri bildirmir ki, "Bu gün bizim üçtərəfli əməkdaşlığımızın yeni səhifəsi açılır. Əminəm ki, bu gün müzakirə etdiyimiz məsələlər, əldə edilmiş razılaşmalar bizi bir-birimizə daha da yaxın edəcək". Pakistan lideri isə vurğulayır: "Əziz qardaş və bacılarımız, bu gün burada sizin qarşınızda çıxış edərək demək istəyirəm ki, biz səsimizi ən yüksək səviyyədə ucaltmalıyıq ki, bütün dünya Türkiyənin, Azərbaycanın və Pakistanın səsini eşitsin".

* * *

Bütün dünya bilsin ki, Laçında – Azərbaycanın Müstəqilliyi Günündə üç qardaş ölkənin verdiyi mesajlar onların əməli fəaliyyət dairəsinin daha da genişləndiriləcəyinin yüksək səslə bəyan edilməsidir. Ona görə də dövlətimizin başçısı bildirir: "Bu gün əziz qardaşlarımın – Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin bizimlə bərabər bu bayram tədbirlərində iştirakı, bizə göstərilən dəstək və həmrəylik dünya miqyasında artıq tamamilə yeni reallıqlar yaradır. Bizim gücümüz birliyimizdədir. Bu gün birliyimizi üçtərəfli formatda bir daha təsdiqlədik. Bu gün bayram konsertində səslənəcək mahnılar bir daha bizim birliyimizi, nə qədər zəngin mədəniyyətə malik olmağımızı göstərəcək. Əminəm ki, azad edilmiş Laçından üç ölkənin bu gün dünyaya verdiyi mesajlar lazımi ünvanlara çatacaq".

* * *

El bilsin ki, Azərbaycan Qarabağa və işğal olunmuş ərazilərinə bağlılıq əzmini təkcə müharibə meydanında göstərmədi. Ölkəmiz və xalqımız doğma yurda sahiblik mətanətini də nümayiş etdirir. Dövlətimizin başçısı əbəs yerə vurğulamır: "İndi isə azad edilmiş bütün torpaqlarda bərpa işləri, quruculuq işləri gedir. Böyük infrastruktur layihələri icra edilir - xəstəxanalar, məktəblər, üç hava limanı tikilib, dəmir yolları, avtomobil yolları salınıb, 70 kilometrə yaxın tunelin inşası sürətlə gedir. Bu gün bizim qonaqlarımız azad edilmiş torpaqlarda gedən işlərin bir hissəsi ilə tanış olmuşlar. Artıq Şərqi Zəngəzur və Qarabağ bölgələrimizdə 43 min insan yaşayır və çalışır. Bu bölgəyə həyat qayıdıb, bu bölgənin sahibləri qayıdıblar. Biz qayıtmalıydıq və qayıtmışıq".

* * *

Hayastan və havadarları bilsinlər ki, "Biz Ermənistan ordusunu məğlub etmişik və bununla Azərbaycan xalqı fəxr edir. Artıq dörd ildən çoxdur ki, biz müzəffər xalq və dövlət kimi yaşayırıq və əbədiyyətə qədər yaşayacağıq". Dövlətimizin başçısının bu fikirləri müzəffər xalqın varlıq manifesti kimi səslənir. Varlığımızı təhdid edən qüvvələrə qarşı isə gücümüz və qüdrətimizlə üstün gələcəyik. Prezident Ərdoğanın bildirdiyi kimi: "Bəli, obamız, yuvamız və göz bəbəyimiz Azərbaycan ilə aramızdakı məhəbbəti, inşallah, gücləndirərək davam etdirəcəyik".

* * *

Sonda onu da deyək ki, Səməd Vurğunun "Azərbaycan" şeiri poeziyamıza öz damğasını təkcə gözəl yaradıcılıq nümunəsi olaraq vurmayıb. Bu şeirdə xalqımızın tarixi, adət-ənənələri və dili yüksək səviyyədə tərənnüm olunur. Sovet dövründə milli mədəniyyətin qorunmasının və yaşadılmasının belə bir ictimai formasını seçmək cəsarət tələb edirdi.

Deməli, cənab Ərdoğan "Azərbaycan" şeirini səsləndirməklə, Səməd Vurğunun estetik poeziyasının yüksək amallar uğrunda mücadilə əzmini vurğulayırdı. Nəzərə alaq ki, otuz ilə yaxın müddətdə işğal olunmuş yurd-yuvalarımızı, el-obalarımızı şeirlərdə və sənət nümunələrində yaşatdıq və ...suverenliyimizin Laçın məkanı müstəqilliyimizin 107-ci ildönümünün təntənə məbədidir. Hesab edirik, bu yerdə Türkiyə lideri Ərdoğanın Laçında səsləndirdiyi aşağıdakı fikirlər də tam yerinə düşür. Həmin fikirləri şərhsiz təqdim edərək yazımızı yekunlaşdıraq: "Əziz qardaşlarım, dəyərli qonaqlar, 1918-ci ildə Azərbaycanda qurulan Cümhuriyyət üsul-idarəsi istiqlalın və azad iradənin rəmzinə çevrildiyi kimi, Qarabağdakı azadlıq Zəfəri də bu gün Azərbaycanı daha güclü və firavan edir. O gün alovlanan istiqlal məşəli bu gün daha parlaq və daha güclü şəkildə Azərbaycanın yolunu işıqlandırır. Qarabağın azadlığı ilə bu torpaqlarda yüksələn hər bir musiqi sədası təkcə bir Zəfərin deyil, bir millətin, necə deyərlər, yenidən dirçəlişinin səsinə çevrildi".

***Əvəz RÜSTƏMOV***
***XQ***

# Ağ evdən Bakıya mesajlar

(əvvəli 1-ci səhifədə)



Azərbaycanın terrorizmlə mübarizə sahəsində milli qanunvericiliyi beynəlxalq hüquqi standartlara uyğunlaşdırması bu sahədəki əməkdaşlığın hüquqi əsaslarını daha da möhkəmləndirmişdir. Azərbaycan BMT-nin və digər beynəlxalq təşkilatların terrorizmlə mübarizəyə dair qəbul etdiyi konvensiyalara qoşulmuş, eyni zamanda, terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması, radikal dini çağırışların qarşısının alınması kimi sahələrdə hüquqi mexanizmlər tətbiq edir.

ABŞ ilə bu sahədə əməkdaşlıq həm ikitərəfli hüquqi yardım sazişləri, həm də məlumat mübadiləsi, təlim proqramları və təhlükəsizlik dialoqu formatında davam edir və bu hüquqi və institusional çərçivələr Azərbaycana ABŞ və NATO ilə asimmetrik təhdidlərə qarşı çevik reaksiya imkanları verir.

Terrorizmə qarşı mübarizə XXI əsrdə yalnız həm də kiberhücumlar, transsərhəd cinayət şəbəkələri, narkotik və insan alveri, eləcə də informasiya müharibəsi kimi yeni və kompleks təhlükələrə qarşı tədbirlər tələb edir. Elə bu səbəbdən, ABŞ-Azərbaycan təhlükəsizlik əməkdaşlığı ənənəvi hərbi çərçivədən çıxaraq, daha çox texnoloji və hüquqi əməkdaşlığa yönəlir.

ABŞ-ın Cənubi Qafqazda sabitlik siyasətində Azərbaycanı mərkəzi oyunçu kimi görməsi Vaşinqtonun regionda Rusiya və İran kimi güclərin təsirini balanslaşdırmaq siyasəti ilə də əlaqəlidir. Azərbaycan isə bu siyasətdə suverenlik və balanslı diplomatiya prinsiplərinə əsaslanaraq həm regional sabitlik, həm də beynəlxalq təhlükəsizlik arxitekturasına töhfə verməkdə maraqlıdır.

Trampın məktubunda yer alan bu tezis göstərir ki, ABŞ və Azərbaycan arasında terrorizmə qarşı mübarizə praktik və institusional əməkdaşlıq platformaları ilə dəstəklənir və əməkdaşlıq Azərbaycan üçün qlobal təhlükəsizlik sisteminə inteqrasiya olunmaq, ABŞ üçün isə Cənubi Qafqazda etibarlı və sabit müttəfiq qazanmaq mənasını verir. Nəticə etibarilə, təhlükəsizlik sahəsində ortaq vizyon və ortaq maraqlar ABŞ-Azərbaycan münasibətlərinin strateji xarakterini dərinləşdirən başlıca faktorlardan biridir. Donald Trampın Prezident İlham Əliyevə ünvanladığı məktubda enerji təhlükəsizliyi məsələsinin xüsusi qeyd olunması isə Azərbaycanın qlobal enerji sistemində artan rolunun və ABŞ-Azərbaycan enerji tərəfdaşlığının strateji əhəmiyyətinin diplomatik ifadəsidir.

Azərbaycanın enerji strategiyası milli maraqlarla beynəlxalq tələblərin optimal şəkildə uzlaşdırılmasına əsaslanır. Xəzər hövzəsinin zəngin karbohidrogen ehtiyatları və bu resursların Qərb bazarlarına çıxarılması istiqamətində atılan addımlar – xüsusilə, Cənub Qaz Dəhlizi – Azərbaycanın qlobal enerji təhlükəsizliyinin formalaşmasında mühüm rol oynadığını göstərir.

Cənub Qaz Dəhlizi layihəsi – "Şahdəniz 2" layihəsindən başlayaraq TANAP və TAP vasitəsilə Avropaya uzanan qaz nəqli marşrutu – ABŞ və Avropa İttifaqının uzun illərdir müdafiə etdiyi enerji diversifikasiyası strategiyası ilə tam uzlaşır və marşrut Rusiya və İran kimi geosiyasi baxımdan həssas enerji təchizatçılarından asılılığın azaldılmasına yönəlib. ABŞ bu layihəni müxtəlif mərhələlərdə dəstəkləyib və Trampın məktubunda bu istiqamətin vurğulanması Vaşinqtonun enerji təhlükəsizliyində Bakı ilə əməkdaşlığa davamlı sadiqliyini göstərir.

Azərbaycanın Avropa üçün qaz təminatında alternativ mənbə rolunu oynaması ABŞ-ın enerji geosiyasətindəki əsas prioritetlərindən biri ilə üst-üstə düşür: Avropa enerji bazarlarında qeyri-Rusiya mənbələrinin möhkəmləndirilməsi.

Azərbaycan, həmçinin enerji diplomatiyası vasitəsilə regional əməkdaşlıq modelləri yaradır. Gürcüstan, Türkiyə, Balkan ölkələri və İtaliya ilə qurulan infrastruktur inteqrasiyası buna bariz nümunədir. ABŞ bu prosesi Qərbyönlü enerji inteqrasiyası modeli kimi görür və dəstəkləyir. Elə bu səbəbdən də Azərbaycanla əməkdaşlıq yalnız ikitərəfli deyil, eyni zamanda, Transatlantik enerji əməkdaşlığının tərkib hissəsi kimi dəyərləndirilir.

Enerji təhlükəsizliyi sahəsində Azərbaycanın uğuru həm də açıq, şəffaf və investor dostu enerji hüququ sisteminin formalaşdırılması ilə bağlıdır. Ölkə 1994-cü ildə transmilli enerji şirkətləri ilə müqavilələr imzalamış, bu çərçivədə hüquqi sabitliyi təmin etmiş və beynəlxalq arbitraj normalarına sadiq qalmışdır. ABŞ-ın aparıcı enerji şirkətləri – "ExxonMobil", "Chevron"– Azərbaycan enerji sektorunda uzunmüddətli maraqlar nümayiş etdirmişdir.

Enerji təhlükəsizliyinə dair ənənəvi əməkdaşlıq modeli dəyişən enerji bazarları və iqlim çağırışları fonunda yaşıl enerji diplomatiyasına doğru transformasiya mərhələsinə qədəm qoyur. Azərbaycanın 2030-cu ilə qədər bərpa olunan enerji istehsalını artırmaq, COP29-a ev sahibliyi və yaşıl enerji zonalarının yaradılması siyasəti ABŞ və Qərb dövlətləri ilə yeni nəsil enerji tərəfdaşlığı üçün zəmin yaradır.

ABŞ Prezidentinin məktubunda enerji təhlükəsizliyinə göstərilən diqqət Azərbaycanla bu sahədə qurulan tərəfdaşlığın geosiyasi və geoiqtisadi baxımdan strateji xarakter daşıdığını nümayiş etdirir. Enerji siyasəti regional güc balanslarının, siyasi sabitliyin və beynəlxalq münasibətlərin mühüm komponentidir.

Azərbaycanın uzunmüddətli enerji sabitliyi, geostrateji yerləşməsi və çoxtərəfli enerji diplomatiyası ABŞ üçün onu Cənubi Qafqazda və daha geniş Avrasiya məkanında əhəmiyyətli enerji tərəfdaşına çevirib. Əməkdaşlığın davamlılığı enerji təhlükəsizliyinə yönəlik praktiki inteqrasiyaları və



siyasi koordinasiyanı daha da gücləndirmək üçün vacib alətə çevrilməkdədir.

ABŞ Prezidenti Donald Trampın məktubunda yer alan "qonşularla sülhə nail olmaq" tezisi isə Azərbaycanın regional təhlükəsizlik və barışın təminindəki rolunu, eyni zamanda, Vaşinqtonun bu proseslərdə maraqlı və fəal aktor kimi çıxış etdiyini göstərir.

2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi bölgədə yeni geosiyasi reallıq yaratdı. Azərbaycan beynəlxalq hüquqa əsaslanaraq, ərazilərini işğaldan azad etdi və regionda status-kvonun dəyişməsinə nail oldu. Yeni geosiyasi reallıqlar sülh sazişi imzalanması və post-münaqişə mərhələsində əməkdaşlıq imkanlarının açılması üçün tarixi fürsətlər yaratdı.

Azərbaycanın mövqeyi ondan ibarətdir ki, Ermənistanla sülh yalnız beynəlxalq hüququn əsas prinsipləri – suverenlik, ərazi bütövlüyü və dövlət sərhədlərinin toxunulmazlığı – çərçivəsində mümkündür. ABŞ da öz bəyanatlarında Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini dəfələrlə vurğulamışdır. Hüquqi baza ABŞ-ın Ermənistanla münasibətlərində balanslı mövqe tutmasını təmin edir və beynəlxalq hüquq normalarına əsaslanan diplomatik nizamın bərqərar olunmasına töhfə verir. ABŞ bu baxımdan sülh prosesinin beynəlxalq hüquqi çərçivəyə salınmasını və onun monitorinqini təşviq edir.

Sülhün davamlı olması üçün praktiki əməkdaşlıq mexanizmləri zəruridir. Azərbaycanın irəli sürdüyü Zəngəzur dəhlizi təşəbbüsü Ermənistanla iqtisadi əlaqələrin bərpası və ümumilikdə regionun Avrasiya nəqliyyat arteriyasına çevrilməsi baxımından strateji əhəmiyyət daşıyır.

ABŞ bu təşəbbüsləri dəstəkləməklə həm Çin və Rusiya arasında geoiqtisadi balans yaratmaq, həm də Avropa və Mərkəzi Asiya arasında alternativ ticarət yollarının formalaşmasına töhfə vermək niyyətindədir.

Trampın məktubunda qonşularla sülhə nail olmaq tezisi, Azərbaycanın münaqişədən post-münaqişə mərhələsinə keçidini dəstəkləyən beynəlxalq strategiyaların bir hissəsi kimi ortaya çıxır.

Azərbaycan üçün, bu, yalnız Ermənistanla münasibətlərin tənzimlənməsi deyil, həm də regional əməkdaşlıq platformalarının formalaşdırılması, Qərblə daha yaxın inteqrasiya və geosiyasi çəkinin artması deməkdir. ABŞ isə bu əməkdaşlıqdan Cənubi Qafqazda təsirini artırmaq, enerji və nəqliyyat layihələri vasitəsilə qlobal strategiyasını möhkəmləndirmək imkanını əldə edir.

Son olaraq qeyd etmək olar ki, "qonşularla sülh" tezisi ABŞ-Azərbaycan münasibətlərində strateji barış diplomatiyasının başlanğıcı kimi dəyərləndirilə bilər. Bu çərçivədə formalaşan tərəfdaşlıq Azərbaycanın regional sabitlik və qlobal enerji təhlükəsizliyi proseslərində mühüm aktor statusunu daha da gücləndirir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki, siyasi elmlər üzrə fəlsəfə doktoru***

---

(əvvəli 1-ci səhifədə)



# Dar günün dostları

Əlbəttə, Prezident İlham Əliyevin səsləndirdiyi bu fikirlər təkcə tarixə ekskurs deyil, həm də strateji bəyanat kimi dəyərləndirilməlidir. Dövlətimizin başçısının çıxışında Azərbaycanın 1991-ci ildə müstəqilliyini yenidən bərpa etdikdən sonra qarşılaşdığı real təhdidlər, Ermənistanın işğalçılıq siyasəti və bu siyasətin nəticələri konkret faktlarla xatırladıldı. Bu xatırlatma tarixi təbliğat deyil, siyasi yaddaşın dirçəlməsi, beynəlxalq hüquqa əsaslanan iddiaların möhkəmləndirilməsi və beynəlxalq ictimaiyyətə ünvanlanan prinsipial mesajdır.

Həqiqətən də, Ermənistanın işğalçılıq siyasəti xalqımıza böyük faciələr yaşadıb. Rəsmi İrəvanın yürütdüyü təcavüzkarlıq siyasəti təkcə yaşayış məntəqələrimizin işğal altına düşməsi, minlərlə mülki və hərbi itki verməyimizlə yekunlaşmayıb. Bu müharibə ölkəmizə iqtisadi baxımdan da son dərəcə böyük ziyan vurub. Yenə də Prezident İlham Əliyevin fikirlərinə müraciət etməli oluruq. Prezident 2024-cü il dekabrın 17-də rusiyalı jurnalist Dmitri Kiselyova müsahibəsində bildirmişdi ki, biz bu yaxınlarda vurulmuş zərərin təhlilini başa çatdırdıq, həm də bunu ətraflı etdik: "Biz buna 4 il vaxt sərf etdik və orada hər şey sənədlərlə qeyd olunub. Bu, təqribən 150 milyard dollardan çoxdur, yəni, işğal illərində vurulan zərərdir. Ona görə də zənnimcə, qarşılıqlı iddiaları kənara qoymaq hər iki tərəf üçün qəbuledilləndir".

Əgər 1990-cı illərin əvvəllərində Azərbaycanda müşahidə olunan iqtisadi durğunluq, ətalət bir tərəfdən SSRİ-nin dağılmasının acı "mirası", digər tərəfdən ölkədəki xaos və özbaşınalığın, idarəetmə böhranının nəticəsi idisə, başqa yandan erməni təcavüzünün fəsadı idi. Xocalı soyqırımı isə sadəcə, bir şəhərə və onun sakinlərinə yönəlmiş qətliam deyildi. Bu, Azərbaycan xalqının müstəqil yaşamaq hüququna edilən terror idi. O dövrdə hələ formalaşmaqda olan Azərbaycan dövləti həm daxili siyasi təlatümlərlə, həm də xarici hərbi təzyiqlərlə üz-üzə qalmışdı. Prezidentin bu fikirləri bir daha onu göstərdi ki, Azərbaycanın müstəqilliyi təsadüfi qazanılmadığı kimi, təsadüfi də qorunmayıb – bu, böyük itkilər, xalq iradəsi və milli müqavimət sayəsində mümkün olub. Bu mənada ulu öndər Heydər Əliyevin haqlı olaraq dediyi "Müstəqilliyi qorumaq, saxlamaq o müstəqilliyi əldə etməkdən qat-qat çətin bir vəzifədir" sözlərini yada salmaq yerinə düşər. Məhz ümummilli liderin siyasi uzaqgörənliyi, iradəsi və fədakarlığı sayəsində Azərbaycan dövlətçiliyi qorunub saxlanıla bildi.

*

Xocalıdan sonra Ermənistanın işğalçılıq siyasəti ardıcıl və məqsədyönlü şəkildə davam etdirildi. Müstəqilliyin elanından yeddi ay sonra – 1992-ci ilin mayında Laçın rayonu işğal olundu. Ondan bir qədər əvvəl isə Qarabağın incisi sayılan Şuşa şəhəri düşmən əlinə keçmişdi. Prezident İlham Əliyev bu tarixi ardıcıllığı diqqətə çatdırmaqla bir daha sübut etdi ki, Ermənistanın məqsədi təkcə hərbi qələbə qazanmaq deyil, həm də Azərbaycanın simvolik mədəniyyət mərkəzlərini, geosiyasi əhəmiyyət daşıyan ərazilərini və strateji yüksəkliklərini zəbt etməklə ölkənin suverenliyini sarsıtmaq, onu regionda zəif və asılı bir dövlətə çevirmək idi.

Bu çərçivədə Laçının işğalının ölkəmizə necə böyük zərbə vurduğunu bir qədər ətraflı izah etməyə ehtiyac var. Hamıya məlumdur ki, Laçın heç vaxt keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibində olmamışdır. Ermənistanın Qarabağla quru yolla yeganə bağlantısı bu rayon, daha doğrusu, Laçın dəhlizi vasitəsilə həyata keçirilirdi. Laçının işğal olunması ilə Ermənistan və Qarabağ arasında birbaşa quru əlaqəsi yaradıldı. Nəticədə digər rayonlarımızın işğalı asanlaşdı. Bununla bağlı Prezident İlham Əliyev də dəfələrlə öz fikirlərini bildirib. Elə mayın 27-də rayonun Bəylik kəndinə köçən sakinlərlə görüşdə cənab İlham Əliyev dedi: "May ayı sizin üçün ikiqat bayram ayı olacaq – həm müstəqillik bayramı, həm də Bəyliyə qayıtdığınız gün. Amma may ayı laçınlılar üçün faciəvi ay olmuşdur. Məhz may ayında Laçın işğala məruz qaldı, Şuşanın işğalından 10 gün sonra. Bu, böyük bir faciə, böyük bir bəla idi həm sizin üçün, həm də bütün ölkəmiz üçün. Çünki məhz Laçının işğal altına düşməsi müharibədə ondan sonrakı uğursuzluqlarımızın təməlini qoydu. Çünki ovaxtkı Dağlıq Qarabağ bölgəsi coğrafi nöqteyi-nəzərdən Ermənistanla birləşdi. Mənfur Laçın dəhlizi açıldı, hansı ki, indi yoxdur. Artıq uzun illərin Laçın–Xankəndi yolu var. Laçın dəhlizi tarixdə qaldı..."

Prezident çıxışında həm də onu vurğuladı ki, Ermənistan bu işğalçılıq siyasətini təkbaşına həyata keçirməyib. Xarici dairələrin dəstəyi ilə Azərbaycan ərazisinin təxminən 20 faizi işğal olunub. Bu, çox önəmli və həssas bir məqamdır. Çünki bununla məsələ yalnız iki qonşu ölkə arasında münaqişə olmaqdan çıxıb. Beynəlxalq aləmdə müəyyən dairələrin Ermənistanın arxasında dayanması, Azərbaycanın isə bu illər ərzində faktiki olaraq təkbaşına mübarizə aparması nəzərə çarpır. Cənab İlham Əliyevin bu mesajı, eyni zamanda, bu gün də bəzi xarici qüvvələrin Ermənistanı qorumağa çalışdığı bir zamanda aktualdır və konkret auditoriyaya yönəlib.

Qarabağ və Şərqi Zəngəzurdan yüz minlərlə azərbaycanlının etnik təmizləməyə məruz qalması, doğma yurdlarından zorla qovulması və onilliklərlə qaçqın-köçkün həyatı yaşaması beynəlxalq ictimaiyyətin gözləri önündə baş verib. Bu, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin yerinə yetirilmədiyi, beynəlxalq hüququn kağız üzərində qaldığı, ikili standartların hökm sürdüyü bir dövr idi. Əslində, beynəlxalq hüquq indi də kağız üzərindədir, yenə də ikili standartlar hökm sürür. Haqlı güclü deyil, güclü "haqlı"dır. Beləliklə, Prezident İlham Əliyevin bu fikirləri həm də həmin ədalətsiz beynəlxalq münasibətlər sisteminə açıq etiraz idi.

Amma, Azərbaycan dövləti və xalqı bu ədalətsizliklə, bu işğalla heç vaxt barışmadı. Prezidentin də qeyd etdiyi kimi, biz güc toplayırdıq, beynəlxalq müstəvidə daha güclü mövqelərə sahib olurduq. Beynəlxalq təşkilatlar çərçivəsində öz haqq işimizi aparırdıq. Bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanımaqla münaqişənin həlli üçün siyasi və hüquqi zəmin yaratmışdır. Biz, eyni zamanda, güclü iqtisadiyyat qurmuşuq və məhz bunun nəticəsində ordu quruculuğuna lazımi həcmdə vəsait ayırmışıq.

Güclü siyasi iradə, güclü iqtisadiyyat və güclü ordu faktorları bizi Qələbəyə aparan amillərdir. Bu fikirlərlə bir daha sübut edildi ki, Azərbaycan dövləti və xalqı erməni təcavüzü, işğalı və etnik təmizləmə siyasəti ilə heç vaxt barışmayıb. Nəinki barışmayıb, heç status-kvonu da qəbul etmək niyyətində olmayıb. Əksinə, rəsmi Bakı bu illər ərzində həm diplomatik cəbhədə, həm də daxili strateji quruculuq sahəsində sistemli və uzunmüddətli planla hərəkət edib.

Tədbirdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın etdiyi çıxış da təsirli idi. Qardaş ölkə Prezidentinin "Bu gün keçmişdə yaşadığımız ağrılardan dərs alaraq davamlı sülhün bərqərar olmasını, etimadın və mehriban qonşuluq münasibətlərinin qurulmasını hədəfləyirik. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sülhün də memarı olaraq adını tarixə yazdıracağına inanırıq" sözləri Azərbaycanın həm hərbi, həm də siyasi meydanda qazandığı uğurların bölgədə sülhə və əməkdaşlığa yol açdığını göstərir.

Bu fikirlər, eyni zamanda, rəsmi Ankaranın regional sülhə sadiqliyini və Azərbaycanın haqq işinə verdiyi davamlı dəstəyi ifadə edir. Cənab Ərdoğan keçmişin ağrılarını unutmadan, gələcəyə baxaraq sülh və əməkdaşlıq çağırışı edir. Türkiyə Prezidentinin dövlətimizin başçısını həm Qələbənin, həm də sülhün memarı kimi təqdim etməsi Azərbaycanın beynəlxalq nüfuzunun artdığını göstərir. Bu, eyni zamanda, Türkiyə–Azərbaycan birliyinin dəyərlər üzərində qurulduğunu nümayiş etdirir.

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin çıxışı Azərbaycanla qardaşlıq münasibətlərinin səmimiyyətini və prinsipial xarakterini nümayiş etdirdi. O, Azərbaycanın 30 illik işğala son qoyaraq qazandığı Qələbəni yalnız hərbi deyil, həm də mənəvi və siyasi baxımdan böyük nailiyyət kimi dəyərləndirir. Şəhidlərin xatirəsini anması və qazilərə ehtiramı Pakistanın bu mübarizəni yalnız siyasi ritorika ilə deyil, dərin insani duyğularla dəstəklədiyini göstərir. Türkiyənin verdiyi mənəvi-siyasi dəstəklə yanaşı, Pakistanın diplomatik platformalarda göstərdiyi həmrəylik Azərbaycanın haqlı mövqeyinin beynəlxalq səviyyədə müdafiəsinə ciddi töhfə verib. "İki ruh bir qəlbdə" şüarının "üç ruh bir qəlbdə"yə çevrilməsi isə Azərbaycanın, Türkiyənin və Pakistanın birliyi fonunda yeni geosiyasi reallığın təntənəsi kimi qəbul olunmalıdır.

***Səxavət HƏMİD***
***XQ***

**Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı bərpa və yenidənqurma işləri davam etdirilir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində müasir infrastrukturun qurulması, keçmiş məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıdışı və rahat məskunlaşması üçün yeni yaşayış məntəqələrinin inşası sürətlə həyata keçirilir.**

# Azad torpaqlarda dirçəliş marafonu davam edir



Dövlət Proqramı çərçivəsində təkcə ötən il ərzində 1400-dən artıq ailə Laçın, Cəbrayıl, Füzuli, Şuşa və Xocalı şəhərləri, Laçın rayonunun Zabux və Sus kəndləri, Xocalı rayonunun Ballıca kəndinə köçürülüb. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan tarixi qələbə ilə ölkəmizdə yol-nəqliyyat məsələləri ilə bağlı vəzifələr və hədəflər də yenilənib. İşğaldan azad edilmiş ərazilərdə dövlət başçısının şəxsi nəzarəti ilə dünyanın ən modern yol infrastrukturunun yaradılması diqqətdə saxlanılıb.

Yeri gəlmişkən, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı", eləcə də dövlətimizin başçısının imzaladığı sərəncamlar əsasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında icra olunan layihələrin sayı 44-ə, avtomobil yollarının ümumi uzunluğu isə 3 min 40 kilometrə çatdırılıb. Ötən illər ərzində 7 yolun tikintisi yekunlaşdırılıb. Hazırda tikintisi həyata keçirilən 38 layihənin isə 2025-2026-cı illərdə tamamlanması nəzərdə tutulub. Bundan əlavə, 6 şəhərin (Şuşa, Füzulu, Qubadlı, Zəngilan, Kəlbəcər və Cəbrayıl) daxili yollarının, eləcə də 7 kəndə gedən avtomobil yollarının tikintisi davam etdirilib.

Qarabağ və Şərqi Zəngəzurun yol-nəqliyyat infrastrukturunun bərpasından geniş söz açmağa dəyər. Çünki əvvəldə xatırlatdığımız kimi, keçmiş məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıdışı və rahat məskunlaşması üçün, ilk dövbədə, yol-nəqliyyat məsələsi yüksək səviyyədə həll olunmalıdır. Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlərin rahat məskunlaşması, iqtisadi fəaliyyətin təşkili və bölgənin ölkə iqtisadiyyatına inteqrasiyası bu şəbəkənin mövcudluğundan birbaşa asılıdır.

Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın mayın 28-də Kəlbəcər-Laçın avtomobil yolunun tikintisi ilə tanışlığı da bir daha göstərdi ki, regionda nəqliyyat – kommunikasiya məsələləri dövlətin birbaşa nəzarətində olan strateji sahələrdən biridir. 75,8 kilometrlik bu magistral yol təkcə iki rayonu birləşdirmir, eyni zamanda, Laçın Beynəlxalq Hava Limanı ilə əlaqə yaradır, kəndlərə çıxışı təmin edir, turizm və logistikanın inkişafına zəmin yaradır.

Bu yol boyunca 17 tunelin tikintisi nəzərdə tutulur, onlardan 16-da artıq inşaat işləri uğurla davam etdirilir. Bu isə o deməkdir ki, Azərbaycanın dağlıq ərazilərində dünya standartlarına uyğun mühəndislik həlləri tətbiq olunur. Bundan əlavə, Laçın şəhərindən hava limanına qədər yeni yolun tikintisi məsafəni 65 kilometrdən 35,8 kilometrə endirəcək. Layihə çərçivəsində 40-cı kilometrdən ayrılan körpü də infrastrukturun texniki mükəmməlliyini göstərir.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın təməlini qoyduğu, tikintisi 2021-ci ilin avqustunda başlanan Laçın Beynəlxalq Hava Limanı artıq istifadəyə verilib. 1700 metr dəniz səviyyəsindən hündürlükdə yerləşən bu hava limanı həm texniki, həm də coğrafi baxımdan ölkənin ən unikal aviasiya infrastrukturlarından biridir.

Uçuş-enmə zolağının uzunluğu 3 min, eni isə 60 metrdir və istənilən tip hava gəmisinin qəbuluna imkan verir. Terminal binası saatda 200 sərnişinə xidmət göstərmək imkanına malikdir, burada VIP zal, baqaj sistemləri, ticarət sahələri və müasir təhlükəsizlik avadanlıqları quraşdırılıb. ICAO və IATA standartlarına tam uyğun gələn hava limanı bölgədə iqtisadi, turizm və logistik imkanları genişləndirmək gücündədir. Bu liman sayəsində Laçın, Kəlbəcər və Şuşa kimi şəhərlərə sürətli və rahat hava əlaqəsi yaradılır.

Laçın səfəri çərçivəsində Prezident İlham Əliyevin iştirakı ilə bir sıra istehsal və xidmət müəssisələrinin də açılışı həyata keçirildi. Bu obyektlər təkcə iqtisadi inkişafın təməli deyil, həm də əhalinin məşğulluğunun təminatıdır. Laçında açılan "LATIFA" tikiş fabriki bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Fabrik gün ərzində 2 min ədəd tekstil məhsulu – ev tekstili, idman geyimləri və eksklüziv paltarlar istehsal etməklə yanaşı, 30-a yaxın yeni iş yeri yaradır. Bu, regionda sənaye potensialının formalaşdırılması istiqamətində atılan ilk, lakin prinsipial addımlardandır.

Bununla yanaşı, "Dost Aqropark" layihəsi – türk və azərbaycanlı sərmayədarların birgə təşəbbüsü ilə yaradılan ilk özəl kənd təsərrüfatı kompleksi bölgənin aqrar inkişafı baxımından mühüm hadisədir. Burada "ağıllı" kənd təsərrüfatı texnologiyalarından istifadə olunur, bərpa olunan enerji və dayanıqlı istehsal mexanizmləri tətbiq edilir.

Qarabağın və Şərqi Zəngəzurun yeni iqtisadi həyatında sənaye parklarının rolu xüsusi qeyd olunmalıdır. Laçın Sənaye Parkı bu baxımdan regionun iqtisadi xəritəsində strateji mərkəz rolunu oynayır. Burada planlaşdırılan istehsal sahələri müasir texnologiyalara əsaslanacaq, ixracyönümlü məhsullar istehsal ediləcək. Bu, bir tərəfdən bölgənin iqtisadi fəallığını artıracaq, digər tərəfdən isə Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə önəmli töhfə verəcək.

# Azərbaycan paytaxtı beynəlxalq Enerji Həftəsinə hazırdır



**(əvvəli 1-ci səhifədə)**

Energetika Nazirliyinin mətbuat katibi Cahid Mikayılov bildirdi ki, Bakı Enerji Həftəsi energetika sahəsində nailiyyətləri nümayiş etdirmək üçün nüfuzlu platformaya çevrilib. Azərbaycanın hər zaman enerji sahəsində yeniliklərə imza atan dövlət olduğunu xatırladan mətbuat katibinin sözlərinə görə, ötən müddətdə ölkəmizin liderliyi ilə neft-qaz sektorunda regionları birləşdirən strateji layihələr həyata keçirilib. Bu gün isə ölkəmiz "yaşıl" enerji dəhlizləri yaratmaqla Mərkəzi Asiyanı Avropa ilə birləşdirəcək yeni enerji yollarının inşasına çalışır.

Bakı Enerji Həftəsinin Azərbaycanın enerji sahəsində atdığı uğurlu addımların, imzalanmış müqavilələrin və qurulmuş əməkdaşlıqların təcəssümü olduğunu diqqətə çatdıran mətbuat katibi qeyd etdi ki, bu platforma qarşıdakı dövr üçün yeni ideyaların ortaya çıxdığı, yeni müqavilələrin imzalandığı, yeni layihələrin başlanğıcının qoyulduğu və yeni tərəfdaşlıqların qurulduğu bir məkandır.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) mətbuat katibi Orxan Hüseynov qeyd etdi ki, Bakı Enerji Həftəsi çərçivəsində bərpa olunan enerji və neft-qaz hasilatı sahəsində kəşfiyyata dair bir sıra vacib sənədlərin imzalanması gözlənilir. Onun sözlərinə görə, toplantı çərçivəsində SOCAR-ın stendində şirkətin dekarbonizasiya sahəsində həyata keçirdiyi layihələr təqdim olunmaqla yanaşı, bərpa olunan enerji istiqamətində və COP29 çərçivəsində SOCAR tərəfindən imzalanmış sənədlər haqqında da ətraflı məlumat veriləcək.

"Xəzər neft və qaz" sərgisinin layihə meneceri Nailə Əliyeva bildirdi ki, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə başlanmış Bakı Enerji Həftəsi Prezident İlham Əliyevin dəstəyi ilə dünyanın ən nüfuzlu enerji tədbirlərindən birinə çevrilib. Regionun enerji sektorunun inkişafında mühüm rol oynayan "Xəzər neft və qaz" sərgisinin 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nin müjdəçisi olduğunu xatırladan layihə menecerinin sözlərinə görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərgilərin açılış mərasimində mütəmadi iştirakı tədbirin yüksək statusunu və əhəmiyyətini vurğulayır. Qeyd olundu ki, dövlətimizin başçısı hər il sərgiləri ziyarət edərək iştirakçılar və ekspozisiyalar ilə tanış olur. Bununla yanaşı, ABŞ və Türkiyə prezidentlərinin, eləcə də Böyük Britaniyanın Baş naziri kimi dünya liderlərinin iştirakçılara ünvanladığı salamlama məktubları bu tədbirin beynəlxalq ictimaiyyət üçün əhəmiyyətini təsdiqləyir.

Diqqətə çatdırıldı ki, uzun illərdir Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirlərə Azərbaycan Respublikasının Energetika Nazirliyi dəstək göstərir, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) baş tərəfdaş qismində çıxış edir. "Xəzər neft və qaz" sərgisinin ilk vaxtlardan etibarən neft, qaz və energetika sahəsinin aparıcı mütəxəssislərinin görüşdüyü və memorandumların, habelə gələcək əməkdaşlığa dair saziş və müqavilələrin imzalandığı məkana çevrildiyini bildirən N.Əliyeva dedi ki, ötən 30 il ərzində Bakı Enerji Həftəsi Azərbaycanda neft, qaz və enerji sənayesinin inkişafına töhfə vermiş, dünyanın 80 ölkəsindən 9 mindən çox şirkəti və 170 mindən artıq ziyarətçini cəlb etmişdir.

Onun sözlərinə görə, Bakı Enerji Həftəsi bu dəfə 39 ölkədən 267 şirkəti qəbul edir. Onların da 35 faizini yeni şirkətlər təşkil edir. Ümumilikdə, iştirakçıların, təxminən, 70 faizi xarici şirkətlərin payına düşür ki, bu da ölkəmizin neft, qaz və enerji sektoruna artmaqda olan beynəlxalq marağın nəticəsidir.

13-cü "Xəzər beynəlxalq energetika və yaşıl enerji" sərgisi barədə məlumat verən N. Əliyeva qeyd etdi ki, tədbirdə beynəlxalq və yerli şirkətlərin energetika və "yaşıl" enerji mənbələrinin inkişafı və istifadəsi sahəsindəki yeniliklər və bununla bağlı təkliflər gündəmdə olacaq. Sərgidə günəş enerjisi, külək enerjisi, geotermal enerji, istilik energetikası, maşınqayırma və enerji avadanlıqları, elektrik nəqliyyat vasitələri, enerji resurslarına qənaət edən texnologiyalar və digər sektorlar üzrə məhsul və xidmətlər, eləcə də yeni layihələr nümayiş olunacaq. Bütövlükdə isə, Bakı Ekspo Mərkəzində 3 gün ərzində günəş enerjisi, külək enerjisi, geotermal enerji, istilik energetikası, nüvə enerjisi, maşınqayırma və enerji avadanlıqları, elektrik nəqliyyat vasitələri və elektromobillər, enerji və resurslara qənaət edən texnologiyalar və digər sektorlar üzrə məhsul və xidmətlər, eləcə də yeni layihələr nümayiş etdiriləcək.

Enerji Həftəsi çərçivəsində təşkil ediləcək daha bir mötəbər tədbir isə Bakı Enerji Forumudur. Bu barədə jurnalistlərə məlumat verən forumun layihə rəhbəri Aynurə Nəzərli dedi ki, sayca 30-cu olan bu mötəbər toplantı yarandığı gündən etibarən beynəlxalq əlaqələrin möhkəmləndirilməsi, qabaqcıl təcrübələrin mübadiləsi və təkcə Azərbaycanın deyil, bütövlükdə, regionun enerji sektorunun inkişafına təsir edən sazişlərin imzalanması üçün əsas platformaya çevrilib.

Diqqətə çatdırıldı ki, enerji sahəsinin liderlərini, biznes nümayəndələrini və dövlət qurumlarının nümayəndələrini bir araya gətirərək bu sahədə beynəlxalq əməkdaşlığın inkişafına töhfə verən Bakı Enerji Forumuna Azərbaycan Respublikasının Energetika Nazirliyi dəstək göstərir, SOCAR isə baş tərəfdaş qismində çıxış edir. Forumda Azərbaycan Respublikasının Energetika naziri Pərviz Şahbazovun sədrliyi ilə "Dayanıqlı və davamlı enerji gələcəyi naminə qlobal əməkdaşlıq" mövzusunda plenar sessiyanın keçiriləcək. "Liderlərin çıxışları: Dayanıqlı enerji ekosisteminə aparan yol" adlı sessiyada isə SOCAR-ın prezidenti Rövşən Nəcəf əsas məruzə ilə çıxış edəcək.

Bütövlükdə isə, enerji sektorunun aktual çağırış və imkanlarını əhatə edən geniş və çoxşaxəli gündəmlə zəngin olacaq builki forumda "Enerjidə rəqəmsallaşma: məlumat və texnologiyanın gücü", "Geoloji kəşfiyyat – resursların aşkar olunmasında innovativ texnologiya üsulları", "Hasilat və əməliyyatlar – innovasiya və dayanıqlıq ilə səmərəliliyin artırılması", "COP29 nəticələri — dayanıqlı gələcəyə aparan yol", "Yaşıl enerji – Xəzər regionunda potensialının reallaşdırılması" və digər mövzular müzakirə olunacaq.




# "Xocalı" gəmisinin 1 yaşı tamam oldu

## *Ötən dövrdə 231 min 748 ton yük daşınıb*

**Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin tərkibində fəaliyyət göstərən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-in ilk quru yük gəmisinin – "Xocalı"nın istismara verilməsindən bir il ötür.**

Holdinqdən verilən məlumata görə, ötən dövrdə "Xocalı" ilə 7 beynəlxalq reys həyata keçirilib. Sakit, Atlantik və Hind okeanlarını əhatə edən səfərlər çərçivəsində gəmi dünyanın bir çox limanlarına, o cümlədən ABŞ, Çin, Cənubi Koreya, İndoneziya, Hindistan, Meksika və s. kimi ölkələrin 15-dən çox ayrı-ayrı limanına yan alıb. Bildirilib ki, bu müddətdə nəhəng gəmi ilə soda, şəkər, taxta, kükürd, sement və digər quru yüklər olmaqla, ümumilikdə 231 min 748 ton yük daşınıb.

Qeyd edək ki, ötən il mayın 27-də Çin Xalq Respublikasında istismara qəbul olunan "Xocalı" məhdudiyyətsiz üzmə imkanlarına malikdir. Gəminin yükgötürmə qabiliyyəti 38 min 593 ton, uzunluğu 180, eni 30, suya oturumu isə 10,47 metr, maksimum sürəti 15,7 uzeldir.



# "Meydan" və "Qamışlı" Kəlbəcərə 37,6 milyon kVt/saat işıq verib

**Kəlbəcər rayonunda inşa edilmiş "Meydan" və "Qamışlı" kiçik su elektrik stansyalarında (KSES) fəaliyyətə başladığı dövrdən bu ilin may ayınadək 37,6 milyon kVt/saat elektrik enerjisi istehsal edilib.**

Energetika Nazirliyinin məlumatında daha sonra bildirilir ki, bu müddətdə "Meydan" KSES-də 11,4 milyon kVt/saat, "Qamışlı" KSES-də isə 26,2 milyon kVt/saat elektrik enerjisi istehsal olunub. Məlumata görə, stansiya 2023-cü il mayın 27-də istismara verilib. Ümumi gücü 3,4 MVt olan "Meydan" KSES hər biri 1,7 MVt gücündə 2 hidroaqreqatdan, ümumi gücü 6,3 MVt olan "Qamışlı" KSES isə hər biri 3,15 MVt gücündə 2 hidroaqreqatdan ibarətdir.

Qeyd olunub ki, KSES-lər ekoloji cəhətdən daha təmiz elektrik enerjisi istehsal etdiyi üçün "yaşıl" enerji mənbəyi hesab olunur və enerjinin istehsalı zamanı atmosferə istixana effekti yaradan qazları atmayan elektrik enerjisi müəssisəsidir.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

Muxtar İmanov – 70

# Ədəbiyyatşünaslığımızı zənginləşdirən alim

**Milli ədəbiyyatşünaslığımızı çoxcəhətli və novator araşdırmaları ilə zənginləşdirmiş alim, akademik Muxtar İmanovun 70 illik yubileyini ölkənin ədəbi-elmi ictimaiyyəti görkəmli filoloqun xidmətlərinə yüksək dəyər, şəxsiyyətinə böyük sayğı-sevgi ilə qeyd edir.**



Muxtar Kazım oğlu İmanov 28 may 1955-ci ildə Naxçıvan MR Şərur rayonunun Axura kəndində anadan olub. Universiteti bitirdikdən sonra doğma rayonunda ədəbiyyat müəllimi işləyib. Ədəbiyyatşünaslığa dərin maraq onu AMEA Ədəbiyyat İnstitutunun aspiranturasına gətirib. O, burada dalbadal namizədlik və doktorluq dissertasiyaları müdafiə edib. Mifologiya şöbəsində kiçik elmi işçidən böyük elmi işçi vəzifəsinə yüksəlib, dosent, professor elmi adlarına yiyələnib. 2014-cü ildə AMEA-nın müxbir, 2017-ci ildə isə həqiqi üzvü seçilib.

70 illik şərəfli ömrün çox qısa tarixçəsi belə olsa da, Muxtar İmanovun həyatının hər günü, ayı, ili milli ədəbiyyatımızın şifahi və yazılı qollarının ən önəmli, estetik qiymət tələb edən, xüsusi araşdırmaya möhtac yönlərinin, mövzularının davamlı və dərindən tədqiqi ilə bağlı olub. O, 1992–2000-ci illərdə nüfuzlu "Yazıçı" nəşriyyatının baş redaktoru olub. 2001–2003-cü illərdə AMEA "Folklor sarayı" Elmi-Mədəni Mərkəzində böyük elmi işçı, həmin mərkəz Folklor İnstitutuna çevrildikdən sonra Türk xalqları folkloru şöbəsinin aparıcı elmi işçisi kimi fəaliyyət göstərib. 2011-ci ildən 2024-cü ilədək AMEA Folklor İnstitutunun direktoru olub. Hazırda Azərbaycan Dilər Universiteti Azərbaycan ədəbiyyatı kafedrasının müdiridir.

Muxtar müəllim 2011-ci ildən 2024-cü ilədək "Folklorşünaslıq" ixtisası üzrə Dissertasiya Şurasının və Folklor İnstitutu Elmi Şurasının sədri olub. 2011–2019-cu illərdə Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzində Ədəbiyyat fənni üzrə elmi-metodiki seminarın rəhbəri və Ekspert şurasının sədri kimi fəaliyyət göstərib. 2012-ci ildə İctimai Televiziya və Radio Yayımları Şirkəti Yayım Şurasının üzvü, 2017-ci ildən 2023-cü ilədək şuranın sədri olub.

Akademik Muxtar İmanov ədəbiyyatşünaslıq və folklorşünaslığa aid çoxsaylı əsərlərin müəllifidir. Onun Azərbaycan nəsrində psixologizm probleminin nəzəri əsaslarının müəyyənləşdirilməsinə, Azərbaycan xalq gülüş mədəniyyəti ilə bağlı elmi konsepsiyanın yaradılmasına, folklor və yazılı ədəbiyyat ilə bağlı mübahisəli məsələlərin araşdırılmasına, şifahi və yazılı söz sistemlərindəki özünəməxsus qanunauyğunluqların üzə çıxarılmasına, eposun qeyri-səlis məntiq nəzəriyyəsi baxımından öyrənilməsinə, folklorşünaslığın bir sıra digər aktual problemlərinə həsr edilən 12 kitabı, 300-dən artıq elmi məqaləsi, eləcə də çoxsaylı publisistik yazıları nəşr olunub.

Folklorun toplanması, tərtib və nəşr olunması ilə ardıcıl məşğul olan alim bu sahədə bir çox kitabların, o cümlədən "Bu yurd bayquşa qalmaz", "Zəngəzur folkloru", "Şərur folklor örnəkləri", "Gədəbəy folklor örnəkləri", 10 cildlik "Qarabağ: folklor da bir tarixdir", 16 cildlik "Güney Azərbaycan folkloru", 4 cildlik "Qərbi Azərbaycan folkloru", "Şifahi sənət və yazılı ədəbiyyat" toplularının layihə rəhbəri və tərtibçilərindəndir. Müasir texniki vasitələrlə, dünya standartlarına uyğun şəkildə toplanan və çap olunan materiallar Azərbaycan folklorunun yeni əsaslarla öyrənilməsində əvəzsiz qaynaq rolu oynayır. Qarabağdan toplanmış 30-a yaxın nağıl süjetinin Beynəlxalq Aarne-Tompson Kataloqunda qarşılığının olmaması onu deməyə əsas verir ki, Muxtar İmanovun rəhbərliyi ilə 2011-ci ildən AMEA Folklor İnstitunda başlanan toplama, tərtib, nəşr və tədqiq işləri dünya folklorşünaslığında janrlar üzrə elmi təsnifatların aparılması baxımından da mühüm əhəmiyyət daşıyır.

Muxtar müəllimin elmi, xidmətlərini tanınmış alimlər və ictimai xadimlər yüksək qiymətləndiriblər:

**AMEA-nın prezidenti İsa Həbibbəyli:** "Muxtar İmanovun "Azərbaycan folklorunda gülüşün genezisi və poetikası" əsəri Azərbaycan folklorşünaslığında müstəqillik dövründə meydana çıxmış ən sanballı monoqrafik əsərlərdən biri kimi mühüm əhəmiyyət daşıyır".

**Xalq yazıçısı, AMEA-nın həqiqi üzvü Kamal Abdulla:** "Muxtar Kazımoğlunun 70 yaşı tamam olur. Ədəbiyyat nəzəriyyəsini, ədəbi tənqidi, ədəbiyyat tarixini, folkloru öz timsalında birləşdirənlər nadir elm fədailərindəndir ki, onların arasında Muxtar müəllim xüsusi yer tutur.

Bu gun Azərbaycan filologiyasında, mədəniyyətində, təlim-tərbiyəsində Muxtar Kazımoğlu faktorunun (ölçüsünün) mövcudluğunu məsuliyyətlə qeyd etmək olar. Bu ölçünün göstəriciləri məsuliyyət, professionallıq, analitik təfəkkürün dərinliyi və genişliyi, səmimilik, insanlıq və bu qəbildən olan digər amillərdir".

**Türkiyənin Ege Universitetində, Türk Dünyası Araşdırmalar İnstitutunun yaradıcısı, professor Fikrət Türkmən:** "Muxtar Kazımoğlu yalnız Azərbaycan elmi mühitində deyil, bütövlükdə türk dünyasında tanınan bir alimdir. Onun elmi əsərləri mədəniyyətlərarası əlaqələrin öyrənilməsi baxımından böyük əhəmiyyət daşıyır, Türk dünyasına və türkoloji elminə dəyərli töhfədir, gələcək nəsil tədqiqatçılar üçün möhkəm bir elmi bazadır".

**Ədəbiyyatşünas, professor Nizami Tağısoy**: "Muxtar Kazımoğlunu tanıdığım vaxtdan mən onda fədakarlıq və ciddilik kimi keyfiyyətləri çox görüb müşahidə etmişəm. O, elmə, folklora, folklorşünaslığa, ədəbiyyata, ədəbiyyatşünaslığa, sənətə, sənətşünaslığa daim qayğı və sayğı ilə yanaşıb. Nailiyyətləri bütün istiqamətlərdə əsaslı olsa da, folklora xidmət, folklorşünaslıq sahəsində araşdırmalarda daha çox görünüb, amma hikkədən, mənəmlikdən, xudpəsəndlikdən kənar olu"b.

**Ədəbiyyatşünas, professor Rüstəm Kamal:** "Muxtar Kazımoğlunun kitablarını, tədqiqatlarını oxumaq Azərbaycan folklorşunaslığının tarixindən, inkişaf yollarından və problemlərindən söhbət açmaq imkanıdır".

**Əməkdar jurnalist Tahir Aydınoğlu:** "Muxtar müəllim 16 cildlik Güney Azərbaycan folkloru seriyasına rəhbərlik edib. O, tədqiqatında, ədəbi-bədii fakta münasibətində yeni bir baxış ortaya qoyur, mülahizələrini arqumentləşdirir, elmi təhkiyəsində və təhlillərində akademizm nəzəri mülahizələrin yığcamlığını, sistemliyini, konkretliyini yüksək bir fəzaya qaldırmaqla üçölçülü görüntü yaradır. Buna riyaziyyatda qeyri-səlis məntiq, optikada qalaqramma effekti deyilir.

Muxtar İmanovun insanlar və hadisələr barədə publisistik təqdimatı da obyektiv (sübutlu), ictimai məzmunlu, obrazlı və səmimidir. O, estetik dəyəri elmi-nəzəri və yeri gələndə publisistik güzgüdə zərrəbinlə nəzərdən keçirir, mənəvi tərəzidə qram dəqiqliyi ilə çəkir".

**Şair-publisist Adil Cəmil:** "Muxtar müəllimin ad-soyadı ilə elmə gerçək bir alimin nəfəsi gəldi".

Muxtar İmanov Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondu və UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının beynəlxalq xarakterli 2-ci "Şuşa qrantı" birgə müsabiqəsinin qaliblərindən olub. Onun rəhbəri olduğu "Türk xalqlarında dövlət rəmz, etiket, mərasim və bayramlarının folklor baxımından genezisi" layihəsi (2015-2016) AMEA Rəyasət Heyətinin qərarı ilə AMEA-nın elmi-tədqiqat proqramları sırasına daxil edilmiş və uğurla icra olub. Onun elmi rəhbərliyi ilə 13 fəlsəfə doktoru və 3 elmlər doktoru hazırlanıb.

Muxtar müəllimin ictimai, elmi və elmi-təşkilati fəaliyyəti dövlət qurumlarının, eləcə də elmi və ictimai təşkilatların fəxri fərmanları, diplom, mükafat, təşəkkür və tərifnamələri ilə qeyd edilib. Elmin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomuna və AMEA Rəyasət Heyətinin Fəxri fərmanına, Türkiyənin İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnstitutunun "Bilim Onur Ödülü"nə layiq görülüb.

Alim Mahmud Kaşğari adına Beynəlxalq Fondun "Mahmud Kaşğari", Qazaxıstanın Əl-Fərabi adına Milli Universitetinin yubiley medalı, "Bakı Dövlət Universitetinin 100 illiyi" yubiley medalı, Kərkük Kültür Dərnəyinin "Kərkük mədəniyyətinə, ədəbiyyatına və folkloruna xidmət", "Heydər Əliyevin 100 illiyi" medalı ilə təltif olunub, Özbəkistanın Miqumi adına Kokand Dövlət Pedaqoji İnstitutunun "Fəxri professor"u adına layiq görülüb.

Muxtar Kazımoğlunun zəngin həyat yolu xalqımıza, mədəniyyətimizə və mənəviyyatımıza verdiyi töhfələr zəngin və qiymətlidir. Onun 70 illik yubileyi ədəbi-elmi ictimaiyyətə hikmətin, zəhmətin, vətənpərvərliyin və nüfuzun hesabatıdır. Uzun illər redaksiyamızın nüfuzlu müəlliflərindən və dostlarından olan akademik Muxtar İmanovu kollektivimiz adından səmimi təbrik edir, alimə uzun ömür, yeni uğurlar arzulayır.

*Namiq QƏDİMOĞLU*
*XQ*

Əhməd Abdinov – 80

# Elmə, təhsilə həsr olunmuş şərəfli ömür

**Bakı Dövlət Universitetinin professoru, fizika-riyaziyyat elmləri doktoru, görkəmli alim və pedaqoq Əhməd Abdinovun 80 illik yubileyini Azərbaycan elmi içtimaiyyəti qədirbilənliklə, nüfuzlu ziyalıya rəğbət və ehtiramla qeyd edir.**



Yubilyar alim 30 may 1945-ci ildə Ordubad rayonunun Behrud kəndində doğulub. İkinci Dünya müharibəsinin bitdiyiağır və ümidli bir vaxtda dünyaya gəlmək, çətinliklər içində böyümək və öz yolunu tapmaq, sözsüz ki, həm zəhmət, həm də böyük iradə tələb edib. Bu əzmə və iradəyə sahib olan Əhməd müəllimi uzun illərdir ki, tanıyıram və bu illər ərzində sarsılmaz bir əqidə dostluğu birləşdirib bizləri.

Aradan keçən illər ərzində çox şeylər dəyişmiş, amma 80 illik həyatının 63 ilini Bakı Dövlət Universiteti ilə bağlayan Əhməd müəllimlə münasibətlərimiz öz dəyərini və istiliyini heç vaxt itirməyib. Həyat elə gətirdi ki, 40 ildən də çoxdur fərqli ölkələrdə yaşayır və çalışırıq. Zaman bizi coğrafi olaraq uzaqlaşdırdı, amma aramızdakı dostluq bağlarını qoparmağa heç vaxt gücü çatmadı. Yollar bizi müxtəlif istiqamətlərə aparsa da, içimizdəki millətə bağlı hisslər dəyişmədi.

Yaddaşım məni 1963-cü ilin isti avqust günlərinə aparırsa, deməli, o günlərdən ürəkdə dərin iz buraxan nələrsə var. O dövrün ab-havası, gənclik arzuları, həyatın hələ indi-indi başlandığı günlər... Sözün düzü, belə xatirələr insanın içində həm bir nisgil, həm də bir sevinc oyadır. Əhmədlə qəbul imtahanları zamanı tanış olmuşduq – universitetin Nizami küçəsindəki o klassik, tarixi binasında. O bina yalnız elmə deyil, həm də talelərə ev sahibliyi etdi. Bizim üçünsə həmin an bir ömür boyu davam edəcək dostluğun başlanğıcı idi.

İllər keçsə də, həmin o isti avqust gününün xatirəsi heç zaman unudulmadı. Çünki o gün yalnız bir tanışlığın deyil, həm də ömürlük bir dostluğun təməllərinin qoymuşdu və bu münasibətlər zamanla dərinləşərək həyatımızın ən qiymətli sərvətlərindən birinə çevrildi.

Bakı Dövlət Universitetinin (o zaman ADU) fizika fakültəsinə qəbul olunmağımızla həyatın yeni bir mərhələsinə qədəm qoyduq. Əhməd o vaxtdan həmişə bir addım öndə oldu – təkcə dərslərdə və elmdə deyil, həm də insanlıqda, sədaqətdə, hər kəsə əl uzadan yardımçı olmağında. Liderlik onun təbiətində idi. Qrupumuzun uşaqları ona hörmətlə yanaşır, qərarsız qalanda ona üz tuturdular. Çünki o, sözlə deyil, əməli ilə də yol göstərməyi bacarırdı.

İmtahanlara hazırlaşdığımız saatların, auditoriyalarda apardığımız elmi müzakirələrin, tələbəlik həyatı boyunca birgə yaşadığımız sevinc və çətinliklərin şahidi yalnız zaman deyil, həm də könüllərimiz oldu. Dünyada çox şey dəyişir, amma bir dostun səmimi təbəssümü, dürüst sözü və yanında olmasının verdiyi güvən heç zaman unudulmur.

Əhməd həmişə sıralarımızda birinci oldu. O, birinci olaraq "Lenin təqaüdü"nü qazanan tələbə idi. Bu, sadə bir təqaüd deyildi – zəhmət, zəka və əzmkarlığın yüksək dəyəri idi. Ardınca SSRİ Elmlər Akademiyasının İoffe adına Fizika-Texnika İnstitutunda aspiranturasına qəbul olmağı ilə daha bir ilkə imza atdı – bu təkcə onun üçün yox, bizim hamımız üçün bir qürur, bir yeni yol idi. Sonra ilk olaraq elmlər namizədi adını qazandı. Yenə ilk olaraq Respublika Lenin Komsomolu Mükafatına layiq görüldü.

Əhməd Abdinov 1972-ci ildə namizədlik, 1978-ci ildə doktorluq dissertasiyası müdafiə edib, 1971-ci ildən BDU-nun fizika fakültəsində assistent, baş müəllim, dosent, professor, dekan kimi fəaliyyət göstərib, 1992-ci ildən kafedra müdiri vəzifəsində çalışır.

Ümummilli lider Heydər Əliyevin sərəncamı ilə 1993-cü ilin dekabrında Azərbaycan Respublikası təhsil nazirinin müavini təyin edilən Əhməd Abdinov 2000-ci ilə kimi bu məsul vəzifədə çalışmış, bir müddət isə təhsil nazirinin əvəzi olmuşdur. Onun bu fəaliyyəti, ölkənin ictimai-siyasi və iqtisadi baxımdan son dərəcə mürəkkəb bir dövrünə təsadüf edir. Bu illər Azərbaycanın müstəqilliyini yenidən bərpa etdiyi, Qarabağ müharibəsinin ağır nəticələri, daxili siyasi qeyri-sabitlik və iqtisadi tənəzzül dövrü idi.

Belə bir zamanda təhsil sahəsində sabitliyi qorumaq, islahatlar aparmaq və ali təhsilin inkişafını təmin etmək həm çətin, həm də böyük məsuliyyət tələb edən bir vəzifə idi. Əhməd Abdinov bu çətin missiyanı üzərinə götürərək, yalnız idarəçilik deyil, eyni zamanda strateji baxımdan gələcəyə hesablanmış, rəqabətə davamlı və Avropa təhsil məkanına inteqrasiya yönümlü bir sistemin qurulması istiqamətində ciddi addımlar atıldı.

1990-cı illərin təhsil sistemi korrupsiya, maliyyə çatışmazlığı, idarəetmədə qeyri-müəyyənlik və resurs çatışmazlığı kimi problemlərlə üz-üzə idi. Qalmaqallı məqamlar, müxtəlif təzyiqlər və müqavimətlərə baxmayaraq, onun şəxsi nüfuzu və peşəkarlığı nəticəsində təhsil sahəsində sabitlik və inkişaf təmin edildi.

Əhməd Abdinov 500-dən çox elmi əsərin müəllifidir, bir neçə müəlliflik şəhadətnaməsi var. 220-dən çox elmi əsəri xarici ölkələrdə çap olunub. 40-dan çox beynəlxalq və respublika əhəmiyyətli elmi konfrans, simpozium və konqreslərdə məruzələr edib, Nyu-York EA-nın həqiqi üzvü seçilib. Elm Sahəsində Beynəlxalq qranta layiq görülüb. Beynəlxalq Bioqrafiya Mərkəzi (Kembriç Universiteti) tərəfindən "İlin 100 alimi"ndən biri, Amerika Beynəlxalq Bioqrafiya Mərkəzi tərəfindən "İlin adamı" seçilb. BDU-da "İlin alimi" və "İlin müəllimi" adına layiq görülüb. Müxtəlif illərdə Elm və Təhsil Nazirliyinin, BDU-nun fəxri fərmanlarını alıb.

Əhməd Abdinovun rəhbərliyi ilə 7 elmlər doktoru, 31 elmlər namizədi, 18 magistr dissertasiyası müdafiə edilib. Yüzlərlə elmi əsərin və iki ixtiranın, ali məktəblər üçün yazılmış beş dərslik və 21 fənn proqramının müəllifidir. Professor Abdinov BDU-nun çoxminli kollektivinin, respublikanın elmi içtimaiyyətinin fəxr duyduğu alimlərdəndir. 2019-cu ildə 3-cü dərəcəli "Əmək" ordeni, "BDU-nun 100 illiyi" medalı, 2024-cü ildə "Heydər Əliyevin 100 illiyi" medalı ilə təltif olunub.

Bu gün geriyə baxanda ötənlərin tarixinə insanın inanmağı belə çətin olur. İlk dəfə görüşdüyümüz gündən 62 il keçib. Bu, bir ömrün böyük bir hissəsidir. İlk tanışlıq, o saf və təmiz duyğularla başlanan münasibət bu gün də qocaman bir çinar kimidir, budaqlanaraq yaşayır və yaşadır.

Biz bir-birimiz üçün yalnız yaxşı günlərin deyil, həm də ağır və çətin günlərin yoldaşı olmuşuq. Zaman keçsə də, saçlar ağarsa da qəlblərimizdəki o isti münasibət, o dəyər və ehtiram daim yaşayıb və bu bağlar bizim ən qiymətli sərvətimizdir. Onun 80 yaşı həm cəmiyyət, həm də eli-obası, ailəsi, çalışdığı kollektiv qarşısında yeni hesabatdır. Hər kəsin dərindən anladığı bir həqiqət var ki, Əhməd müəllim görkəmli alim, içtimai xadim, dövlətinə və xalqına sadiq bir vətəndaş, fədəkar elm təşkilatçısı və peşəkar müəllim kimi hesabat verir.

*Əmirulla MƏMMƏDOV,*
*Azərbaycan Elm Adamları Dərnəyinin rəhbəri, Türkiyənin Bilkənd Universitetinin professoru, Dövlət Mükafatı laureatı, Əməkdar elm xadimi*

# "Ağ ölüm" maarifləndirməsi davam etdirilir

**"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomaniyaya qarşı mübarizəyə dair Dövlət Proqramı"nın icrasını daim diqqət mərkəzində saxlayan Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu müasir informasiya texnologiyalarının imkanlarından istifadə etməklə narkotiklərin qanunsuz dövriyyəsinin və narkomaniyanın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması istiqamətində məqsədyönlü işlər görüb, bu sahədə fəaliyyət göstərən qurumların koordinasiyası təşkil edilib, qarşılıqlı əməkdaşlıq nəticəsində ictimai maarifləndirmə işlərinin əhatəsi genişləndirilib.**

2024-cü ildə Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə aidiyyəti dövlət qurumlarının cəlb edilməsi ilə ümumilikdə 183 tədbir həyata keçirilib. Bu tədbirlər sırasında 95 maarifləndirici və təşkilati tədbir, 71 təlim, 6 sosial layihə, 5 intellektual müsabiqə, 1 marafon və televiziya kanalında 5 verilişdə iştirak yer alıb. Cari ilin yanvar-aprel ayları ərzində "802" qaynar xəttinə ümumilikdə 292 vətəndaş müraciəti daxil olub. Bu müraciətlərin 33-ü narkotik vasitələrin qanunsuz dövriyyəsi, 26-sı narkotik asılılıqdan müalicə, 233-ü isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəalarının izahı, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olub. Qeyd olunan müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 59 məktub ünvanlanıb.

Cari ilin ilk 4 ayı ərzində hüquq-mühafizə orqanları tərəfindən narkotiklərlə mübarizə sahəsində 2 min 992 fakt aşkar olunub. Bu faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 2 ton 593 kiloqram 000.402 qram müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr müsadirə edilib. Həmçinin qeyd olunan dövrdə 4 min 263 ədəd metadon və 2 min 578 ədəd çətənə bitkisi qanunsuz dövriyyədən götürülüb. Müsadirə olunan narkotik vasitələrin 140 kiloqram 727.95 qramı heroin, 60 kiloqram 688.812 qramı tiryək, 30 kiloqram 822.838 qramı həşiş, 21 kiloqram 378.121 qramı digər narkotik vasitələr, 68 kiloqram 104.632 qramı isə psixotrop maddələr təşkil edib.

Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərin sayı 1499 nəfər təşkil edib. Onlardan 33-ü xarici ölkə vətəndaşlarıdır.

Səhiyyə Nazirliyinin məlumatına əsasən, 2024-cü il dekabrın 31-nə respublika üzrə narkomaniya, narkotik maddələrin qəbulundan yaranan psixi və davranış pozuntuları ilə əlaqədar dispanser nəzarətində olanların sayı 40 min 490 nəfər olub.

*XQ*

# Azərbaycan millisi yarımfinalda




**Minifutbol üzrə Azərbaycan millisi Bakıda keçirilən dünya çempionatının 1/4 final matçında növbəti oyununu keçirib.**

Elşad Quliyevin yetirmələri İngiltərə ilə qarşılaşmada çətin qələbə qazanıb. Millimiz hesabı açsa da, fasilədən sonra ingilislər bərabərlik qolunu vurublar. Amma sona yaxın rəqibin müdafiədə anlaşılmazlığı yığmamıza 2:1 hesablı qələbə qazandırıb.

Komandamız yarımfinalda Macarıstanla qarşılaşacaq. Görüş sabah baş tutacaq.

*XQ*

*Azərbaycan Xalq Cümhuriyyəti – 107*

# “Gəncədən başlanan dövlətçilik salnaməsi”

## *Nizami yurdunda bu mövzuda respublika elmi konfransı keçirilib*



**Məclisi Gəncə Şəhər İcra Hakimiyyəti, Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsi və onun Diyarşünaslıq İnstitutu tərəfindən təşkil edib. Konfransa Bakı, Gəncə, Sumqayıt, Naxçıvan, Ağcabədi və Şabranın elmi-tədqiqat və ali təhsil ocaqları, eləcə də dövlət qurumlarından alim və mütəxəssisləri qoşulublar.**

Konfransda Gəncənin tarixi haqqında qısa videoçarx nümayiş etdirildikdən sonra AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev çıxış edərək deyib ki, Azərbaycanın dövlətçilik tarixinin öyrənilməsinin və təbliğinin bu sahədə çalışan alim və tədqiqatçılarımızın başlıca vəzifəsidir.

Akademik Fuad Əliyev əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş müasir dövlətçilik strategiyasının, onun layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla və dünyanın hazırkı inkişaf qanunauyğunluqlarına uyğun surətdə davam etdirildiyini qeyd edib.

Milli dövlətçiliyimizə tarixin müxtəlif dövrlərində Gəncə şəhərinin böyük töhfələr verdiyini vurğulayan akademik bu haqda Gəncə Bölməsi tərəfindən çox sayda monoqrafiya və məqalələrin çap edildiyini qeyd edib.

Gəncə Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Yadigar Bədəlov Prezident İlham Əliyevin sərəncamı ilə 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edildiyinin böyük əhəmiyyət daşıdığını bildirib və ölkəmizin daha işıqlı gələcəyi üçün hər birimizin fəal çalışmalı olduğunu qeyd edb.

AMEA-nın Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu tarix şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Nərgiz Rəsulova, Türkiyənin İzmir 9 Eylül Universitetindən tarix elmləri doktoru, dosent Kenan Kırkpınar, AMEA-nın Gəncə Bölməsi elmi işlər üzrə sədr müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Əlimuxtar Muxtarov, AMEA-nın Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu etnoqrafiya şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Samirə Qasımova , Bakı Ali Neft Məktəbi və AMEA Tarix və Etnologiya İnstitutundan tarix üzrə fəlsəfə doktoru, dosent Pərvin Ahənçi, Gəncə Dövlət Universitetinin baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Xatirə İlyasova və başqaları məruzələrlə çıxış ediblər, geniş fikir mübadiləsi aparılıb.

***Hm let QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**

*Beynəlxalq kino festivalı*

# Azərbaycan əsilli rejissor Kann qalibidir

**Fransanın Cənub sahilindəki məşhur kurort şəhəri Kannda keçirilən 78-ci Beynəlxalq Film festivalı tarixə qovuşdu. 10 gün ərzində neçə-neçə bədii və siyasi ruhlu ekran əsərinin nümayiş olunduğu sənət yarışmasının bütün nominasiyalarda mükafatları təqdim edilib.**



Fərəhli haldır ki, festivalın əsas mükafatı olan “Qızıl palma budağı” bu dəfə iranlı tanınmış rejissor, ssenarist və redaktor, 1960-cı ildə Miyanə şəhərində doğulmuş Azərbaycan əsilli Cəfər Pənahinin “Bir sadə qəza” trillerinə verilib. Bu film Pənahinin öz dissident-məhkumluq təcrübələrindən bəhs edir. Xatırladaq ki, soydaşımız 2015-ci ildə Berlin Beynəlxalq Film Festivalında “Qızıl ayı”, 2000-ci ildə isə Venesiya Film Festivalında “Qızıl şir” mükafatlarının lauretatı olub. Bu soydaşımız da İran Prezidenti Məsud Pezeşkian kimi, “mən türkəm, evimdə də tükcə danışram” deyə qürurlanması ilə yadda qalıb.

Festivalın “Böyük mükafatı”na norveçli rejissor Yoakim Trierin “Sentimental dəyər” adlı komediya-dramı layiq görülüb. Film, ailə bağları və keçmişlə əlaqəli emosional bir hekayəni izhar edir . “Jüri mükafatı” isə 2 film – Oliver Laksenin “Sirat” və Maşa Şilinskinin “Yıxılmanın sədası” filmləri arasında bölüşdürülüb. Braziliyalı aktyor Vaqner Moura isə “Sirat”dakı performansına görə “Ən yaxşı aktyor” nominasiyasında fərqlənib. Yeri gəlmişkən, fransız aktrisa Nadia Melliti “La Petite Dernière” (Kiçik Bacı) filmindəki debüt roluna görə “Ən yaxşı aktrisa” seçilib.

Braziliyalı rejissor Kleber Mendonça Filho “Gizli Agent” filminə görə “Ən yaxşı rejissor”, belçikalı rejissor qardaşlar Jan-Pyer və Lük Darden “Gənc Analar” filmi ilə “Ən yaxşı ssenari” mükafatına layiq görülüblər. Festivalda bir sıra digər nominasiyaların qalibləri də müəyyənləşib.

Xatırladaq ki, bu il ilk dəfə olaraq Azərbaycanın “kinoyazar. az” saytı mötəbər festivalda iştirak üçün qeydiyyatdan keçib. Bu, Azərbaycan Kinematoqraflar İttifaqının təşəbbüsü ilə yaradılmış ilk və yeganə kinoşünaslıq saytımızdır. Saytın müxbiri, kinotənqidçi Hacı Səfərov Kanndan Vətənə gündəlik olaraq maraqlı məlumatlar ötürüb.

Ümid edirik ki, yaxın gələcəkdə A kateqoriyasına aid beynəlxalq kino festivallarının iştirakçı və qalibləri arasında ölkəmizin təmsilçiləri də olacaqlar.

***Ə.ƏLİYEV***
***XQ***

# Sosial müdafiə sistemləri və müasir çağırışlar





**Dünən Bakıda Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyası və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun birgə təşkilatçılığı ilə “Müasir dünyanın çağırışları kontekstində sosial müdafiə sistemlərinin uyğunlaşdırılması” mövzusunda beynəlxalq konfrans işə başlayıb.**

İkigünlük məclisdə hökumət rəsmiləri, beynəlxalq təşkilatların nümayəndələri, Serbiya, Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Belarus və Tacikistanın sosial təminat qurumlarının təmsilçiləri iştirak edirlər.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev konfransın sosial müdafiə sahəsində qlobal əməkdaşlığın və təcrübə mübadiləsinin genişləndirilməsində önəmini vurğulayıb. O bildirib ki, BPSFA-nın 2023-cü ildə keçirilmiş ümumi yığıncağında ölkəmizdən DSMF sədrinin beş il müddətinə Assosiasiyaya sədr seçilməsi Azərbaycanın beynəlxalq nüfuzunun artmasının növbəti bariz göstəricisidir.

Nazir Prezident İlham Əliyevin sosial sahəyə xüsusi qayğısının nəticəsi olaraq son illər ölkəmizdə 5 böyük sosial islahat paketinin icra olunduğunu vurğulayıb, illik əlavə maliyyə tutumu 7,6 milyard manat olan və 4 milyon nəfəri əhatə edən bu islahatların nəticəsi olaraq sosial ödənişlərdəki ciddi artımları diqqətə çatdırıb.

Şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı sosial dəstək tədbirlərindən söz açan Anar Əliyev işğaldan azad olunmuş ərazilərimizə “Böyük Qayıdış” proqramı çərçivəsində köçürülən sakinlərin məşğulluğunun təminatı üçün görülən işlərdən bəhs edib.

DSMF-nin İdarə Heyətinin və BPSFA-nın sədri Zəka Mirzəyev çıxışında assosiasiyanın fəaliyyəti çərçivəsində üzv təşkilatların fəal əməkdaşlığnın onlara sosial müdafiə sahəsində ən son tədqiqatlara, qabaqcıl beynəlxalq təcrübələrə və metodlara çıxış əldə etməyə imkan verdiyini vurğulayıb. Beynəlxalq Sosial Təminat Assosiasiyasının baş katibi Marselo Abi-Ramia Kaetano tədbirin əhəmiyyətindən bəhs edib.

***XQ***

# Türkiyəli rektor AHİK akademiyasında



**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Əmək və Sosial Münasibətlər Akademiyasında Türkiyənin Koç Universitetinin rəhbərliyi ilə görüş keçirilib.**

Görüşdə AHİK sədri Sahib Məmmədov, Koç Universitetinin rektoru Metin Sitti, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, Əmək və Sosial Münasibətlər Akademiyasının rektor vəzifəsini icra edən Yusif Ağayev və professor-müəllim heyəti iştirak ediblər.

Konfederasiya sədri Sahib Məmmədov ölkəmizdə həmkarlar ittifaqlarının fəaliyyəti üçün yaradılmış əlverişli şəraiti diqqətə çatdırıb, dövlət başçısı İlham Əliyevin həmkarlar ittifaqlarına göstərdiyi xüsusi diqqət və qayğını vurğulayıb. O bildirib ki, ölkəmizdə sosial tərəfdaşlıq münasibətləri inkişaf etdirilərək əmək hüquqlarının müdafiəsində həmkarlar ittifaqlarının rolu daha da gücləndirilir.

Rektor Metin Sitti görüşdən məmnunluğunu ifadə edib, Əmək və Sosial Münasibətlər Akademiyası ilə təhsil və elmi-tədqiqat sahələrində birgə layihələrin həyata keçirilməsi perspektivlərindən danışıb. Rektor vəzifəsini icra edən Yusif Ağayev ali təhsil ocağının fəaliyyətindən, tədrisin keyfiyyətinin yüksəldilməsi istiqamətində aparılan islahatlardan bəhs edib. Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov isə Koç Universiteti qarşılıqlı faydalı münasibətlərin yaradılmasının önəmini vurğulayıb.

Görüşdə Əmək və Sosial Münasibətlər Akademiyası və Koç Universiteti arasında Əməkdaşlıq Memorandumunun imzalanması barədə razılıq əldə olunub.

***XQ***

# Göyçayda qiraət müsabiqəsi



**Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) tərəfindən bu təşkilatın prezidenti Elxan Süleymanovun təşəbbüsü ilə növbəti təhsil layihəsi - Göyçay məktəbliləri arasında “Göyçay şairləri – qiraət müsabiqəsi” keçirilib. Xalq şairi Rəsul Rza, Əli Kərim, İsgəndər Coşqun, İbrahim Göyçaylının yaradıcılığına həsr olunmuş layihə Göyçay rayon məktəblərində təhsil alan şagirdlərin ədəbi bilgilərinin artması, bədii-estetik zövqünün, nitq səviyyəsinin yüksəlməsini nəzərdə tuturdu.**

İlk mərhələlərdə rayon məktəbləri üzrə keçirilən layihə AVCİYA-nın Mərkəzi Aran Regional Təhsil İdarəsi, Göyçay rayon-şəhər məktəbləri ilə koordinasiyalı əməkdaşlıq əsasında həyata keçirilib və məktəblər üzrə qaliblər müəyyənləşdirilib. Növbəti mərhələdə məktəb qalibləri arasında rayon üzrə müsabiqə təşkil olunub.

Yekun mərhələsində Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aktyoru, Xalq artisti Nürəddin Mehdixanlının sədrliyi ilə, Xalq artisti Tarıyel Qasımov, AVCİYA-nın birinci vitse-prezidenti Asif Hacılı, göyçaylı şairlər Adil Məmməd, Ətraf Sərraf, müəllim Tahirə Əsədovadan ibarət münsiflər heyəti tərəfindən 54 məktəbdən müsabiqəyə qatılmış 113 şagirddən 19 nəfər qalib seçilib.

Mükafatlandırma mərasimindən əvvəl ümummilli lider Heydər Əliyevin abidəsi və haqqa qovuşmuş şailərin məzarları ziyarət edilib, gül dəstələri qoyulub. Göyçay rayon Heydər Əliyev Mərkəzində keçirilən mərasimdə rayon ictimaiyyətinin, icra aparatının, Mərkəzi Aran Regional Təhsil İdarəsinin, məktəblərin nümayəndələri və valideynlər iştirak ediblər. Qaliblərə Qran-pri (1 mükafat), 1-ci yer (3 mükafat), 2-ci yer (3 mükafat), 3-cü yer (3 mükafat) və 9 həvəsləndirici mükafat təqdim olunub.

Mərasimdə çıxış edən ziyalılar, valideynlər Elxan Süleymanovun bu təşəbbüsünü yüksək qiymətləndirib, bu aksiyanın şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsinə, ana dili və ədəbiyyata olan marağının artmasına təkan verəcəyini qeyd ediblər.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Zamanın arifanə ilmələri...



**Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Xalça Muzeyi və HüsnART Müstəqil Bədii Birliyinin təşkilatçılığı ilə “Zamanın ilmələri” adlı layihənin təqdimatı olub. 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş layihə çərçivəsində Xalq rəssamı, qrafika ustası, professor Arif Hüseynovun fərdi sərgisi açılıb.**

Azərbaycan Milli Xalça Muzeyində sərgilənən ekspozisiyada 2024–2025-ci illərdə yaradılmış və xalçanın yaranma mərhələlərini ardıcıllıqla əks etdirən əsərlər nümayiş etdirilir. Arif Hüseynovun xalça sənətinə, milli adət-ənənələrə sevgisini, bağlılığını tərənnüm edən, maraqlı süjet xəttinə malik 20-dən artıq silsilə rəsm əsəri kətan üzərində qarışıq texnikada yaradılıb.

Azərbaycan Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova sərginin maarifləndirici xarakter daşıdığını dedi. Ardınca süni intellekt vasitəsilə hazırlanmış qısa videoçarx təqdim olundu. Milli Məclisin deputatı, parlamentin Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva rəssamın yaradıcılığının çoxşaxəliliyini qeyd etdi. Azərbaycan Rəssamlar İttifaqının sədr müavini, Xalq rəssamı, professor Ağəli İbrahimov bildirdi ki, Arif Hüseynovun əsərləri zamanla xalqın kollektiv yaddaşının bir hissəsinə çevriləcək. Tanınmış siyasətçi və dövlət xadimi Həsən Həsənov da çıxış edərək rəssamın yaradıcılığında yenilik ruhunu daim duyduğunu vurğuladı. “Azad Azərbaycan” Teleradio şirkəti Bədii Şurasının sədri Etibar Babayev və Xalq yazıçısı Natiq Rəsulzadə isə rəssamın hər bir sərgisində yüksək sənətkarlıq nümayiş etdirdiyini bildirdilər. Qeyd etdilər ki, hər sərgidə Arif Hüseynov onları təəccübləndirir. Rəssamın mövzuları dəyişsə də, yaradıcılıq səviyyəsi daim yüksək olaraq qalır. Daha sonra çıxış edən Xalq rəssamı Arif Hüseynov bu sərgini özünün ən vacib layihələrindən biri kimi dəyərləndirdi, iştirakçılara təşəkkürünü bildirdi.

Tədbirin sonunda 3 saylı Uşaq və Gənclər İnkişaf Mərkəzinin dərnək üzvləri ilk dəfə təqdim olunan “Zaman xətləri” layihəsi üçün xüsusi olaraq hazırlanmış rəqs kompozisiyası ilə çıxış etdilər. Qonaqlar sərgi ilə tanış olduqdan sonra əsərlərin süni intellekt vasitəsilə canlandırıldığı və süjet xəttinə uyğun videoçarx formasında təqdim edildiyi ekspozisiyanı izlədilər. Uşaqların xalçanın yaranma mərhələləri ilə tanışlığı və milli irsə marağının artırılması məqsədilə muzeyin Uşaq şöbəsi “Xalça necə yaranır?” adlı yeni ustad dərs təşkil etdi. Dərs zamanı uşaqlar qoyunun qırxılması, yun daranması və ip əyrilməsi, həmçinin xalça toxunuşu proseslərinin şahidi və iştirakçısı oldular. Qeyd edək ki, sərgi və ustad dərsləri iyunun 26-dək davam edəcək.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Xuntaçıların məhkəməsi

# Ermənistan ordusunun 2016-cı ilin aprelində və 2020-ci ilin iyulunda mülki şəxslərə qarşı törətdiyi cinayətlərin tədqiqi

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası mayın 29-da davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev məhkəmə prosesinin Azərbaycanın mülki vətəndaşlarına qarşı törədilmiş terror cinayətləri və digər cinayətləri əhatə edən, habelə məhkəmə istintaqının iki fəsli üzrə zərərçəkmiş şəxslərin dindirilməsi və həmin epizodlara dair digər sənədlərin tədqiqi yolu ilə davam etdirilməsini təklif edib. Beləliklə, 2016-cı ildə, şərti olaraq "Aprel döyüşləri" adlandırılan dövrdə törədilmiş terror aktları və digər cinayətlər, eyni zamanda, 2020-ci ilin iyul ayında, şərti olaraq "Tovuz döyüşləri" adlandırılan dövrdə həyata keçirilmiş terror aktları və digər cinayətlər üzrə zərərçəkmiş şəxslərin dindirilməsinə başlanılıb.

İfadə verən zərərçəkmiş şəxs Elmir Abbasov hərbçi kimi xidmət etdiyi Tərtər rayonunda 2016-cı ildə baş vermiş Aprel döyüşləri zamanı yaralandığını bildirib.

O, dövlət ittihamçısı Vüsal Abdullayevin sualına cavabda 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin təxribat törətdiyini, atəş açdığını söyləyib və deyib: "Bilirsiniz ki, döyüş və müharibə qanunlarına görə, hərbi bölmə yalnız hərbi bölmə ilə vuruşmalıdır. Amma onlar kəndlərə, dinc əhalinin yaşadığı ərazilərə qadağan edilmiş mərmilər, o cümlədən zəhərli, yandırıcı mərmilər atırdılar. Yəni, Ermənistan silahlı qüvvələri qadağan olunmuş mərmilərdən kütləvi şəkildə istifadə edirdi.



"Şrapnel tipli" adlandırdığımız mərmilərin tərkibində çuqun qəlpələrdən əlavə, bir mərminin içərisində 2 mindən çox iynə yerləşdirilir. Bunlar elə iynələrdir ki, onların birinin insana dəyməsi belə kütləvi zəhərlənməyə səbəb ola bilər. Bizə keçirilən təlimlər zamanı videogörüntülər vasitəsilə izah edilib ki, həmin iynələr dəriyə batmadan, onlara, sadəcə, əl ilə toxunmaq belə insan orqanizminə təsir göstərir və zəhərlənməyə səbəb olur".

O, dövlət ittihamını müdafiə edən prokurorların, zərərçəkmişlərin vəkillərinin, müdafiə tərəfinin, o cümlədən təqsirləndirilən şəxslərin suallarını cavablandırıb. Təqsirləndirilən şəxs Levon Mnatsakanyan sual verən zaman əvvəlcə Aprel döyüşlərində iştirak etdiyini bildirib və deyib: "Mən 2016-cı ildə keçirilən əməliyyatlarda iştirak etmişəm və "ordu komandiri" olmuşam. Düzünü desəm, təqdim olunanların baş verdiyini ilk dəfədir eşidirəm".

Levon Mnatsakanyan hadisə zamanı E.Abbasovun hansı hərbi vəzifəni tutduğunu və rütbəsini soruşub. Zərərçəkmiş şəxs həmin vaxt artilleriya divizionunda batareya komandiri olduğunu, kapitan rütbəsində xidmət etdiyini deyib.

Zərərçəkmiş şəxs Abbas Allahverdiyev ifadəsində bildirib ki, yaşadığı Tapqaraqoyunlu kəndi ermənilər tərəfindən artilleriya qurğularından və digər silahlardan mütəmadi olaraq atəşə tutulub. Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun sualına cavabında o bildirib ki, kəndin atəşə məruz qalan istiqamətində dövlət tərəfindən 2013-cü ildə daş hasar çəkilsə də, Ermənistan ordusunun atəşləri müntəzəm olaraq davam edib. 2016-cı il aprelin 2-nə keçən gecə ermənilər Ağdərə tərəfdən atəşlərə başlayıblar, aprelin 3-də axşam saatlarında Ermənistan silahlı qüvvələrinin atdıqları mərmilərdən biri onun evinin həyətinə düşərək partlayıb. Nəticədə, o, sağ gözaltı nahiyəsindən yaralanıb, evinə və təsərrüfatına ciddi ziyan dəyib.

A.Allahverdiyev təqsirləndirilən şəxs David Manukyanın kəndin sərhədləri barədə suallarını da cavablandırıb. D.Manukyan kənddən İncəçayın keçib-keçmədiyini soruşub. A.Allahverdiyev kənddən İncəçayın keçdiyini bildirib.

Zərərçəkmiş şəxs Elvin Kərimov isə deyib ki, Ermənistan silahlı qüvvələri onun yaşadığı Füzuli rayonunun Alxanlı kəndini dəfələrlə ağır artilleriya atəşlərinə tutub. 2016-cı il aprelin 4-də saat 16 radələrində evlərindən həyətə çıxanda qonşusunun həyətinə mərmi düşərək partlayıb və qəlpə onun sağ dizinə dəyib. O, həmin gün xəstəxanaya çatdırılıb.

E.Kərimov Bakı şəhərinin rayon məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru Təranə Məmmədovanın suallarını cavablandırarkən diqqətə çatdırıb ki, kənd sakinləri təsərrüfat işləri ilə məşğul olan zaman Ermənistan hərbçiləri tərəfindən atəşə tutulublar.

Təqsirləndirilən şəxs Levon Mnatsakanyan zərərçəkmiş şəxsə "Ərazidə neçə atəş mövqeyi var idi" sualını verib. E.Kərimov isə sualı "Mən atəş mövqelərini, postlarımızı saymırdım ki, bunu bilim" deməklə cavablandırıb.

Təqsirləndirilən şəxs David Babayan E.Kərimovdan kənddə neçə nəfərin yaşadığını soruşub. Zərərçəkmiş şəxs isə kənd sakinlərini dəqiq sayını bilmədiyini deyib.

Zərərçəkmiş şəxs Anar Abdullayev qeyd edib ki, yaşadığı Ağdam rayonunun Çəmənli kəndi keçmiş təmas xəttinin yaxınlığında yerləşir. Kənd Ermənistan silahlı qüvvələrinin mütəmadi atəşinə məruz qalıb. 2016-cı il aprelin 27-dən 28-nə keçən gecə həyətdə olarkən qonşuluqda yaşayan dayısı Hüseynin həyətinə mərmi düşərək partlayıb. Mərmi qəlpəsinin kürəyinə dəydiyini hiss edib və huşunu itirib, ayılanda xəstəxanada olduğunu görüb. Qonşusunun onu xəstəxanaya öz maşını ilə gətirdiyini sonradan öyrənib.

Zərərçəkmiş şəxs Sirdaş Kərimov deyib ki, yaşadığı Ağdam rayonunun Çəmənli kəndinə Ermənistan silahlı qüvvələri tərəfindən 2016-cı il aprelin 27-dən 28-nə keçən gecə növbəti atəşlər başlayıb. Gecə saat 3 radələrində o, qonşularından Famil Mustafayev (zərərçəkmiş şəxsin xalası oğlu), Əli Hüseynov (dayısı), Zahir Rəhimov, Anar Abdullayev və başqaları ilə birlikdə Zahirin evinin təxminən 100 metrliyindəki soğan sahəsində olublar. Həmin yerdən ermənilərin "Qrad" mərmiləri atdıqları görünüb. Saat 4 radələrində mərmilərdən biri onların yanına düşərək partlayıb. Nəticədə Famil Mustafayev hadisə yerində həlak olub, S.Kərimov da daxil olmaqla, digər şəxslər xəsarətlər alıblar. Əli Hüseynov da növbəti gün xəstəxanada vəfat edib. Dövlət ittihamçısı Fuad Musayevin sualına cavabında S.Kərimov söyləyib ki, həmin vaxt rayon Ermənistan silahlı qüvvələrinin intensiv atəşlərinə məruz qalıb.

Təqsirləndirilən şəxs David Manukyan S.Kərimovdan nə zaman yaralanması barədə soruşub. O isə təkrarən 2016-cı il aprelin 27-dən 28-nə keçən gecə yaralandığını deyib. D.Manukyan ondan yaşadığı kəndə 1994-cü ildən 2016-cı ilədək atəş açılıb-açılmadığını soruşub. S.Kərimov kəndin həmin illərdə atəşə tutulduğunu bildirib.

Zərərçəkmiş şəxs Zahir Rəhimov deyib ki, yaşadığı Ağdam rayonunun Çəmənli kəndində 2016-cı il aprelin 28-də gecə o, kənd sakinləri Əli Hüseynov, Famil Mustafayev, Sirdaş Kərimov və Adil Məmmədovla birlikdə olduğu yerin yaxınlığına mərmi düşərək partlayıb. Nəticədə Famil Mustafayev həlak olub, Əli Hüseynov isə ciddi xəsarətlər alıb, sonradan dünyasını dəyişib. Hadisə zamanı o, Sirdaş və Adil isə qəlpə yaraları alıblar. Düşmənin atdığı mərmilərdən biri isə onun evinin divarlarını zədələyib, pəncərələri və tövlənin damını dağıdıb, bununla da ona ziyan vurulub.

Fasilədən sonra təqsirləndirilən şəxs Davit İşxanyan söz alıb. O, digər təqsirləndirilən şəxs David Babayanla mayın 26-da keçirilmiş məhkəmə iclasının protokolları ilə tanış olmaq istədiyini bildirib.

Hakim Zeynal Ağayev erməni dilində tərcüməçinin iştirakı ilə məhkəmə iclas protokolları ilə tanış olmaq üçün şərait yaradılacağını bildirib.

Zərərçəkmiş şəxs Simran Quliyev qeyd edib ki, 2016-cı il aprelin 4-də Ermənistan silahlı qüvvələri yaşadığı ərazini iriçaplı silahlardan növbəti dəfə atəşə tutublar. Həmin gün saat 20 radələrində evlərindən çıxıb darvazadan 4-5 metr aralandığı zaman qarşısına - 20 metrlik məsafədə yerə mərmi düşərək partlayıb. Bu an o, sağ dizində kəskin ağrı hiss edib. Valideynləri onu rayon mərkəzi xəstəxanasına aparıblar. Onun dizinə top mərmisinin qəlpəsinin batdığı məlum olub.

Zərərçəkmiş şəxs Məhbub Orucova bildirib ki, 2020-ci il iyulun 17-də saat 14:30-da Qazax rayonunun Bala Cəfərli kəndi ilə üzbəüz mövqedə yerləşən ərazilərdən Ermənistan silahlı qüvvələri tərəfindən atılan və reaktiv qüvvə ilə işləyən aparatın fəzada partlaması nəticəsində ayrılan hissələrdən bəziləri Qazax rayonunun Xanlıqlar kəndində onun yaşadığı evin dam örtüyünə dəyib.

O, Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin sualını cavablandırarkən kənddə və kəndin yaxınlığında heç bir hərbi hissənin olmadığını bildirib.

Zərərçəkmiş şəxs Səlminə Əliyeva söyləyib ki, 2020-ci il iyulun 17-də Ermənistan silahlı qüvvələri tərəfindən atılmış top mərmisinin qəlpələri Qazax rayonunun Xanlıqlar kəndində onun yaşadığı evin dam örtüyünə dəyib. O, prokurorların suallarını cavablandıran zaman yaşadığı kənddə hərbi hissənin olmadığını vurğulayıb.

Zərərçəkmiş şəxs Vüqar Sultanlı Tovuz döyüşlərində - 2020-ci il iyulun 14-də şəhid olan zabitlərimiz – general-mayor Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin və digərlərinin təxliyəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulduqlarını, yaxınlığa düşən mərminin partlaması nəticəsində xəsarətlər aldığını bildirib. "Təxliyəmiz çətin oldu. Xüsusi vurğulamaq istəyirəm ki, düşmən artilleriyası bizim sanitar avtomobillərimizə və ümumilikdə tibb işçilərinə atəş açırdı. Bu da beynəlxalq humanitar hüquq normalarına görə qadağandır və hərbi cinayət hesab olunur.

Təkcə şəhidlərimiz yox, yaralanan hərbi qulluqçularımızın da təxliyəsi zamanı bütün yollar düşmən tərəfindən aramsız mərmi və minaatan atəşinə tutulurdu.

Təqsirləndirilən şəxs David Manukyan şəhid Polad Həşimovun həlak olması barədə sual verərkən "Eşitdiyimə görə, həm yaxşı hərbçi, həm də yaxşı insan olub" deyib və hadisənin gecə, yoxsa gündüz saatlarında baş verməsini soruşub.

Zərərçəkən şəxs isə hadisənin gündüz baş verdiyini bildirib.

Zərərçəkmiş şəxs Məhəmmədəli İmanov deyib ki, yaşadığı Ağdam rayonunun Mahrızlı kəndi mütəmadi olaraq Ermənistan silahlı qüvvələrinin atəşlərinə məruz qalıb.

"2016-cı il aprelin 27-də axşamdan yenə atəşlər başlayıb. Gecə saatlarında oğlu Anar, qonşusu Siyasət və Ədalətlə birlikdə digər qonşusu Teyyubun evinə gediblər. Aprelin 28-də saat 5 radələrində Teyyubun evinə mərmi düşüb partlayıb, nəticədə o, başından xəsarət alıb", - deyə M.İmanov qeyd edib.

O, təqsirləndirilən şəxs Levon Mnatsakanyanın "Təkcə sizin kəndi, ya digər kəndləri də atəşə tuturdular" sualına "Bəli, digər kəndləri də atəşə tuturdular" cavabını verib.

Zərərçəkmiş şəxs Kamil Cahanov bildirib ki, 2020-ci il iyulun 17-də saat 14:30-da Ermənistan hərbçiləri tərəfindən atılmış mərminin partlaması nəticəsində ayrılan hissələrin bir qismi Qazax rayonunun Xanlıqlar kəndində onun yaşadığı evin dam örtüyünə dəyib.

"Əvvəlki vaxtlarda mən heyvan otarmağa gedəndə də Ermənistan hərbçiləri atəş açırdılar", - deyə o əlavə edib.

Zərərçəkmiş şəxs Əziz Şirinov Qazax rayonunun Xanlıqlar kəndində yaşadığı evin Tovuz döyüşləri zamanı Ermənistan hərbçilərinin atdıqları mərminin partlaması nəticəsində zərər çəkdiyini söyləyib.

Məhkəmədə zərərçəkmiş şəxslər barəsindəki tibbi ekspertiza rəyləri də elan olunub.

Ardınca Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevi iştirakı ilə 2016-cı ilin aprel ayı ərzində Ermənistan silahlı qüvvələri tərəfindən mülki əhali yaşayan zonaların atəşə tutulması nəticəsində öldürülmüş Azərbaycan vətəndaşları ilə bağlı hadisə yerinə baxış və digər protokolların ekspert rəyləri tədqiq edilib. Bu sıraya 1983-cü il təvəllüdlü Rəhimov Orxan Valerik oğlunun, 1990-cı il təvəllüdlü Əsədli Fərman Elçin oğlunun, 2000-ci il təvəllüdlü Həsənli Turanə Kamandar qızının, 1954-cü il təvəllüdlü Dadaşov Qaraş Şahmar oğlunun, 1967-ci il təvəllüdlü Mustafayev Famil Əli oğlunun, 1942-ci il təvəllüdlü Hüseynov Əli Müseyib oğlunun öldürülməsi, habelə digər şəxslərə xəsarət yetirilməsi ilə bağlı sənədlər, o cümlədən protokollar daxildir.

Məhkəmə prosesi mayın 30-da davam etdiriləcək.

*XQ*

## "Bakı Polad Burazlar" ASC-nin 2024-cü il dekabrın 31-nə mühasibat balansı

manatla

| AKTİVLƏR | Hesabat dövrü 2024-cü il üzrə | Əvvəlki dövr 2023-cü il üzrə |
|---|---|---|
| Uzunmüddətli aktivlər | | |
| Qeyri-maddi aktivlər | | |
| Torpaq, tikili və avadanlıqlar (əsas vəsaitlər) | 7335.00 | 8195.00 |
| Daşınmaz əmlaka investisiyalar | | |
| Bioloji aktivlər | | |
| Təbii sərvətlər | | |
| İştirak payı metodu ilə ucota alınmış investisiyalar | | |
| Təxirə salınmış vergi aktivləri | | |
| Uzunmüddətli debitor borcları | | |
| Sair uzunmüddətli maliyyə aktivləri | | |
| Sair uzunmüddətli aktivlər (zərər) | | |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | **7335.00** | **8195.00** |
| Qısamüddətli aktivlər | | |
| Ehtiyatlar | 64932.00 | 79839.00 |
| Sair debitor borcları | 9020.00 | 88822.00 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 2345.00 | 130.00 |
| Gələcək dövrün xərcləri | 80159.00 | 80159.00 |
| Digər aktivlər | 570223.00 | X |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | **726679.00** | **325310.00** |
| **CƏMİ AKTİVLƏR** | **734014.00** | **257146.00** |
| **Kapital və öhdəliklər** | | |
| Kapital | | |
| Ödənilmiş nominal (nizamnamə) kapital | 68066.00 | 68066.00 |
| Emissiya gəliri | | |
| Geri alınmış kapital (səhmlər) | | |
| Kapital ehtiyatları | | |
| Bölüşdürülməmiş mənfəət (zərər) | 62284.00 | 62284.00 |
| **CƏMİ KAPİTAL** | **130349.00** | **130349.00** |
| Uzunmüddətli öhdəliklər | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | |
| Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | |
| Təxirə salınmış vergi öhdəlikləri | | |
| Uzunmüddətli kreditor borcları | | |
| Sair uzunmüddətli öhdəliklər | | |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **X** | **X** |
| Qısamüddətli öhdəliklər | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər (bank krediti) | X | X |
| Alınmış avanslar | 1470.00 | 4875.00 |
| Sair kreditor borcları | 568023.00 | X |
| Digər öhdəliklər | 34172.00 | 121920.00 |
| **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | **603665.00** | **203149.00** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **603665.00** | **203149.00** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **734014.00** | **333498.00** |

**MÜSTƏQİL AUDİTORUN RƏYİ "BAKI POLAD BURAZLAR" ASC-nin sədri Zakir Nəsirova**

Biz, **"BAKI POLAD BURAZLAR"** ASC-nin 2024-cü il dekabrın 31-nə təqdim edilən balans hesabatı və həmin tarixdə tamamlanan 2024-cü il üzrə mənfəət və zərər hesabatı, kapitalda dəyişikliklər hesabatı və pul vəsaitlərinin hərəkəti hesabatından ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

**Maliyyə hesabatlarının hazırlanması üzrə rəhbərliyin məsuliyyəti**

1. Hazırkı Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə rəhbərlik məsuliyyət daşıyır. Bu məsuliyyətə aşağıdakılar daxildir: səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı, maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sisteminin yaradılması, tətbiq edilməsi , davam etdirilməsi, müvafiq uçot siyasətinin seçilməsi , tətbiq edilməsi və şəraitdən asılı olaraq məqbul uçot təxminlərinin irəli sürülməsi.

**Auditorun məsuliyyəti**

2. Bizim məsuliyyətimiz apardığımız audit yoxlamasına əsasən maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir.Sənədlərin düzgünüiyünə sifarişçi məsuliyyət daşıyır.

Biz, audit yoxlamamızı Beynəlxalq Audit Standartları əsasında apardıq. Həmin standartların tələblərinə görə, biz etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparmalıyıq ki, maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcud olmamasına kifayət qədər əmin olaq.

3. Audit yoxlamasına maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair auditor sübutu əldə etmək üçün prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizələrindən, səhvlər nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisənin daxili nəzarət sisteminin səmərəliliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, audit yoxlamasına mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot təxminlərinin əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

4. Bizcə, əldə etdiyimiz auditor sübutları rəyimizi bildirmək üçün kifayət qədər əsas verir.

**Rəy**

5. Bizim fikrimizcə, təqdim edilən maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından **"BAKI POLAD BURAZLAR"**ASC-nin 2024-cü il dekabrın 31-nə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan 2024-cü il üzrə mənfəət və zərər hesabatı, kapitalda dəyişikliklər hesabatı və pul vəsaitlərinin hərəkəti hesabatından ibarət olan maliyyə nəticələrini və Maliyyə Hesabatlarnın Beynəlxalq Standartlarına uyğun balansda düzgün əks etdirir.

**"YENİ ZAMAN-AUDİT" MMC-nin auditoru Hüseyn Cəbiyev,**
**Bakı şəhəri, 27 may 2025-ci il.**

## "Bakı Polad Burazlar" ASC səhmdarlarının nəzərinə!

"Bakı Polad Burazlar" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının Bakı şəhəri, Araz küçəsi 8 nömrəli ünvanda ("Ulduz" metro stansiyasının yaxınlığı) 30 iyun 2025-ci il saat 11.00-da növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. Cəmiyyətin 2024-cü ildəki maliyyə-təsərrüfat fəaliyyətinə aid idarə heyətinin hesabatı.
2. Cari məsələlər.

Ümumi yığıncağın gündəliyinin materialları ilə aşağıdakı ünvana və telefon nömrəsinə müraciət etməklə tanış olmaq mümkündür:

Telefon: (012) 567-54-95.

Ünvan- Bakı şəhəri, Araz küçəsi 8.

Nəzərinizə çatdırırıq ki, səhmdar ümumi yığıncaqda iştirak hüququnu bila- vasitə özü və ya nümayəndəsi vasitəsilə həyata keçirə bilər. Bu zaman səhmdarın nümayəndəsi qanunvericiliklə müəyyənləşdirilmiş qaydada tərtib edilmiş etibarnaməyə malik olmalıdır.

Ümumi yığıncaqda iştirak edən səhmdar və ya nümayəndəsi şəxsiyyətini təsdiqləyən sənədin əslini (nümayəndə olduqda etibarnaməsinin təsdiqlənmiş surətini) təqdim etməlidir.

*İdarə heyəti*

## "RASİFOĞLU" ASC səhmdarlarının nəzərinə!

27 iyun 2025-ci il saat 11. 00-da "RASİFOĞLU" ASC səhmdarlarının XIX ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. ASC-nin idarəetmə orqanlarının 2024-cü il üzrə maliyyə - təsərrüfat fəaliyyəti barədə yekun hesabatının müzakirəsi.
2. Digər məsələlər.

Bütün səhmdarların iştirakı vacibdir.

Telefon- (02224) 2-26-99.

Ünvan-Goranboy şəhəri, C.Cabbarlı küçəsi 5.

## "ELİT"ASC səhmdarlarının nəzərinə!

27 iyun 2025-ci il saat 12.00-da Bakı şəhəri,Nərimanov rayonu, Ağa Nemətulla küçəsi 51 nömrəli ünvanda "ELİT"ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. "ELİT" ASC-nin 2024-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.
2. Digər məsələlər.

*Rəhbərlik*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 111 (30805) 30 may 2025-ci il, cümə

Elimizdən-obamızdan

# İlin əziz günləri...

**Yazın ən qaynar günləridi. Havanın hərarəti günbəgün yüksəlir. Günlər hələ də uzanır. İnsanlar təbiətin bu çağlayan çağının bir saatını belə boş keçirməyi ruzi itkisi sayırlar. Çünki onlar bu günləri çox gözləyiblər. Böyük Sabirimiz məhz bu dəmlər üçün yazıb:**

***Gəl, gəl, a yaz günləri!***
***İlin əziz günləri!***
***Dağda ərit qarları,***
***Bağda ərit qarları:***
***Çaylar daşıb sel olsun,***
***Taxıllar tel-tel olsun.***
***Ağaclar açsın çiçək,***
***Yarpağı ləçək-ləçək.***



Artıq aranda sünbüllər dənə dolub. Amma arpa biçininin başlanmasına azı iki həftə qalır. Əkinçinin qayğıları isə təkcə taxıl biçini ilə bağlı deyil. İndi kənd adamlarının ən gərgin günləridir. Belə demək olarsa, hazırda kəndlinin başını qaşımağa macalı yoxdur. O, bir gündə dörd-beş iş görür – tərəvəzi suvarır, bostan becərir, ağaclara gübrə verir, dərman çiləyir, yem tədarük edir və sair.

Son günlər ot biçininə start verilib. İndi biçənəklərdə və həyətyanı sahələrdə mexaniki dəryazların səsi tez-tez eşidilir. Əli dəryaz (kərənti) tutan gənclər ağsaqqallara qoşulub ot biçinini tezliklə başa çatdırmağa çalışırlar. Çünki havaların dəyişkən keçməsi, tez-tez yağış yağması biçənəkləri yatızdırır. Bu isə həm biçin aparmağı çətinləşdirir, həm də biçilmiş otun çürüməsinə səbəb olur.

Ot biçini ilə bağlı bir xatirə yaddaşımda ilişib qalıb. Bir az kövrək söhbət olduğu üçün unuda bilmirəm. Aşağı sinifdə oxuyurdum. Qonşu kənddən məktəbdən qayıtmışdım. Allah verəndən yeyəndən sonra anam dedi ki, bala, böyük qardaşın Səmidli qışlağının yanında ot biçir. Ona çörək aparmaq lazımdı. Anam bağladığı dəstərxanı balaca zənbilə qoyub verdi mənə. Sonra tapşırdı ki, yolun ortasıyla get, ilanların çıxan vaxtıdı. Dedim, narahat olma. Düzəldim yola. O yerə çataçatda gördüm ki, dəryazçılar xeyli ərazinin otunu səliqə ilə çalıb və yeni sov tutub dayanıblar. Biçənək də nə biçənək – yoncalı, vələmirli, güllü-çiçəkli. Yaxınlaşıb salam verdim, "yorulmayasız", dedim. Gördüm hamı qardaşıma baxır. Onun da gözləri qızarıb. Bir azdan dedilər ki, qardaşın bilməyib, bir quş yuvasını dəryazla dağıdıb, iki balası da məhv olub. Çox məyus oldum....

Srağagün həyətin otunu biçən xalanəvəsi Vasifdən soruşdum ki, bu mövsümdə lazımınca yem tədarük edə biləcəksən? O, gileylə bildirdi ki, həyətlərdən toplanan ot kifayət eləməz, gərək pulla da alım. Sonra əlavə etdi ki, vallah, indi mal-qara saxlamaq çox çətindi. Kəndin ki, örüşü olmadı, heyvanı ilboyu doyuzdurmaq müşküldü. Elə buna görə obada mal-qaranın, qoyun-quzunun sayı ilbəil azalır...

Kəndin qabağındakı kanalın üstünə çıxıb uzaqlara baxdım. On hektarla uzanıb gedən arpa zəmiləri xeyli saralıb. Əkinçilərimiz elin ruzisi üçün gərgin əmək sərf ediblər. Məhsulun əkinçini sevindirib-sevindirməyəcəyi isə xırmanda bilinəcək.

Bu dəmlərdə zəmidən axıb gələn sünbül ətri nəfəsimə dolduqca məni bihuş etdi. Uşaqlıqda biz süd qoxulu sünbülləri ütüb həvəslə yeyər, sonra da Günəşin ılıq tellərinə bələnmiş biçənəkdə uzanıb mavi səmada pəmbə buludların sakit-sakit oynamasına tamaşa edərdik. Baxdıqca özümüzü o buludların üstündə sanardıq. O çağlar baxmaqdan köhnəlmiş kino lentləri kimi qəlbimdə bu gün də yaşayır. Uşaqlığıma qayıtdığım anlarda o yaşıl xatirə sanki təkrarlanır...

Bəli, ilin əziz günləridir. İndi ən zəhmətkeş canlılar – qarışqalar kimi torpağın sinəsinə daraşmış insanlar elin firavanlığı, çörəyi üçün səhərdən axşamadək çalışırlar...

Mən isə az sonra elə bu ümidlə sahillərində uşaqlığımı salıb itirdiyim Cəngi gölü ilə söhbətə yollandım. İndi yalnız yuxularımda yaşayan o göl bu çağlarda daha gözəl olurdu.

***Səməd MƏLİKZADƏ***

**Ağsu rayonu, Cəfərli kəndi**

*İdman*

## Azərbaycan–Latviya oyunu iyunun 10-da olacaq

**Latviya yığmasının yoldaşlıq görüşü çərçivəsində iyunun 7-də Azərbaycan millisinə və Dünya çempionatı 2026-nın seçmə mərhələsində iyunun 10-da Albaniya seçməsinə qarşı keçirəcəyi ev oyunları üçün heyəti açıqlanıb.**

Baş məşqçi Paolo Nikolati heyətə 25 futbolçu cəlb edib.

Qeyd edək ki, Latviya - Azərbaycan oyunu iyunun 7-də Bakı vaxtı ilə saat 17:00-da Riqada yerləşən "Skonto" stadionunda keçiriləcək.

## Stolüstü tennis üzrə Azərbaycan birinciliyi




**Gənclər və İdman Nazirliyi və Azərbaycan Stolüstü Tennis Federasiyasının təşkilatçılığı ilə keçirilən yarışda 13 yaşadək idmançılar bacarıqlarını göstərirlər.**

Kütləviliyi ilə seçilən birincilikdə paytaxt təmsilçiləri ilə yanaşı, müxtəlif şəhər və rayonların seçmə komandaları, idman klubları, idman məktəblərindən 100-dək stolüstü tennisçi mübarizəyə qatılıb.

"Şüa" İdman Kompleksində şəxsi, qoşa və qarışıq-qoşa növləri üzrə keçirilən ölkə birinciliyinə mayın 31-də yekun vurulacaq.

***FİDAN***
***XQ***

**HAVA**

## Aranda yağmursuz, dağlarda yağış və duman...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 29-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək, axşam mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 18-21°, gündüz 28-33° isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütunu, nisbi rütubət gecə 50-55, gündüz 30-35 faiz olacaq.**

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi, duman olacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 16-20°, gündüz 29-33°, dağlarda gecə 8-13°, gündüz 17-22° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## İki muzeyin birgə toplantısı



**Dünən Cəlil Məmmədquluzadənin ev-muzeyində Abdulla Şaiqin mənzil-muzeyi ilə birgə "Azərbaycan ədəbiyyatında dövlət rəmzlərinin tərənnümü" adlı toplantı keçirilib.**

Toplantının məqsədi Azərbaycan ədəbiyyatında dövlətçilik ideyalarının, suverenlik anlayışının və milli rəmzlərin bədii əksini önə çəkmək, vətənpərvərlik ruhunu təbliğ etmək, klassik və müasir ədəbiyyat nümunələri vasitəsilə milli kimliyi və dövlət rəmzlərini gənc nəslə tanıtmaqdır.

Cəlil Məmmədquluzadənin ev-muzeyinin direktor əvəzi Yeganə Məmmədova Azərbaycan dövlətinin indiyədək keçdiyi şərəfli yola nəzər salıb. Abdulla Şaiqin mənzil-muzeyinin direktoru Ülkər Talıbzadə xalqımızın maariflənməsi, rifahı yolunda mübarizə aparan ədiblərimizin gördüyü işlərdən danışıb.

Abdulla Şaiqin mənzil-muzeyinin əməkdaşı Günel Əsədova Abdulla Şaiq, Cəlil Məmmədquluzadə kimi ədiblərin yaradıcılıqlarının vətənpərvərliyin təbliği baxımından dərin məna kəsb etdiyini söyləyib.

Sonda qonaqlar üçün muzey ekspozisiyasında xüsusi bələdçi turu təşkil edilib.

***XQ***

## "Hər uşaq bir çiçəkdir"



**Naftalan Şəhər İcra Hakimiyyətinin, şəhər Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə "Hər uşaq bir çiçəkdir!" adlı bayram şənliyi keçirilib.**

Çıxış edənlər uşaqları əlamətdar gün münasibətilə təbrik edərək, ölkəmizdə bu sahədə həyata keçirilən dövlət siyasətindən danışıblar. Bildirilib ki, ölkəmizdə uşaqlara göstərilən diqqət və qayğı dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən olunub. Uşaq hüquqlarının müdafiəsi, onların sağlam, təhlükəsiz mühitdə böyüməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun xüsusi qayğıya ehtiyacı olan uşaqların rifahına yönəlmiş çoxsaylı layihələrindən bəhs edilib.

Sonra uşaqların ifasında konsert proqramı olub. Tədbirdə uşaqların rəsm işlərindən ibarət sərgi təşkil olunub, gənc idmançıların nümunəvi çıxışları nümayiş etdirilib.

***XQ***

**Kolbasa və sosis anormal hüceyrə bölünməsinə səbəb olduğu üçün xərçəng yaradan qidalar siyahısındadır. Amma ondan da zərərli və təhlükəli qida var imiş.**

## Şəkərli, qazlı sular, insanın canın alar



***Onkoloq İvan Karasev anormal hüceyrə bölünməsinə səbəb olan qidaları açıqlayıb:***

"Xarici tədqiqatçıların son işlərinə görə, 2-ci tip şəkərli diabet xəstələrinin kolorektal xərçəngə tutulma riski belə diaqnozu olmayanlara nisbətən 47 faiz daha yüksəkdir. Bu da onu göstərir ki, qanda şəkərin səviyyəsinin artması xərçəng hüceyrələrinin böyüməsinə şərait yaradır. Qlükoza onların əsas "yanacaq" mənbəyidir. Xərçəng hüceyrələri qlükozanı normal hüceyrələrdən 200 dəfə sürətli istehlak edirlər".

Mütəxəssisin izah etdiyi kimi, müntəzəm olaraq şirin içkilər qəbul edən insanların telomerlərinin daha qısa olduğuna dair sübutlar var. Bunlar DNT-ni bir-birinə yapışmaqdan və məhv olmaqdan qoruyan strukturlardır. Daha sürətli hüceyrə bölünməsi xroniki xəstəliklər və onkologiya riskini artırır.

O, əlavə edib ki, mədə-bağırsaq şişlərinin inkişafı üçün əsas 3 şərt müəyyən edilib. Bu, qan şəkəri və insulin səviyyəsinin artması və iltihab prosesidir. Həkimin sözlərinə görə, şəkərli diabet toxumalarda sərbəst radikalların toplanması zamanı oksidləşdirici stress yaradır. Onlar DNT zədələnməsinə və onkogenlərdə mutasiyalara səbəb olur. Mədə-bağırsaq xərçəngi olan hər beşinci şəxs şəkərli diabetdir.

Kolbasa yeməyə gəlincə, bir qayda olaraq, ən zərərli hisə verilmiş "dadlı" məhsulları insanlar hər gün yemir. Ancaq çoxları eyni qazlı içkini isti havalarda olduqca tez-tez içirlər. Ona görə də şəkərli, qazlı sular kolbasadan da təhlükəlidir, çünki ucuz olduğu üçün əlçatandır.

***Z.HÜSEYNLİ***
***XQ***

**ALLAH RƏHMƏT ELƏSİN**

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini Hikmət Osmanov keçmiş həmkarlar ittifaqı işçisi

**RƏNA DADAŞOVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3468
SİFARİŞ 1085
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV
Çapa imzalanmışdır 00:00